Xalqın qəzeti!

# Xalq qəzeti

№ 10 (30979) 17 yanvar 2026-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Bu gün dünyanın 16 ölkəsində Azərbaycan qazı alovlanır



**Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, həm xam neft, həm təbii qaz, neft məhsulları və elektrik enerjisini daxili tələbatı ödəmək üçün tam istehsal edir və eyni zamanda, bu 4 məhsulu dünya bazarlarına ixrac edir.**

**Biz nəhəng enerji infrastrukturu yaratmışıq ki, bu, Avrasiyanın enerji xəritəsini dəyişdirib. Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və ümumavropa qaz təchizatçısı adlandırır. Bu isə həm böyük üstünlük, həm də böyük məsuliyyətdir.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Paşinyana dəstək: Türkiyə "qol çırmayır"

*Hakan Fidanın açıqlaması nəyə hesablanıb?*



***Türkiyənin xarici işlər naziri Hakan Fidan Ermənistanda bu ilin yayında keçirilməsi nəzərdə tutulan parlament seçkilərindən danışıb və Ankaranın baş nazir Nikol Paşinyanın konstruktiv rolunu səmimi şəkildə dəstəklədiyini bildirib:***

**"Bildiyiniz kimi, iyun ayının əvvəlində Ermənistanda seçkilər keçiriləcək. Bu, mühüm addım olacaq. Lakin biz görürük ki, cənab Paşinyan hazırda ictimai rəy sorğularında öndədir. Biz onun bu məsələdə oynadığı konstruktiv rolu səmimi şəkildə dəstəkləyirik. Bu yanaşma, bu iradə qorunub saxlanmalıdır".**

***(ardı 3-cü səhifədə)***

## Regional inteqrasiyada yeni dövr



**Ermənistanın baş naziri Nikol Paşinyan Rusiyadan Azərbaycan və Türkiyə sərhədlərinə çıxan Ermənistan ərazisindəki dəmir yolu xətlərinin bərpası məsələsi ilə bağlı mümkün qədər tez qərar qəbul etməyi xahiş edib.**

Onun sözlərinə görə, bu məsələ Rusiya ilə təmaslar zamanı, o cümlədən dövlət və hökumət başçıları səviyyəsində müzakirə edilib: "Bəli, bu məsələ müzakirə olunub. Mən bunu Rusiya Prezidenti Vladimir Putinlə müzakirə etmişəm, həmçinin Ermənistan baş nazirinin müavininin Rusiya hökuməti sədrinin müavini ilə bu barədə danışmaq imkanı olub. Biz rusiyalı tərəfdaşlarımızdan cavab gözləyirik".

***(ardı 3-cü səhifədə)***

## Soyuq qitə uğrunda qızğın mübarizə

*Avropa gəlir, amma son qərar Ağ Evindir*



**2026-cı ilin yanvar ayında yaşanan hadisələr beynəlxalq münasibətlər sistemində yeni səhifə açır. Fransa, Almaniya və İsveç hökumətlərinin rəsmi Kopenhagen və Nuuk rəhbərliyi ilə razılaşdırılmış şəkildə Qrenlandiya ərazisinə təlim-məşq məqsədli hərbi kontingent göndərmək qərarı ilk baxışda Şimali Atlantika Alyansının şimal cinahını möhkəmləndirmək cəhdi kimi görünsə də, mövcud gedişin Donald Trampın strateji hesablamalarına mühüm təsir göstərməyəcəyini ortaya qoyur.**

Ağ Evin siyasi kursunu müəyyən edən respublikaçı liderin dünyagörüşündə Qrenlandiya məsələsi Amerikanın qlobal resurs bazasına nəzarət imkanlarının genişləndirilməsi və Şimal yarımkürəsində mütləq dominantlığın təmin edilməsi doktrinasının ayrılmaz hissəsidir. Avropalı tərəfdaşların Arktika adasına məhdud sayda hərbi personal, təlimatçı və xüsusi təyinatlı qüvvələr yerləşdirməsi Vaşinqton tərəfindən tərəfdaşlıq jesti kimi qiymətləndirilsə də, Trampın praqmatik və "Öncə Amerika" yanaşmasını dəyişmək gücündə deyil.

***(ardı 3-cü səhifədə)***


### Gündəmdə Yeni Dehlinin diskriminasiya siyasətidir




Səhifə ⇨ 4

### Katolikosun agent qardaşına görə antiyeparxial addımı



Səhifə ⇨ 4

### Postmüharibə mərhələsində Azərbaycanın təhlükəsizliyi



Səhifə ⇨ 5

### BMT TŞ-də İranla bağlı fövqəladə iclas keçirilib



Səhifə ⇨ 7

### "Plastik epidemiya"nın sonu çatacaqmı?



Səhifə ⇨ 8

### Mədəni irsimiz mənəvi sərvətimizdir



Səhifə ⇨ 9

### Türk xalqları hansı əlifbanı seçməlidir?



Səhifə ⇨ 10

## Ə.S.Cəlilovun “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri təyin edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əfqan Süleyman oğlu Cəlilov “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 yanvar 2026-cı il**

## N.V.İsmayılovanın “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

*Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında jurnalistika sahəsində xüsusi xidmətlərinə görə Nadejda Vasilyevna İsmayılova “Şöhrət” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 yanvar 2026-cı il**

## R.G.Vəliyevin “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rauf Göyüş oğlu Vəliyev “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 yanvar 2026-cı il**

## Kritik informasiya infrastrukturunun təhlükəsizliyi üzrə Komissiyanın ötən ilin yekunlarına dair iclası

**Kritik informasiya infrastrukturunun təhlükəsizliyinə dair ümumi və xüsusi tələblərə riayət olunması vəziyyətinin yoxlanılmasını təşkil etmək üçün yaradılmış Komissiyanın 2025-ci ilin yekunlarına dair iclası keçirilib.**

Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) əməkdaşlarından ibarət birgə Komissiyanın iclasında kritik informasiya infrastrukturunun təhlükəsizliyi üzrə cari vəziyyət, il ərzində aparılmış qiymətləndirmələrin nəticələri, habelə mövcud risklər müzakirə olunub, 2026-cı il üzrə əsas funksional hədəflər müəyyən edilib.

Bildirilib ki, DTX və XRİTDX əməkdaşlarının iştirakı ilə yerində aparılmış qiymətləndirmələr zamanı bəzi subyektlər tərəfindən təqdim edilən daxili audit hesabatlarında əks olunmuş vəziyyət ilə faktiki durum arasında uyğunsuzluqlar aşkarlanıb. Qeyd olunanlar əsas götürülərək kritik informasiya infrastrukturu obyektləri üzrə kibertəhlükəsizliyin möhkəmləndirilməsi üçün mərkəzləşmiş nəzarət mexanizmlərinin səmərəliliyinin artırılmasının vacibliyinə diqqət çəkilib.

İclasda, həmçinin müvafiq hüquqi-normativ mexanizmlərin tətbiqi, həyata keçirilmiş tədbirlər, kibertəhdid məlumatlarının mübadiləsi və beynəlxalq əməkdaşlıq üzrə praktik nəticələr müzakirə edilib.

Eyni zamanda, mövcud çağırışlar nəzərə alınaraq kritik informasiya infrastrukturunun təhlükəsizliyi ilə bağlı hüquqi-normativ bazanın inkişaf etdirilməsi, xüsusilə təhlükəsizlik tələblərinin təkmilləşdirilməsi istiqamətində təkliflər müzakirə olunub.

İclasın yekununda kritik informasiya infrastrukturunun təhlükəsizliyinə dair hazırlanmış yekun hesabat qəbul edilib.

## Pakistanın Baş naziri “ASAN xidmət”in sədrini qəbul edib



**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif Pakistan Hökumətinin üzvlərinin də iştirakı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Qəbul zamanı Baş nazir Pakistandakı ilk “ASAN xidmət” mərkəzinin yaradılmasında göstərilən dəstəyə görə bir daha Azərbaycan Prezidentinə səmimi təşəkkürlərini və minnətdarlığını bildirib.

Baş nazir qısa müddət ərzində paytaxt İslamabadda və Pakistanın bir sıra əyalətlərində “ASAN xidmət” mərkəzlərinin yaradılacağını qeyd edib. Həmçinin “Pakistan ASAN xidmət” mərkəzinin fəaliyyətini mütəmadi olaraq nəzarətdə saxlayacağını bildirib və bununla əlaqədar hökumət üzvlərinə tapşırıqlarını verib.

*XQ*

## Türkiyənin prokuror və hakimlər heyəti ölkəmizdə

**Yanvarın 16-da İstanbul şəhəri Baş prokurorunun müavini Can Tuncayın rəhbərlik etdiyi prokuror və hakimlərdən ibarət nümayəndə heyətinin Azərbaycana, o cümlədən Bakıya işgüzar səfəri reallaşdırılıb.**



Məqsədi prokurorluq orqanları arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi, institusional təcrübə mübadiləsinin aparılması və hüquqi sahədə əlaqələrin daha da möhkəmləndirilməsi olub.

Səfər çərçivəsində qonaqlar Bakı Şəhər Prokurorluğunda olublar. Bakı Şəhər prokuroru Elşən Abbasov prokurorluq orqanlarının fəaliyyəti, idarəetmə sistemi, struktur quruluşu və səlahiyyət dairəsi, habelə, istintaq, prosessual nəzarət və vətəndaş müraciətlərinə baxılması mexanizmləri barədə onlara ətraflı məlumat verib. Nümayəndə heyətinə “Elektron Prokurorluq” İnformasiya Sisteminin fəaliyyəti, sistem çərçivəsində tətbiq edilən müasir rəqəmsal həllər, elektron xidmətlər, vətəndaş müraciətlərinin operativ, şəffaf və effektiv şəkildə icrasına imkan verən mexanizmlər barədə geniş təqdimat keçirilib.

Sonra nümayəndə heyəti Azərbaycanın Baş prokuroru Kamran Əliyev tərəfindən qəbul edilib. Görüş zamanı Azərbaycan və Türkiyə arasında mövcud olan strateji tərəfdaşlıq, dostluq və qardaşlıq münasibətlərinin yüksək səviyyədə olması vurğulanıb, bu münasibətlərin hüquq-mühafizə orqanları, xüsusilə prokurorluq qurumları arasında əlaqələrin daha da dərinləşməsinə və qarşılıqlı fəaliyyətin genişləndirilməsinə əlverişli şərait yaratdığı bildirilib.

Baş prokuror, həmçinin İstanbul Şəhər Prokurorluğu tərəfindən Qarabağ Universitetinin kitabxanasına hüquq sahəsinə dair xeyli sayda elmi və tədris vəsaitinin bağışlanmasını məmnunluq hissi ilə vurğulayıb, göstərilən diqqət və dəstəyə görə öz təşəkkürünü ifadə edib.

*XQ*

## Baş prokurorun Şirvanda vətəndaş qəbulu



**Yanvarın 16-da Baş prokuror Kamran Əliyev Şirvan Şəhər Prokurorluğunun inzibati binasında Şirvan şəhər, Hacıqabul, Salyan, Neftçala və Biləsuvar rayonundan olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 28 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

*XQ*

## Energetika Nazirliyində görüş

**Energetika naziri Pərviz Şahbazov Bakı və Sumqayıt şəhərlərindən olan vətəndaşlarla görüşüb.**



Energetika Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, nazirlikdə təşkil olunmuş görüş zamanı elektrik xətlərinin kabelləşdirilməsi, sayğacların quraşdırılması, enerji sərfiyyatı üzrə borcun yaranması, mənzilin təbii qaz təchizatı və digər istiqamətlərdə müraciətlər dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün aidiyyəti struktur bölmələrə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, Energetika Nazirliyi tərəfindən vətəndaş müraciətlərinə baxılması işinin səmərəli təşkili məqsədilə rəhbər vəzifəli şəxslərin 2026-cı il üzrə vətəndaş qəbulu qrafiki nazirliyin rəsmi internet səhifəsində yerləşdirilib.

*XQ*

## Milli Qəhrəman Şahin Tağıyevin dəfni



**Yanvarın 16-da Azərbaycanın Milli Qəhrəmanı Şahin Tağıyev Hərbi Memorial Məzarlıqda dəfn edilib.**

Əvvəlcə Azərbaycanın Milli Qəhrəmanı ilə vida mərasimi keçirilib. Mərasimdə dövlət qurumlarının təmsilçiləri, ictimaiyyət nümayəndələri, mərhumun ailə üzvləri, doğmaları və döyüş yoldaşları iştirak ediblər.

Daha sonra Şahin Tağıyevin nəşi Azərbaycan Respublikası Dövlət Himninin sədaları və yaylım atəşi altında torpağa tapşırılıb.

Azərbaycanın Milli Qəhrəmanının ruhuna dualar oxunub, məzarı üzərinə tər güllər düzülüb, əklil qoyulub.



Xatırladaq ki, əslən Şuşadan olan Şahin Talıb oğlu Tağıyev 1949-cu il fevralın 3-də Tərtər şəhərində anadan olub. 1969-cu ildə Energetika Texnikumunu bitirib və təyinatla Rusiyanın Udmurt vilayətinə göndərilib. Gənc yaşlarından Rusiya və Azərbaycanda energetika, ticarət sahələrində fəaliyyət göstərən Şahin Tağıyev 1988-ci ildə Milli Azadlıq Hərəkatına qoşulub. 1991-ci ildə könüllü olaraq Qarabağ müharibəsinə qatılan qəhrəman leytenant rütbəsində bölük komandiri kimi döyüşlərə rəhbərlik edib. 1992-ci ildə həmin bölüyün bazasında yaradılan “Qurtuluş” batalyonunun komandiri təyin edilərək Ağdərə istiqamətində düşmən cəbhəsinin yarılmasında, eləcə də Tərtər, Seysulan, Yarımca və Levonarx istiqamətlərində aparılan döyüşlərdə xüsusi igidlik nümayiş etdirib. Dekabrın 29-da İsveç Krallığının Malmö şəhərində uzun sürən xəstəlikdən sonra vəfat edib.

Şahin Tağıyevin cənazəsi Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və təşkilatçılığı ilə yanvarın 15-də gecə saatlarında Vətənə gətirilib.

Milli Qəhrəmanın oğlu Rövşən Tağıyev atasının Vətən sevgisindən övladlarına və nəvələrinə də pay verdiyini, onları vətənpərvər ruhda böyütdüyünü deyib. “2020-ci ildə, 44 günlük Vətən müharibəsi dövründə atam Vətənə gəlmək istəyirdi. O, keçmiş döyüşçü kimi müharibəyə qoşulmaq və döyüşmək arzusu ilə alışıb-yanırdı. Lakin koronavirus pandemiyası və yaşının çoxluğu səbəbindən döyüşmək alınmadı. Milli Qəhrəman kimi aldığı təqaüdü Azərbaycan Silahlı Qüvvələrinə Yardım Fondunun hesabına köçürmüşdü. Noyabrın 8-də işdə idim. Zəng edib, Şuşanın azad olunduğunu bildirdi və ağladı”, – deyə o diqqətə çatdırıb.

*XQ*

# Regional inteqrasiyada yeni dövr

(əvvəli 1-ci səhifədə)

Söhbət Ermənistanı Azərbaycan, Naxçıvan və Türkiyə ilə birləşdirən İcevan, Yerasx və Axurik sahələrindən gedir. Bunlar 1980-ci illərin sonlarından etibarən fəaliyyət göstərməyən, sovet dövründə tikilmiş dəmir yolu xətləridir. Hazırda istifadəyə yararsız vəziyyətdədir.

Ermənistan rəhbərliyinin Azərbaycan və



Türkiyə istiqamətində dəmir yolu kommunikasiyalarının bərpasına dair son çağırışları Cənubi Qafqazda formalaşmaqda olan yeni iqtisadi arxitekturanın tərkib hissəsidir. Nikol Paşinyanın bu məsələni tələsik gündəmə gətirməsi yalnız daxili iqtisadi çətinliklərlə deyil, həm də regionda dəyişən tranzit balansı ilə bağlıdır. Reallıq ondan ibarətdir ki, uzun illər bağlı qalan dəmir yolu xətləri Ermənistanın iqtisadi imkanlarını məhdudlaşdırıb. Ona görə də Ermənistan üçün bu proses fundamental əhəmiyyət daşıyır. Dəmir yollarının açılması İrəvana həm tranzit gəlirləri, həm də daxili bazarın canlanması baxımından real dividendlər vəd edir. Ermənistan ərazisindən keçəcək yüklər ölkəyə daimi maliyyə axını təmin etməklə yanaşı, logistik, xidmət və infrastruktur sektorlarında yeni iş yerlərinin yaranmasına səbəb olacaq. Bu, xüsusilə Ermənistan iqtisadiyyatının xroniki büdcə və investisiya çatışmazlığı fonunda əhəmiyyətlidir.

Dəmir yolu xətlərinin bərpası üçün nəzərdə tutulan xərclər də önəmlidir. Ermənistan hökumətinin son hesablamalarına görə, Razdan–İcevan–Qazax–Ağstafa xətti üçün 318, Yerasx–Horadiz xətti üçün 61,5, Gümrü–Axuryan sahəsi üçün isə 8–9 milyon dollar tələb olunur. Hətta daha geniş yanaşma ilə götürüldükdə, bütün əsas istiqamətlərin bərpasının xərcləri 400–500 milyon dollar civarında qiymətləndirilir.

İlk baxışdan bu rəqəmlər Ermənistan üçün böyük yük kimi görünə bilər, lakin uzunmüddətli perspektivdə həmin xərclər investisiya xarakteri daşıyır. Xəttin bərpasından sonra tranzit rüsumları, daşımaların artması və iqtisadi aktivliyin genişlənməsi bu məbləğin mərhələli şəkildə geri qayıtmasına imkan verəcək.

Azərbaycan üçün də müəyyən infrastruktur uyğunlaşdırmaları və koordinasiya xərcləri qaçılmazdır, lakin Bakı artıq regional nəqliyyat layihələrində böyük təcrübə toplayıb. Bakı–Tbilisi–Qars dəmir yolu, beynəlxalq dəniz limanı və Şərq–Qərb, Şimal–Cənub dəhlizləri göstərir ki, Bakı üçün nəqliyyat xərcləri yalnız xərc deyil, strateji üstünlük yaradan alətdir. Ermənistan istiqamətində xətlərin açılması bu strategiyanı tamamlayır.

Onu da qeyd edək ki, bugünədək Azərbaycan neft məhsullarının, eləcə də digər ixrac yüklərinin daşınmasında Gürcüstan üzərindən keçən dəmir yolu və liman infrastrukturundan istifadə edib. Gürcüstan tranzit ölkə kimi strateji üstünlüklərini tarif siyasətində əks etdirib. Uzun illər Azərbaycan yükləri üçün tətbiq edilən dəmir yolu və liman rüsumları alternativ marşrutların olmaması səbəbindən nisbətən yüksək səviyyədə saxlanılıb. Azərbaycanın neft məhsullarının Gürcüstan üzərindən Ermənistana göndərilməsi zamanı da bu problem qarşıya çıxdı. Bu isə Azərbaycanın ixrac xərclərini artırmaqla yanaşı, məhsulların beynəlxalq bazarlarda rəqabət qabiliyyətinə də mənfi təsir göstərir. Yeni və ya bərpa olunacaq marşrutlar Azərbaycan üçün alternativ çıxış imkanları formalaşdırır. Bu, Gürcüstan üzərindən keçən yollara monopoliya xarakteri verən asılılığı azaldacaq və nəticə etibarilə tariflərin aşağı salınması üçün həm Gürcüstanla danışıqlarda, həm də ümumi regional logistikada Bakının mövqeyini gücləndirəcək. Tranzitdə alternativin olması təkcə iqtisadi deyil, həm də siyasi alətdir.

Bu prosesin Gürcüstan üçün də dolayı təsirləri olacaq. Gürcüstan tranzit əhəmiyyətini tam itirməsə də, alternativ marşrutların yaranması onu daha çevik və rəqabətə açıq tarif siyasəti yürütməyə vadar edəcək. Bu isə regional nəqliyyat bazarında daha balanslı və iqtisadi cəhətdən səmərəli mühit formalaşdıracaq.

Beləliklə, Azərbaycan və Ermənistan arasında dəmir yolu əlaqələrinin bərpası tərəflərin hər ikisinə iqtisadi qazanc, regiona isə daha dayanıqlı və proqnozlaşdırılan nəqliyyat sistemi vəd edir. Gürcüstan üzərindən bahalı tranzitdən asılılığın azalması, xərclərin diversifikasiyası və yeni marşrutların açılması Cənubi Qafqazda iqtisadi əməkdaşlığın münaqişə ritorikasını tədricən sıxışdırıb arxa plana keçirməsi üçün real zəmin yaradır. Bu baxımdan dəmir yollarının bərpası təkcə relslərin yenidən çəkilməsi deyil, regionun iqtisadi xəritəsinin yenidən cızılması, siyasi sabitlik deməkdir.

***Ə.PÜNHAN***
***XQ***

### *Ekspert rəyi*

**Yeganə HACIYEVA,**
**politoloq**



Azərbaycan–Ermənistan münasibətləri formal olaraq münaqişədən sonrakı mərhələyə daxil olsa da, sülh sazişinin imzalanmaması, sərhədlərin hüquqi baxımdan dəqiqləşdirilməməsi və Hayastanda daxili revanşizm meylləri nəqliyyat layihələrini potensial təzyiq alətinə çevirə bilər. Ermənistan daxilində bu xətlərin "təhlükəsizlik riski" kimi təqdim olunması və ya mümkün hakimiyyət dəyişikliyi fonunda layihələrin yenidən siyasiləşdirilməsi də ehtimal oluna bilər. Bu isə uzunmüddətli tranzit sabitliyi baxımından əsas risklərdən biridir. Digər məqam isə Ermənistan tərəfindən institusional və hüquqi passivlik riski ilə bağlıdır. Bu ölkədə regional iqtisadi əməkdaşlıq üçün tələb olunan institusional baza hələ tam formalaşmayıb.

Gömrük rejimləri, sərhəd nəzarəti, yüklərin təhlükəsizliyi, sığorta mexanizmləri və mübahisələrin həlli prosedurları aydın və qarşılıqlı tanınmış qaydalar üzərində qurulmasa, dəmir yollarının açılması gözlənilən iqtisadi effekti verməyə bilər. Həmçinin bu, ölkədə layihələrin icrasını ləngidəcək və ya siyasi manipulyasiya predmetinə çevriləcək.

Hazırda Ermənistanda ictimai müqavimət, populist ritorika müşahdə olunur. Paşinyanın komandasının dəmir yollarının bərpası məsələsində, eyni zamanda, Rusiya və ABŞ-la paralel danışıqlar aparması layihənin sırf iqtisadi deyil, geosiyasi alət kimi istifadə edildiyini göstərir. Böyük güclər arasında maraqların toqquşması nəqliyyat xətlərinin gələcək idarəetmə modeli, təhlükəsizlik zəmanətləri və investisiya mənbələri üzərində qeyri-müəyyənlik yarada bilər.

Diqqətə alınmalı məqam isə iqtisadi səmərəlilik və yük axınlarının davamlılığı ilə bağlıdır. Dəmir yollarının bərpasına yönələn 400–500 milyon dollarlıq investisiyanın geri dönüşü yalnız sabit və böyük həcmli yük axınları təmin olunacağı təqdirdə mümkündür. Beləliklə, dəmir yolu əlaqələrinin bərpası Cənubi Qafqaz üçün böyük iqtisadi və strateji imkanlar açsa da, bu proses avtomatik şəkildə sülh və sabitlik gətirmir. Bu layihələr yalnız möhkəm institusional baza, hüquqi təminatlar, təhlükəsizlik mexanizmləri və siyasi iradə ilə dəstəkləndiyi halda riskləri fürsətə çevirə bilər. Əks təqdirdə, dəmir yolları inteqrasiya alətindən çox, gələcəkdə yeni gərginlik xətlərinə çevrilə bilər.

# Paşinyana dəstək: Türkiyə "qol çırmayır"

(əvvəli 1-ci səhifədə)



Bəli, H.Fidan, indidən kifayət qədər açıq mesaj verdi və Türkiyənin Ermənistanın hazırkı iqtidarını dəstəklədiyini bəyan etdi. Hesab edirik ki, belə bir mesajın verilməsi adi məsələ sayıla bilməz. Hər halda, H.Fidan kimi şəxsin ifadə etdiyi hər fikrin dəqiq hesablanmış strategiyadan qaynaqlandığının əlavə sübuta ehtiyacı yoxdur. Axı Ermənistanda Paşinyan iqtidarını devirmək üçün kimlərin, hansı qüvvələrin canfəşanlıq etdikləri və onların hara bağlı olduqları gün kimi aydındır. Bu məqama qayıdacağıq.

Tam əminliklə demək olar ki, Türkiyə XİN rəhbərinin Ermənistanda keçiriləcək parlament seçkiləri ilə bağlı açıqlaması region üçün qeyri-adi və diqqətçəkən diplomatik mesajdır. Çünki Ankara uzun illərdir Ermənistanla rəsmi münasibətləri məhdud saxlayan, proseslərə əsasən dolayı təsir göstərən aktor olub. Bu dəfə isə qardaş ölkə açıq şəkildə Ermənistanın daxili siyasi prosesinə münasibət bildirir və konkret siyasi fiqurun, yəni N.Paşinyanın mövqeyini müsbət qiymətləndirir. Hesab edirik ki, belə bir qiymətləndirmə özlüyündə tarixdə bir ilkdir. İndiyədək hansısa türk liderin və ya rəhbər şəxsin erməni lideri, yaxud rəhbər şəxsi dəstəklədiyinə dair örnək yoxdur. Əlbəttə, bu vaxtadək dəstəklənə biləcək erməni lider anlayışı da istisna təşkil edib. Bu mənada, Paşinyanın özünün də tarixə düşdüyünü vurğulamaq mümkündür.

Əlqərəz, H.Fidanın Paşinyanın siyasi dəst-xəttini konstruktiv qiymətləndirməsi bir neçə mühüm məqama söykənir. İlk növbədə, Nikolun regional sülh gündəliyinə açıq olmasını vurğulamaq olar. Həqiqətən, erməni baş nazirin son vaxtlar verdiyi bəyanatlar Cənubi Qafqazdakı yeni reallıqlara adekvat görünür. Yəni Paşinyan Azərbaycan–Ermənistan normallaşma prosesinə maneçilik törətmir, Ankara–İrəvan münasibətlərinin normallaşmasına səy göstərir. Buna görə də Türkiyə Nikolu indiyədək olan status-kvonu dəyişməyə çalışan, daha praqmatik lider qiyafəsində görür. Təsadüfi deyil ki, H.Fidan açıqlamasında Bakı ilə İrəvan arasında əldə olunmuş razılaşmanın icrasından, eləcə də Zəngəzur dəhlizindən söz açıb və bildirib ki, məsələ ilə bağlı intensiv iş aparılır. Yeri gəlmişkən, Fidan Zəngəzur dəhlizinin Naxçıvanın Azərbaycanın əsas ərazisi ilə birləşdirilməsi, həmçinin Türkiyənin türk dünyası və Mərkəzi Asiya ilə birbaşa əlaqəsinin təmin olunması baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Nəzərə alaq ki, başlıca məqsədin texniki məsələləri reallaşdırmaqdan, qarşıya qoyulmuş vəzifələrin tez bir zamanda həllini təmin etməkdən ibarət olduğunu deyən H.Fidan Azərbaycan, Ermənistan və Türkiyənin siyasi rəhbərliyinin start verilmiş prosesdə siyasi iradə nümayiş etdirdiklərini də vurğulayıb. Bu, həlledici məqamdır.

Digər tərəfdən, o da məlumdur ki, bir Türkiyə rəsmisinin seçkilər ərəfəsində Paşinyana dəstək verməsinin erməni cəmiyyətinə bəlli mesaj yükü var. Yəni H.Fidan demək istəyir ki, hazırkı kursu davamlı olsa, Ermənistan düşdüyü regional təcriddən çıxacaq. Türkiyə XİN rəhbərinin bildirdikləri, həmçinin erməni siyasi müxalifətinə xəbərdarlıqdır. Xəbərdarlığın motivi aydındır: Paşinyana dəstəklə Ermənistandakı radikal revanşist xəttin güclənməsinə imkan tanınmayacaq. Bu, birbaşa müdaxilə olmasa da, diplomatik yönləndirmə kimi qiymətləndirilə bilər.

H.Fidanın açıqlaması, eyni zamanda, regional siyasi kontekstdən də qiymətləndirilə bilər. Yəni, o, Ankara–Bakı tandeminin fəaliyyətini davam etdirdiyini diqqətə çatdırır. Başqa sözlə desək, Türkiyə bununla Azərbaycanın sülh gündəliyinə dəstəyini bir daha göstərir, Qarabağ münaqişəsinin başa çatmasından sonrakı reallıqların qəbulunu təşviq edir. Məlumdur ki, Paşinyanın zəifləyəcəyi və ya hakimiyyətdən gedəcəyi təqdirdə Ermənistanda revanşist qüvvələrin güclənməsi ehtimalı var ki, bu isə ciddi regional risk faktoru və ssenarisidir. Belə bir ssenarinin hansısa şəkildə işlək duruma gəlməsi yolverilməzdir.

Riskdən söz düşmüşkən, H.Fidanın açıqlaması ilə bağlı əvvəldə üzərinə qayıdacağımızı bildirdiyimiz məqama diqqət yetirək. Məlumdur ki, Paşinyanı devirmək və ya hakimiyyət kürsüsündən uzaqlaşdırmaq istəyən qüvvələrin arxasında Rusiya dayanır. Məsələ ondadır ki, Nikol İrəvanın Moskva ilə münasibətlərində Ermənistanın əvvəlki hökumətləri qədər asılı mövqe nümayiş etdirmir. Mövcud trayektoriyada Türkiyənin ona dəstəyi İrəvanın daha çox Qərb və regional balans siyasətinə sadiqliyinin qorunmasını təşviq edir. Deməli, H.Fidanın mövqeyi Rusiyanın Cənubi Qafqazdakı təsirinə alternativ diplomatik xəttin yaradılmasıdır.

Əlbəttə, H.Fidanın açıqlamasının tam şəkildə Paşinyana xeyirli olacağını vurğulamaq bir o qədər yerinə düşmür. Çünki Türkiyə XİN rəhbərinin dedikləri hələ də keçmişin mənfi təsirlərini üzərindən atmayan erməni cəmiyyətində qızğın müzakirə doğurub. Müxalif qüvvələr Nikolu Türkiyəyə yaxınlıqda ittiham edirlər ki, bu da onun reytinqinə müəyyən mənfi təsir göstərə bilər. Amma belə bir durum yaranacaqsa, onu aradan qaldırmaq baş nazirin öz üzərinə düşən vəzifədir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Soyuq qitə uğrunda qızğın mübarizə

(əvvəli 1-ci səhifədə)

Mövcud prosesin analizində diqqət yetirilməli ilk məqam Trampın Qrenlandiyaya yanaşmasının tarixi və iqtisadi kökləridir. Hələ ötən əsrin ortalarında ABŞ rəhbərliyi tərəfindən adanın satın alınması təklifi irəli sürülmüşdü və hazırkı ABŞ lideri məhz həmin tarixi irsi davam etdirərək Qrenlandiyanı Şimali Amerika qitəsinin strateji qalası kimi görür. Fransa və ya Almaniyanın hərbi mövcudluğu ABŞ üçün adanın dəyərini azaltmır, əksinə, regionun hərbiləşməsinin qaçılmaz olduğunu təsdiqləyərək Vaşinqtonun daha qətiyyətli addımlar atması zərurətini önə çıxarır. Tramp administrasiyası hesab edir ki, Avropa dövlətlərinin hərbi büdcələri, logistik imkanları Arktika kimi sərt iqlim şəraitində uzunmüddətli və genişmiqyaslı əməliyyatlar aparmaq üçün yetərli deyil. Buna görə də, Paris və Berlinin göndərdiyi simvolik qüvvələr Rusiya və Çin kimi rəqiblərin regiondakı fəaliyyətini neytrallaşdırmaqda aciz qalacaq.

İsveç kimi yeni NATO üzvünün prosesə qoşulması Alyans daxilində Arktika məsuliyyətinin bölüşdürülməsi cəhdi kimi dəyərləndirilir. Lakin Trampın siyasi fəlsəfəsində kollektiv məsuliyyət çox vaxt "effektsizlik" kimi qəbul edilir. O, ikitərəfli, birbaşa və konkret nəticəyə hesablanmış sövdələşmələrə üstünlük verir. Qrenlandiya ilə bağlı onun vizyonu adanın resurslarına və idarəçiliyinə birbaşa nüfuz etməyi nəzərdə tutur. Avropa kontingentinin orada olması, bəlkə də Kopenhagenin Vaşinqton qarşısında manevr imkanlarını artırmaq cəhdidir. Yəni Danimarka hökuməti göstərmək istəyir ki, adanın təhlükəsizliyini təmin etmək üçün təkcə ABŞ-a möhtac deyil və alternativ tərəfdaşları var. Amma Tramp administrasiyası mövcud gedişi asanlıqla oxuyur və buna qarşı iqtisadi rıçaqları işə salmaq potensialına malikdir. Məsələn, ABŞ Qrenlandiyanın iqtisadiyyatına elə həcmdə investisiya vəd edə bilər ki, Aİ-nin ayırdığı qrantlar onun yanında cüzi görünər.

Hərbi-strateji aspektdən yanaşdıqda Qrenlandiyadakı Pituffik aviabazasının əhəmiyyəti əvəzsizdir. Rusiya qitələrarası ballistik raketlərinin ABŞ ərazisinə çata biləcəyi ən qısa trayektoriya məhz Qrenlandiya üzərindən keçir. Bundan əlavə, kosmik müşahidə və raketdən müdafiə sistemlərinin radar stansiyaları burada yerləşir. Avropa ölkələrinin göndərdiyi kiçik qruplar belə qlobal səviyyəli strateji obyektlərin mühafizəsini və ya əvəzlənməsini həyata keçirə bilməz. Tramp yaxşı anlayır ki, nüvə çəkindirmə qüvvəsi baxımından Avropa ABŞ-dan tam asılıdır. Ona görə də, Fransa və ya Almaniya hərbçilərinin adada olması strateji balansı dəyişmir.

Avropa paytaxtlarının mövcud qərarının arxasında duran siyasi motivləri də nəzərdən qaçırmaq olmaz. Rusiya təhlükəsinin artması fonunda Avropa liderləri öz ictimaiyyətinə fəaliyyətsiz qalmadıqlarını göstərməyə çalışırlar. İsveç və Finlandiyanın NATO-ya daxil olması ilə Arktika Şurasının, demək olar ki, bütün üzvləri (Rusiya istisna olmaqla) alyansın çətiri altında birləşib. Alyans daxilində liderlik məsələsi



Tramp üçün qırmızı xətdir. O, heç bir halda NATO-nun Avropa qanadının müstəqil qərarlar verməsini və ABŞ-ın strateji maraqlarına toxunan addımlar atmasını qəbul etmir. Buna görə də Qrenlandiyaya qoşun göndərilməsini Ağ Ev soyuq qarşılayacaq, "yaxşı addımdır, amma pulunu ödəyin tipli bəyanatlarla müşayiət olunacaq.

Hadisələrin gələcək inkişaf ssenarilərində daha maraqlı mənzərənin şahidi ola bilərik. Ehtimal edilir ki, Tramp administrasiyası cavab olaraq Qrenlandiyada ABŞ konsulluğunun statusunu yüksəldəcək və ya birbaşa iqtisadi nümayəndəlik açacaq. Həmçinin ABŞ hərbçilərinin adadakı sayının artırılması və yeni infrastruktur layihələrinin başladılması gündəmə gələcək. Belə layihələr yerli əhali üçün iş yerləri deməkdir və bu, siyasi elitanın ABŞ-a rəğbətini artıracaq. Avropa hərbçilərinin adada, sadəcə, təlim keçməsi uzunmüddətli iqtisadi fayda vermədiyi üçün onlar yerli əhali arasında "qonaq" kimi qəbul ediləcək, amerikalılar isə "tərəfdaş" və "investor" statusu qazanmağa çalışacaqlar. Digər tərəfdən, Rusiya amilini də unutmaq olmaz. Rəsmi Moskvanın Arktikada hərbi fəallığı, nüvə sualtı qayıqlarının sınaqları və "Poseydon" kimi strateji silahların yerləşdirilməsi Qərbi narahat edir. Avropa qoşunlarının Qrenlandiyaya gəlməsi Kreml tərəfindən təxribat kimi qiymətləndiriləcək, Rusiya bunu "NATO-nun Arktikanı işğal etməsi" kimi qələmə verəcək. Belə gərgin vəziyyətdə Trampın "Mən Putinlə danışa bilərəm, Avropa isə vəziyyəti gərginləşdirir" arqumenti yenidən aktuallaşacaq.

Siyasi analitikanın dərin qatlarında gizlənən başqa bir məqam Qrenlandiyanın müstəqillik arzularıdır. Yerli siyasi partiyalar uzun müddətdir Danimarkadan tam ayrılmaq istəyirlər. Trampın strategiyasının məhz həmin istəkləri körükləmək üzərində qurulması ehtimalı böyükdür. O, müstəqil Qrenlandiyanı daha asan idarə edilə bilən tərəfdaş kimi görür. Avropa qoşunlarının adaya gəlməsi, Danimarkanın suverenliyini möhkəmləndirmək cəhdi kimi göründüyü üçün, müstəqillik tərəfdarı olan qrenlandiyalılar tərəfindən mənfi qarşılana bilər.

Texnoloji amillər də mövcud məsələdə rol oynayır. Arktika regionunda kommunikasiya, peyk rabitəsi və naviqasiya çətinlikləri mövcuddur. ABŞ-ın "SpaceX" və digər özəl şirkətləri vasitəsilə təqdim etdiyi "Starlink" tipli sistemlər regionun rəqəmsal infrastrukturunu dəyişir. Avropa qoşunları da rabitə və kəşfiyyat məlumatları üçün Amerika texnologiyalarından asılı vəziyyətdədir. Vaşinqton istənilən an məlumat mübadiləsini məhdudlaşdırmaqla avropalı müttəfiqlərinə yerini göstərə bilər. Hərbi əməliyyatlarda informasiya üstünlüyü həlledicidir. Ona görə də, fiziki olaraq, orada kimin əsgərinin dayanmasından asılı olmayaraq, rəqəmsal və kəşfiyyat məkanı ABŞ-ın nəzarətindədir.

Avropa qoşunlarının Qrenlandiyaya yerləşdirilməsi hadisəsi transatlantik münasibətlərdəki etimad böhranının göstəricisidir. Tərəflər bir-birinə tam güvənmir və hər kəs öz sığorta variantını hazırlayır. Lakin güc balansı birmənalı şəkildə ABŞ-ın xeyrinədir. Donald Trampın stabil və dəyişməz yanaşması ondan ibarətdir ki, güc haqlıdır və gücə sahib olan tərəf Qrenlandiyanın sahibidir. Avropa isə hazırkı vəziyyətdə yumşaq güc nümayiş etdirir, sərt güc isə Pentaqonun əlindədir. Sözügedən proseslərdən sonra gözlənilən əsas hadisə Arktika regionunda ABŞ hərbi infrastrukturunun genişlənməsi və Qrenlandiya hökuməti ilə Vaşinqton arasında birbaşa təmasların intensivləşməsi olacaq. Avropa bayraqları Qrenlandiya küləyində dalğalana bilər, amma siyasi küləklər Vaşinqtondan əsməkdə davam edəcək. Trampın Arktika xəritəsində Qrenlandiya hələ də ABŞ gələcək əyaləti kimi işarələnib və heç bir xarici qüvvə həmin xəritəni silmək iqtidarında deyil. Nəticədə, Qrenlandiya uğrunda gedən səssiz müharibədə həlledici sözü yenə də Ağ Ev deyəcək.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Gündəmdə Yeni Dehlinin diskriminasiya siyasətidir

*"Hindistanda zikhlərə və digər milli azlıqlara qarşı irqçilik və zorakılıq: mövcud reallıqlar" mövzusunda beynəlxalq konfransın məramı*

**Yanvarın 16-da Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə Hindistan hökumətinin etnik azlıqlara qarşı repressiv siyasətinə həsr edilmiş "Hindistanda zikhlərə və digər milli azlıqlara qarşı irqçilik və zorakılıq: mövcud reallıqlar" adlı beynəlxalq konfransda Pəncab əyalətinin insan hüquqları və azlıqlar üzrə naziri Rameş Singh Arora və digər rəsmilər, eləcə də Zikh icmasının Kanada, Böyük Britaniya və ABŞ-dakı nüfuzlu nümayəndələri, etnik azlıqların təmsilçiləri, beyin mərkəzlərinin rəhbərləri, Hindistan hökumətinin repressiv, irqçilik və təqib siyasətinin birbaşa qurbanı olan şəxslər iştirak edirdilər.**






**Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov** çıxışında qeyd etdi ki, BTQ indiyədək 30-dan çox hesabat və dörd kitab nəşr etdirib, həmçinin BMT qurumları xəttilə bir neçə alternativ hesabat yayımlayıb. O bildirdi ki, qurum, həmçinin Afrika Mənşəli İnsanlar üçün Beynəlxalq Onilliyin icrasına həsr olunmuş əsas çağırışları və bu qrupların hüquqlarının qorunmasının, onların tanınmasının və inkişafının təşviqi üzrə tövsiyələri əks etdirən əhatəli hesabatı BMT-yə təqdim edib. Həmin hesabat BMT Baş katibinin 2025-ci il üzrə Afrika Mənşəli İnsanlar üçün Beynəlxalq Onilliyin həyata keçirilməsinə dair Fəaliyyət Proqramına dair məruzəsində xüsusi olaraq qeyd edilib.

Konfransda, həmçinin Hindistan hökumətinin zikhlərə və digər etnik azlıqlara qarşı sistemli şəkildə apardığı irqi ayrı-seçkilik, zorakılıq və repressiv siyasəti, bu xüsusda BMT-nin "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt", "İrqçiliklə mübarizə üzrə beynəlxalq konvensiya" və "İşgəncələrə qarşı konvensiya" üzrə öhdəliklərinin etnik azlıqlara münasibətdə kobud şəkildə pozulması məsələləri müzakirə edilib.

Bu barədə XQ-yə eksklüziv açıqlama verən konfrans iştirakçısı, **Zikh icmasının sədri Bual Moninder Singh** bu cür beynəlxalq tədbirlərin əhəmiyyə-



tini diqqətə çatdıraraq bildirdi ki, qlobal miqyasda bəzən layiq olduğu diqqəti görməyən, lakin son dərəcə mühüm mövzuların müzakirəsi mütləqdir. O, məsələnin beynəlxalq müstəviyə çıxarılmasının vacibliyini önə çəkdi: "Hazırda elə bir reallıq içindəyik ki, bu reallıq etnik azlıqları dünya miqyasında öz gələcəyi ilə bağlı qərar verməyə məcbur edir. Təəssüf ki, etnik azlıqlara qarşı zorakılıq, sadəcə, Hindistan ərazisi ilə məhdudlaşmır. Hindistan bu zorakılığı artıq Kanada, Böyük Britaniya və zikh icmasının əhəmiyyətli sayda yaşadığı, siyasi cəhətdən fəal olduğu digər diaspor ölkələrində də həyata keçirir. Bununla da zikh xalqının siyasi iradəsini və öz dövlətləri Xalistanı yaratmaq istiqamətindəki hərəkatı boğmaq istəyir. Etnik azlıqlara qarşı törədilən bütün cinayətlər, əslində Hindistan dövlətinin öz vətəndaşı adlandırdığı insanlara qarşı həyata keçirdiyi repressiyanın sistemli şəkildə tətbiqinin sübutudur".

İcma sədri, həmçinin qeyd etdi ki, müstəmləkəçilik etnik və dini azlıqlara qarşı ən qəddar münasibəti formalaşdırır: "Etnik azlıqlar özlərini yenidən dərk etməyə, dünyada yer tapmağa və bir vaxtlar malik olduqları suverenliyi bərpa etməyə çalışdıqları anda ən sərt təzyiqlərlə üz-üzə qalırlar. Bu baxımdan, əsas məsələ ondan ibarətdir ki, Hindistan bu gün dünya üçün doğrudan da etibarlı tərəfdaş sayıla bilərmi? Məqsədimiz Hindistanın gerçək simasını dünyaya göstərməkdir. Ona görə də bu cür konfransları yüksək qiymətləndirirəm".

**Zikh Federasiyasının (Böyük Britaniya) icraçı direktoru Sidhu Dabindercit Singh** XQ-yə şərhində bildirdi



ki, sayca azlıq təşkil edən icmalar bəzən dövlətlərin taleyində həlledici rol oynayırlar: "Bunu tarixi faktlar da göstərir. Bir məqamı da vurğulamaq istəyirəm. Zikhlər 1950-ci ilin Hindistan Konstitusiyasını heç vaxt legitim sənəd kimi qəbul etməyiblər. Səbəb isə konstitusiyanın zikhizmi müstəqil və ayrıca din kimi tanımaması, onu digər dini sistemlər daxilində təqdim etməsidir. Bu yanaşma zikh icması tərəfindən həm kimliyin inkarı, həm də tarixi reallıqların təhrif edilməsi kimi qiymətləndirilir".

Onun sözlərinə görə, daha narahatedici məqam ondan ibarətdir ki, Hindistanın sonrakı hökumətlərinin heç biri bu konstitusion boşluğu aradan qaldırmaq üçün real addımlar atmayıb, əksinə, bu məsələ uzun illər siyasi manipulyasiya predmetinə çevrilib.

**Pəncab əyalətinin İnsan hüquqları və azlıqlar üzrə naziri Rameş Singh Arora** isə qəzetimizə açıqlama-



sında qeyd etdi ki, xristian icmalarının daxilində formalaşmış mürəkkəb sosial, demoqrafik və təhlükəsizlik mühiti beynəlxalq maliyyə institutlarının, xarici siyasi aktorların seçici və çox zaman ziddiyyətli reaksiyaları fonunda ortaya çıxan çoxsaylı faktlar uzun müddət beynəlxalq gündəlikdə lazımi yer tapa bilməyib: "Mövcud problemlər ya texniki çərçivəyə salınaraq dar iqtisadi kateqoriyalarla izah olunub, ya da geosiyasi maraqlar naminə məqsədli şəkildə arxa plana keçirilib. Lakin son illərdə artan siyasi risklər, dərinləşən sosial bərabərsizlik, icmalararası etimadın zəifləməsi və institusional boşluqlar artıq bu susqunluğun davam etməsini mümkünsüz edir. Sosial gərginliyin kəskinləşməsi daha geniş beynəlxalq təhlükəsizlik arxitekturasına təsir göstərən amil kimi özünü büruzə verir. Baş verən proseslər mövcud siyasətlərin və yanaşmaların səmərəsizliyini açıq şəkildə üzə çıxarır, eyni zamanda, uzun müddət gözardı edilən faktların artıq inkar edilə bilməyəcək qədər aydın və ciddi sübutlarla təsdiqləndiyini göstərir".

Tədbirdə, həmçinin Böyük Britaniyada yerləşən "Everything 13"ün əməliyyatlar üzrə meneceri Ranveer Singh, Zikh Federasiyasının hüquq məsləhətçisi Varrinq Prabcot Singh, "The Sikh Network" media portalının rəhbəri Khatkar Jaswinder və digər Zikh nümayəndələri çıxış ediblər.

Qeyd edək ki, zikhizm bərabərlik və ədalət prinsipləri üzərində qurulmuş bir inanc sistemi olsa da, Hindistanda bu icma uzun illərdir sistemli zorakılıq və repressiyalarla üz-üzədir. Xüsusilə 1984-cü il hadisələri və sonrakı onilliklərdə Pəncabda baş verən kütləvi qətllər, yoxa çıxmalar və məhkəməsiz edamlar Zikh icmasının kollektiv yaddaşında dərin izlər qoyub. Sözügedən təzyiqlər nəticəsində on minlərlə zikh ölkəni tərk edərək əsasən Qərb dövlətlərində məskunlaşıb və mübarizəni beynəlxalq müstəvidə davam etdirir.

Sonda qeyd edək ki, Bakı Təşəbbüs Qrupunun Hindistanda etnik və dini azlıqlara qarşı törədilən hadisələri beynəlxalq konfransın tribunasına çıxarması qlobal insan hüquqları diskursunda formalaşan ikili standartlara qarşı prinsipial siyasi mövqe kimi dəyərləndirilməlidir. Çünki Qrupun təqdim etdiyi yanaşma Qərb mərkəzli insan hüquqları institutlarının selektiv susqunluğuna qarşı alternativ platformaların formalaşmasının zəruriliyini bir daha gündəmə gətirdi. Bununla yanaşı, konfrans bir daha xatırlatdı ki, insan hüquqları anlayışını sadəcə müəyyən regionlara və ya siyasi konfiqurasiyalara tətbiq edilən alət kimi qiymətləndirmək doğru olmaz. Beləliklə, Bakının artıq normativ dəyərlər üzərindən mövqe bildirən, insan hüquqları və ədalət anlayışını universal müstəvidə müdafiə edən mərkəz statusu bir daha öz təsdiqini tapdı.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Katolikosun agent qardaşına görə antiyeparxial addımı

*Yepiskoplar Ali Ruhani Şuranın toplantısının Avstriyada keçirilməsinə qarşıdırlar*

**Erməni Apostol Kilsəsi ilə hökumət arasında münasibətlər öz gərginliyini qoruyub saxlamaqda davam edir. Tərəflər arasında qarşılıqlı ittihamlar ölkənin ictimai-siyasi gündəminin əsas mövzularından biri olaraq qalmaqdadır.**

Rəsmi İrəvan kilsə institutunun siyasi proseslərə müdaxiləsinin yolverilməz olduğunu bəyan edir. Eyni zamanda, hökumət kilsədə islahatlar aparılmasının zəruriliyini bildirir. Hökumətin islahat kursu kilsənin açıq müqaviməti ilə qarşılaşır. Mövcud qarşıdurma erməni cəmiyyətində parçalanma riskini daha da dərinləşdirir.

Bu istiqamətdə "Hraparak" qəzetinin yazdıqları diqqəti cəlb edir. Qəzet öz mənbələrinə istinadən yazır ki, hakimiyyət dairələrində baş nazir Nikol Paşinyanın yeni dini təşkilat yaratmaq niyyəti ilə bağlı narahatlıqlar meydana gəlib.



Bu narahatlıqlar Paşinyanın milad bayramı ərəfəsində – yanvarın 5-də erməni kilsəsinin islahatı üçün koordinasiya şurasının yaradıldığını və "yol xəritəsi"nin təqdim edildiyini açıqlamasından sonra güclənib. Qəzetin qiymətləndirməsinə görə, nəticədə, baş nazir rəsmi qaydada dini təşkilat kimi qeydiyyatdan keçəcək yeni struktur formalaşdırıla bilər.

Bu arada N.Paşinyanın bütün ermənilərin katolikosu II Qareginin ünvanına səsləndirdiyi ağır ittihamlar diqqətdən yayınmayıb. Paşinyan hökumətin iclasından sonra jurnalistlərə açıqlamasında katolikosu "İsa Məsihi satmaqda" ittiham edib: "Ktriç Nersisyan (II Qaregin–S.H.) İsa Məsihi satıb, müqəddəs Erməni Apostol Kilsəsini, onun davamçılarını və öz inanclı icmasını satıb. O, ali patriarx deyil, İsa Məsihi satan bir satqındır".

Katolikosa qarşı çıxan Ovanavank monastırının baş keşişi, ierey Ter Aram isə II Qareginin ruhani rütbəsindən məhrum edildiyini bəyan edib. Baş keşişin yerli mediada yayılan açıqlamasında bildirilib: "Əziz inanclılar, bir daha diqqətinizə çatdırırıq ki, əvvəllər Araqatsotn yeparxiyasında xidmət etmiş Ktriç Nersisyan və Samvel Xaçatryan (keçmiş yepiskop Arşak) ruhani rütbəsindən məhrum ediliblər və onların icra etdiyi heç bir ayin (xaç suyuna salma, nikah, dəfn mərasimi, liturgiya, evin təqdis edilməsi və ya digər rituallar) etibarlı hesab edilmir. Sizi bu barədə məlumatlandırmağı özümüzə borc sayırıq ki, bilməyərəkdən özünüzü yanlışlığa sürükləməyəsiniz və günah işlətməyəsiniz".

*(ardı 5-ci səhifədə)*

*Replika*

## Zatulinlərin "rəngli yuxuları"

**Rusiya Dövlət Dumasının ermənipərəst deputatı, rəsmi İrəvanın özü tərəfindən "persona-non-qrata" elan olunmuş Konstantin Zatulin yenə sərsəm açıqlamaları ilə gündəmi "zəbt etməyə" çalışıb. Rusiyalı deputatın sözlərinə görə, ABŞ ilə Ermənistan arasında TRIPP-lə bağlı dərc olunmuş razılaşma onu göstərir ki, "Tramp marşrutu" üzrə tranzitdən əldə ediləcək gəlirin 76 faizi ABŞ şirkətinə, 24 faizi isə Ermənistana məxsus olacaq.**

"Bu layihədə ABŞ və Ermənistandan başqa heç kəs olmayacaq. Rusiya bəzi funksiyalara cəlb oluna bilər, amma həmin şirkətin təsisçi və ya səhmdarları sırasında ola bilməz. Paşinyan Rusiyanın maraqlarını nəzərə almadığına görə tənqiddən yayınmaq üçün hansısa jest etmək istəyir".

Bunu "oxları Rusiyanın üzərinə yönəltməyə çalışan" rəsmi İrəvanın ünvanına hədə-qorxu kimi üfürən Dövlət Dumasının "dumkasız" deputatı bu zaman layihənin altından "başqa daşları qazıyıb



çıxarmağa" girişir: "Burada söhbət Azərbaycan və Türkiyə ilə həmsərhəd ərazilərdən gedir. Paşinyan Rusiyanı daxili dəmiryolu şəbəkəsinin bərpasına ona görə cəlb etmək istəyir ki, sonradan hər yerdə Moskvanın iştirakını iddia edə bilsin. Sadə dillə desək, oxları Rusiyaya yönəltmək istəyir. Bu, təxminən əvvəlcə Qarabağa dəvət edilən (?), amma sonradan mövcudluğu, faktiki olaraq, nəzərə alınmayan sülhməramlı kontingentimizlə bağlı baş verənlərə bənzəyir. Anlamalıyıq ki, Paşinyan bizim maraqlarımızdan çıxış etmir, Qərblə ittifaq və dostluğa üstünlük verir".

Azərbaycanın rəsmi dairələri kimi, siyasi elitası, mediası və ictimaiyyəti də Konstantin Zatulinin dediklərini artıq ciddi qəbul etmir. Bu məqamda Rusiya Dövlət Dumasının MDB ölkələri, həmvətənlərlə əlaqələr üzrə komitənin sədr müavininin 3 ay bundan əvvəl erməni mediasına müsahibəsində məlum təyyarə olayından sonra ikitərəfli münasibətlərdən danışarkən dediklərini yada salaq: "Mən özüm münasibətlərin normallaşmasının tərəfdarıyam. Qonşu ölkə ilə münasibətlərin normallaşması tamamilə qanuni, məntiqli və dövlətlərarası münasibətlərin sabitliyi üçün zəruri bir prosesdir". Ölkəmizin ünvanına buna qədərki radikal, şovinist bəyanatlarından tam fərqli, kifayət qədər "praqmatik" mövqe sərgiləyən Zatulin indi rus sülhməramlıları adlanan hərbi kontingentin bölgəni vaxtından tez tərk etməsini yanlış addım sayır, hətta buna təəssüflənir.

Zatulin özü də yaxşı bilir ki, rus hərbi kontingenti 2020-ci il 10 noyabr Bəyanatına müvafiq olaraq, Azərbaycan və Rusiya ali rəhbərlərinin birgə razılığı əsasında bölgəni vaxtından tez tərk edib. Onlar gedərkən təmtəraqlı yolasalma mərasimi, mükafatlandırma tədbiri də təşkil olunub. Burada Paşinyanın yeganə "günahı" ondan ibarət olub ki, o, tarixi həqiqəti dilə gətirib və Qarabağın Azərbaycana aid olduğunu bildirib. Sülhməramlıların gedişinə səbəb isə regionda ermənilərin qalmaması oldu. Zatulin demək istəyir ki, Paşinyan Qarabağı Azərbaycan ərazisi kimi tanımasaydı, bölgədə ermənilər də, xunta rejimi də, onların "təhlükəsizliyini təmin edən" Rusiya sülhməramlı hərbi kontingenti hələ uzun müddət qalacaqdı. Amma o unudur ki, 44 günlük müharibədə biabırcasına məğlub olmuş Ermənistanın baş nazirinin reallığı etiraf etmək və bölgədə sülh üçün bu mövqedən savayı seçimi yox idi.

Sülhməramlılar 2023-cü il 19-20 sentyabr antiterror əməliyyatından sonra bölgədə vəzifə və funksiyası göydən asılı qalmış, əhəmiyyətsiz hərbi kontingentə çevrilmişdilər. Onların bu tarixə qədər tərəflər arasında heç də sülh yaratmağa xidmət etməyən fəaliyyəti barədə dəfələrlə yazmışıq. Amma yaddaşı zəifləmiş zatulinlərə bir daha xatırladaq: sülhməramlı kontingentin bölgəyə yerləşdiyi gündən separatçılara himayəlik etdiyi, onların Qarabağa silah, muzdlular, mina daşımasına şərait yaratdığı, qanunsuz səfərlərə icazə verdiyi, ermənilər üçün yollar çəkdiyi, evlər inşa etdiyi təkcə İrəvan və Moskvaya deyil, Bakıya da yaxşı məlum idi. Onların Xocalıda kilsə yaratmalarının, burada rus-xristian xadimlərinin büstlərini qoymalarının, qondarma rus icması yaratmalarının hansı məkrli niyyətlərdən xəbər verdiyi də sirr deyildi.

Rusiyanın baş diplomatı Sergey Lavrov isə açıq şəkildə demişdi ki, Qarabağın status məsələsini gələcək nəsillərə saxlamaq lazımdır. Xatırlatdığımız bu faktlar göstərir ki, Rusiya məsələnin bu cür həll variantını istəmirdi. Amma 23 saatlıq antiterror əməliyyatı Moskvanı inkaredilməz fakt qarşısında qoydu. Ardınca ermənilər Azərbaycan vətəndaşlığını qəbul etmədilər, öz xoşları ilə Qarabağdan köçdülər, sülhməramlılara da ehtiyac qalmadı. İndi ermənipərəst zatulinlərin dili ilə Kreml növbəti dəfə öz hikkəsini göstərir və günahı Paşinyanda axtarır. Bununla demək istəyir ki, o, Qarabağdan çıxmaq istəmirdi.

Amma günün reallığı və acı həqiqəti ondan ibarətdir ki, erməni separatçıları, zatıqırıq zatulinlər kimi, rus əsgəri də Qarabağı bundan sonra yalnız "rəngli yuxular"ında görə bilərlər...

***İ.HƏSƏNQALA***
***XQ***

# Postmüharibə mərhələsində Azərbaycanın təhlükəsizliyi

### III məqalə

## Təhlükəsizliyin əsas faktorları

Hətta orta güc ranqında olan dövlətlərin təhlükəsizliyini təmin etmənin çox çətin olduğu dünyada özünü göstərən geosiyasi proseslərin məntiqi işığında aydın görünür. İlk növbədə "təhlükəsizliyin təmini" ifadəsini hansı anlamda işlətdiyimizə aydınlıq gətirək. Bütövlükdə "təhlükəsizlik" termin olaraq hər hansı obyektin (istənilən təbiətli sistemin) malik olduğu mahiyyəti, məzmunu və funksionallığını öz maraqları və təbiətinə uyğun qorumasını, saxlamasını, toxunulmazlığını təmin etməsini ifadə edir. Bu anlamda tam və bütöv qalmaq müstəqil dövlətçilik kontekstində təhlükəsiz olmaq demək deyildir.

Ölkə və dövlət bir avtonom sistem olaraq tamlığını saxlamaqla mahiyyətini və predmetik məzmununu (təşkilolunma fəlsəfəsi, üsulu və formasını, daşıdığı predmetik xüsusiyyətlər kompleksini) itirirsə, üstəlik, onları kənar gücün təsiri ilə dəyişirsə, həmin ölkədəki dövlət müstəqil vahid kimi təhlükəsizliyini qoruya bilməmişdir deməkdir. Bundan başqa, tamlığı, bütövlüyü saxlanmaqla siyasi, iqtisadi, mədəni və geosiyasi funksionallığı yad maraqlara uyğun dəyişdirilən ölkənin də təhlükəsizliyi təmin edilmiş sayılmaz. XXI əsrdə müstəqil olmağın sərt siyasi və geosiyasi şərtləri belədir!

Buna görədir ki, bir çoxları üçün məhdud anlaşılan "dövlətin təhlükəsizliyi" məsələsi bütöv bir konseptdir. Onu real yaratmaq və qalıcı (davamlı) olaraq aktual saxlamaq məharətli, yaradıcı (kreativ) yanaşma tələb edir. Lider bu konsepti nəinki hazırlamalı həm də onun reallaşmasının bütün mexanizmlərini dəqiq müəyyən etməlidir. Bu halda təsəvvürümüzdə mürəkkəb, dinamik, lakin daim özünüyaradan, özyetərli olan fəaliyyət sistemi canlanır. Biz "Azərbaycanın təhlükəsizliyinin əsas faktorları" dedikdə, belə bir təsəvvürlər, ideyalar, prinsiplər kompleksinin nəzəri-konseptual mövcudluğunu və onları təmin edən baza müəyyənedici parametrləri nəzərdə tuturuq. Burada ideyalar, prinsiplər və təsəvvürlərin üzərində dayanmaq imkanı yoxdur. Lakin Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə etdiyi müraciətdə vurğuladığı baza komponentlərin üzərində dayanaq.

## Güclü siyasi iradə

Liderin güclü siyasi iradəsi ölkənin təhlükəsizliyinin təminində əsas müəyyənedici parametrlərdən biridir. Elmi ədəbiyyatda siyasi iradə liderə, qrupa və xalqa aid edilir. Onun əlamətləri məqsədyönlülük, siyasi qərarları ardıcıl reallaşdırmaq, siyasi qərarlar, maneələri aşmaq, cəmiyyət və ya dövlətin maraqlarına uyğun hərəkət etmək kimi keyfiyyətlər götürülür. Siyasi iradə qətiyyətlilik, dayanıqlıq və məqsədə fokuslanmaq tələb edir. Liderin siyasi iradəsi ölkəni böhrandan çıxarmaq və islahatlar aparmaq, cəmiyyətin enerjisini dövrün şərtlərinə uyğun istiqamətləndirmək milli maraqları qorumaq kimi vacib keyfiyyətləri özündə ehtiva edir. Buna görə də bəzən liderlər populyar olmayan qərarlar qəbul edirlər.

Belə alınır ki, güclü siyasi iradə olmadan dövlətin böhrandan xilas olması və əsaslı islahatların aparılması mümkün olmur. Aparıcı rolu bu prosesdə liderin siyasi iradəsi təşkil edir. Prezident İlham Əliyev güclü siyasi iradəsi sayəsində qarşıya çıxan çoxsaylı maneələri aşdı, cəmiyyətin iradəsini bir məqsəd uğrunda birləşdirdi, dövlətin bütün strukturlarını vahid amal uğrunda fəaliyyətə yönəltdi və Azərbaycanın müstəqil dövlət kimi uğurlar əldə etməsinə nail oldu.

Bu bağlılıqda II Qarabağ müharibəsi dönəmində Azərbaycan Prezidentinin informasiya sferasında apardığı gərgin və qətiyyətli mübarizəsini bir daha xatırlaya bilərik. O dövrdə Azərbaycana müxtəlif istiqamətlərdən olan böyük təzyiqlərə baxmayaraq, liderin güclü siyasi iradəsi onların hamısını neytrallaşdırdı. Praktikada liderin siyasi iradəsinin dövlətçilik üçün nələri həll edə biləcəyinin nümunəsidir. İndi dünyanın ən güclü siyasi dairələri də Prezident İlham Əliyevin lider kimi gücünü tam qəbul edirlər. Bu da ölkənin və dövlətin təhlükəsizliyi üçün vacib faktordur.

## Xalq-iqtidar birliyi

Müasir geosiyasi təlimlərdə və politoloji nəzəriyyələrdə hər kəsin qəbul etdiyi ümumi şərtdir. İndi iqtidarla xalqın birliyi olmadan heç bir dövlət öz təhlükəsizliyini təmin edə bilməz. Xüsusilə, beynəlxalq hüququn işləmədiyi bir mərhələdə cəmiyyətin lideri ilə bir olması daha çox əhəmiyyət kəsb edir. Venesuela bu sınaqdan çıxa bilmədi, indi İran cəmiyyəti həmin "imtahanı verir". Ukraynada da son sözü xalqın deyəcəyi ilə bağlı informasiyalar yayılır.

Ancaq Azərbaycan cəmiyyət və dövlət olaraq bu sınağı keçən əsrin son onilliyində hər kəsdən daha dərin qatlarda keçdi. Xalq-iqtidar birliyi 1994-1995-ci illərdə Azərbaycanda xaos yaratmağa çalışanlara qarşı mübarizədə özünü tam göstərdi. Ulu öndər Heydər Əliyevin bir çağırışı ilə milyonlar meydanlara toplaşdı, öz dövlətlərini və mövcud iqtidarı ( o zaman Heydər Əliyev dövlətə başçılıq edirdi) müdafiə etdi. Xalqın kütləvi dəstəyi Azərbaycanda sabitliyi bərpa etməyə və onu qorumağa geniş imkanlar açdı.

Prezident İlham Əliyev xalq-iqtidar birliyinin vacibliyini həmişə vurğulamışdır. 2024-cü il fevralın 14-də andiçmə mərasimində İlham Əliyev vurğulamışdı: "İlk növbədə, prezident seçkilərində mənə yenidən böyük etimad və dəstək göstərən doğma Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirmək istəyirəm. Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm.

İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi".

Tarix sübut edir: xalqına arxalanan liderlər məğlubedilməzdirlər.



## Hərbi güc

XXI əsrdə aparılan politoloji tədqiqatlarda hərbi gücün dövlətin milli maraqlarının təmin edilməsində və xarici-siyasi fəaliyyətdə uğurlu olmasında rolu daha da artmışdır. Hərbi güc anlayışı dövlətin təhlükəsizliyini təmin etmək üçün malik olduğu kompleks qabiliyyəti nəzərdə tutur. Bura silahlı qüvvələrlə yanaşı, iqtisadi, elmi, mənəvi-siyasi və hərbi-texniki potensial da daxildir. Bundan başqa, mövcud gücü səfərbər edə bilmək qabiliyyəti hazırda böyük əhəmiyyət kəsb edir.

Deməli, hərbi güc faktiki olaraq hər bir müstəqil dövlətin identikliyinin mühüm tərkib hissələrindən biridir. Bir sıra hallarda dövlət hərbi gücünü tətbiq etməli olur ki, müəyyən maneələri aradan qaldıra bilsin. II Qarabağ müharibəsində Azərbaycan hərbi gücünü göstərərək qalib gəldi. Qarşı tərəf başqa yolla təcavüzündən əl çəkmirdi. Azərbaycan hərbi-müdafiə sisteminin güclü zərbələr vurmaq və keyfiyyətli hərbi əməliyyatlar həyata keçirmək qabiliyyəti dövlətin hərbi gücünü sübut etdi və bu, tarixi ədalətin bərpa olunmasında əsas rol oynadı.

Azərbaycan Prezidentinin aşağıdakı fikirləri vurğuladığımız kontekstdə dövlətin hərbi gücünün təhlükəsizliyin və sülhün təminində oynadığı rolu lakonik ifadə edir. Ölkə rəhbəri müraciətində ayrıca qeyd etmişdir: "Biz Vətən müharibəsindəki Zəfərimizdən sonra yorulmadan bu Zəfəri beynəlxalq və siyasi müstəvidə möhkəmləndirmək və təsdiqləmək üçün çalışmışıq və buna nail olmuşuq. Bütün dünya bizim Zəfərimizi qəbul edir və bizim haqlı olduğumuzu əyani şəkildə görür".

Hərbi gücün müasir dönəmdə dövlət üçün əhəmiyyəti ABŞ-ın yenilənmiş milli təhlükəsizlik doktrinasında yığcam ifadə olunmuşdur. Orada yazılmışdır: "Güc caydırıcılığın ən yaxşı faktorudur!"

İndi Azərbaycanın hərbi gücü regionda öndədir. Digər dövlətlər bu səviyyəyə çatmaq üçün çox səylər göstərirlər. Lakin Azərbaycan Prezidenti ölkənin hərbi gücünün dinamik artırılmasının qayğısına qalır və imkanlar getdikcə yeni səviyyələrə yüksəlir. Burada əlbəttə, iqtisadi potensialın xüsusi yeri və rolu vardır.

## İqtisadi potensial

Azərbaycan regionda ən geniş iqtisadi potensiala malik ölkə olduğunu dünyaya göstərmişdir. Neft və qeyri-neft sektorunda həyata keçirilən layihələr bunun əyani sübutlarındandır. 1993-cü ildən başlayaraq müxtəlif sferalar üzrə iqtisadi islahatların reallaşması sayəsində Azərbaycan böyük irəliləyişlərə nail olmuşdur. İndi kimsə şübhə etmir ki, Azərbaycanın iqtisadi potensialı müstəqil dövlət kimi özünə yetərlidir. Yaradılan çoxşaxəli iqtisadi infrastruktur dayanıqlığı ilə də seçilir. 2008-ci il qlobal maliyyə böhranı, pandemiya dönəmində dünyanı silkələyən iqtisadi kataklizmlər və ümumiyyətlə, maliyyə bazarlarında müşahidə olunan böhranlar Azərbaycanın iqtisadi sistemini laxlada bilmədi. Burada makroiqtisadi sabitlik təmin edildi.

Bunlarla yanaşı, çoxlu sayda dövlətlər müxtəlif çətinliklər və problemlərlə mübarizə apardığı bir dönəmdə Azərbaycan güclü maliyyə tələb edən layihələrin təşəbbüskarı oldu. İndi də onların həyata keçirilməsində Bakının rolu yüksəkdir.

Rəsmi məlumatlarda tez-tez Azərbaycanın xarici borclarının minimuma enməsi, ÜDM-in dinamik artması, humanitar xarakterli addımların atılması vurğulanır. Bunlar qeyri-sabit dünyada Azərbaycan iqtisadiyyatının sabitliyinin göstəriciləridirlər.

## Enerji siyasəti

Enerji siyasətinin Azərbaycanın təhlükəsizliyinin təmin edilməsindəki böyük rolu haqqında KİV-də çox yazılmışdır. Azərbaycanın enerji strategiyası özü ilə bərabər çoxlu sayda dövlətin, o cümlədən Avropa İttifaqının enerji təhlükəsizliyində prinsipial rol oynamaqdadır. Ayrıca, Avropanın enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyinin sinxron təmin olunması məsələsində Bakı getdikcə daha əsaslı yer tutmağa başlamışdır.

Enerji siyasəti bununla kifayətlənmir. Çünki Azərbaycan Şərq istiqamətində də enerji siyasətinin təhlükəsizlik məsələsində ölkələr üçün mühüm rol oynamaq üçün böyük səylər göstərir. Türk dünyasında da bu yöndə Bakının fəaliyyətləri yüksək qiymətləndirilir.

Bunları ümumiləşdirəndə belə qənaət əldə edilir ki, Azərbaycanın enerji siyasəti geniş geosiyasi məkanda enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin sinxron təmin edilməsi sistemini formalaşdırmışdır. Bu o deməkdir ki, Azərbaycanın təhlükəsizliyi ilə Şərq, Mərkəzi Asiya, Yaxın Şərq və Avropa ölkələrinin təhlükəsizliyi artıq vahid sistemin tərkib hissələridirlər.

Onlar arasında qarşılıqlı asılılıq üzvi hala gəlmişdir – birinin təhlükəsizliyi üçün digər bütün iştirakçıların təhlükəsizliyinin təmin olunması zəruridir. Və əksinə, əməkdaşlıq platformasına daxil olan bütün üzvlərin təhlükəsizliyi Azərbaycanın təhlükəsizliyinin təminindən birbaşa asılıdır.

Bu, maraqlı "təhlükəsizlik şəbəkəsidir" ki, sistem olaraq açıqdır. Yəni digər dövlətlərin də bu prosesə daxil olması istisna deyildir. Nümunə kimi, ABŞ-ı göstərmək olar. 2025-ci il avqustun 8-də Vaşinqtonda əldə edilən razılıq əməkdaşlıq məsələsini birbaşa təhlükəsizlik amilinə bağlamışdır. Yəni indi Azərbaycanın təhlükəsizliyi həm də ABŞ-ın təhlükəsizliyi ilə əlaqəlidir. Konseptual olaraq enerji və milli təhlükəsizlik məsələləri genişlənərək Aİ ilə yanaşı Amerikanı da əhatə etməkdədir. Bu, faktiki olaraq müstəqil Azərbaycanın təhlükəsizliyinin qlobal miqyasda konkret şərtlər daxilində məzmun və məqsəd aldığını ifadə edir.

Məsələnin bu aspekti Azərbaycan Prezidentinin vurğuladığı nəqliyyat imkanlarmız və ABŞ-ın yeni təhlükəsizlik doktrinasının əsas məqamları prizmasında daha da aktuallaşır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

# Katolikosun agent qardaşına görə antiyeparxial addımı

***(əvvəli 4-cü səhifədə)***

Xatırladaq ki, ierey Ter Aram (Stepan Asatryan–S.H.) katolikos II Qareginə qarşı açıq şəkildə çıxış edən ilk ruhanilərdən olub. O, bəyan edib ki, katolikos açıq şəkildə günahı təşviq edir və hamını özünə bənzətməyə çalışır. Məhz bu səbəbdən II Qaregin "üsyankar" keşişi ruhani rütbəsindən məhrum edib. Ermənistan hakimiyyəti isə öz növbəsində, katolikosun bu qərarını legitim hesab etmədiyini açıqlayıb.

Ümumiyyətlə, Hayastanda din xadimləri II Qareginin özbaşınalığına qarşı çıxışlarını davam etdirirlər. "Üsyankar" yepiskoplardan biri – Gevorq Saroyan katolikosun onu Masiatsotn yeparxiyasının rəhbəri vəzifəsindən azad etməsi barədə qərarını məhkəmədə mübahisələndirmək qərarına gəlib. Kütləvi informasiya vasitələri bildirirlər ki, bu, müstəqil Ermənistan tarixində bənzər qəbildən olan ilk məhkəmə iddiasıdır, çünki konstitusiyaya əsasən kilsə dövlətdən ayrıdır. Hazırda yeparxiya rəhbərinin səlahiyyətlərini katolikos tərəfindən təyin edilmiş iyeromonax Ruben Zarqaryan icra edir.

Onu da bildirək ki, II Qaregin yanvarın 13-də Ali Ruhani Şuranın iclasında 16-19 fevral tarixlərində Ermənistan hüdudlarından kənarda fəaliyyət göstərən erməni yepiskoplarının toplantısını çağırmaq niyyətini açıqlamışdı. Erməni mediası yazır ki, toplantının ölkə xaricində keçirilməsinin səbəbi kimi II Qareginin qardaşı, Ermənistanda xarici xüsusi xidmət orqanları ilə əməkdaşlıqda ittiham olunan Yezras Nersisyanın iştirakının təmin edilməsi göstərilib.

Məlumata görə, şura üzvlərinin bir çoxu yepiskopların toplantısının Eçmiədzindən kənarda keçirilməsinə qarşı çıxıblar. İlkin mərhələdə Ktriç Nersisyan bu məsələni açıq saxlayıb. Lakin iclasın sonunda o, zalı tərk edib, bir müddət sonra geri qayıdaraq toplantının Avstriyada keçiriləcəyini elan edib. İclas iştirakçıları bu qərardan əvvəl onun Yezrasla məsləhətləşdiyini düşünüblər. Bundan əlavə, katolikos Ermənistan vətəndaşlığı olan yepiskopların şengen vizaları ilə təmin olunmaları barədə göstəriş verib və bir neçə gün əvvəl onun tapşırığı ilə Artik yeparxiyasının rəhbəri, arxierey Narek Avaqyanın viza aldığını bildirib. "Beləliklə, Ktriç Nersisyan faktiki olaraq Erməni Apostol Kilsəsinin ali ruhani mərkəzi – Birinci Taxt-Tac Müqəddəs Eçmiədzini kənarda qoyaraq antiyeparxial addımlar atır. Diqqətçəkən məqam ondan ibarətdir ki, o, əvvəlcə toplantının bütün dünya ermənilərinin ruhani mərkəzi olan Birinci Taxt-Tac Müqəddəs Eçmiədzində deyil, Rumıniyada keçirilməsini təklif edib", – deyə erməni mediasında dərc olunan yazıda bildirilir.

*

Beləliklə, aydın olur ki, Ermənistanda hakimiyyətlə kilsə arasında dərinləşən qarşıdurma artıq siyasi və ideoloji mübarizə müstəvisinə keçib. Paşinyanın kilsəyə qarşı sərt üslubu, II Qareginin legitimliyinin açıq şəkildə şübhə altına alınması və paralel olaraq yeni dini struktur yaradılması ehtimalları bu qarşıdurmanın təsadüfi olmadığını göstərir. Proseslər onu deməyə əsas verir ki, söhbət təkcə islahatlardan deyil, kilsənin ənənəvi nüfuzunun zəiflədilməsi və onun siyasi təsir imkanlarının məhdudlaşdırılmasından gedir.

"Hraparak" qəzetinin yazdıqları bu kontekstdə xüsusi diqqət çəkir. Qəzetin iddiasına görə, Paşinyanın təşəbbüsü ilə yaradılan koordinasiya şurası və təqdim olunan yol xəritəsi gələcəkdə rəsmi qeydiyyatdan keçmiş alternativ dini təşkilatın formalaşdırılmasına zəmin yarada bilər. Bu isə Ermənistan üçün əvvəllər görünməmiş bir vəziyyətdir. Çünki indiyədək Erməni Apostol Kilsəsi təkcə dini institut deyil, həm də milli kimliyin əsas dayaqlarından biri kimi çıxış edib. Hakimiyyətin bu dayağı sarsıtmaq cəhdləri cəmiyyətdə yeni parçalanma xəttinin yaranmasına səbəb ola bilər.

Paşinyanın katolikosa ünvanladığı "İsa Məsihi satmaq" kimi ağır ittihamlar isə siyasi ritorikanın hansı həddə çatdığını açıq şəkildə nümayiş etdirir. Bu cür ifadələr dini polemikadan çox, kütləvi auditoriya üçün hesablanmış siyasi mesaj təsiri bağışlayır. Baş nazir, faktiki olaraq, kilsə rəhbərini mənəvi nüfuzdan məhrum etməyə, onu ictimai rəydə gözdən salmağa çalışır. Bu, eyni zamanda, Paşinyanın öz tərəfdarları üçün köhnə sistemlə mübarizə tezislərini gücləndirmək məqsədi daşıyır.

II Qareginin erməni yepiskoplarını Eçmiədzindən kənarda – Avstriyada toplamaq qərarı mövcud böhranın miqyasını daha da genişləndirir. Erməni mediasının yazdığı kimi, bu addımın arxasında onun qardaşı Yezras Nersisyan amili dayanırsa, bu, kilsə rəhbərliyinin qərarlarının xarici faktorlarla əlaqələndirilməsi riskini artırır. Belə bir şəraitdə Erməni Apostol Kilsəsi həm daxildən, həm də xaricdən ciddi təzyiqlərlə üz-üzə qalır. Hakimiyyətlə kilsə arasında qarşıdurmanın hansı həddə çatacağı, yeni dini strukturun yaradılıb-yaradılmayacağı və bu proseslərin cəmiyyətə təsiri yaxın dövrdə Hayastanın daxili sabitliyi üçün həlledici olacaq.

***Səxavət HƏMİD***
***XQ***

İsmayıl Hacıyev – 75

# Görkəmli tarixçi, nüfuzlu pedaqoq, fəal vətəndaş

**Bugünlərdə görkəmli tarixçi alim, AMEA Naxçıvan bölməsinin sədri, akademik İsmayıl Hacıyevin 75 yaşı tamam olur. Tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi olan bu elm fədaisini yarım əsrə yaxındır ki, dərin zəkalı, yurdsevər alim, məsuliyyətli vətəndaş və sədaqətli dost kimi tanıyıram.**

İsmayıl Hacıyev Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Atası Muxtar müəllim keçən əsrin 60–70-ci illərində muxtar respublikada hörmətli ağsaqqal, gözəl pedaqoq, adlı-sanlı maarif xadimi kimi tanınırdı, qapısından qonaq əskik olmazdı. İsmayıl müəllim 1978-ci ildə Naxçıvan Dövlət Universitetində pedaqoji fəaliyyətə başladı. Az müddətdə qabiliyyəti, səmimiyyəti ilə bütün universitet kollektivinin rəğbətini qazandı.

Tezliklə İsmayıl müəllim ümidverici kadr kimi irəli çəkildi, dekan müavini, dekan, tədris işləri üzrə prorektor işlədi. Tədris prosesində onunla mehriban iş yoldaşı kimi ünsiyyətimiz yarandı, səmimi münasibətlərimiz də elə o illərdə başladı. Həmin dövrdə o, namizədlik və doktorluq dissertasiyaları müdafiə etdi. Azərbaycan Prezidenti yanında AAK-ın səyyar müdafiə şurasının ilk dəfə Naxçıvan Dövlət Universitetində keçirilmiş iclasında İsmayıl Hacıyev yüksək səviyyədə dissertasiya müdafiə edib tarix elmləri doktoru elmi dərəcəsini aldı. AAK-ın sədri dünya şöhrətli akademik, mərhum Azad Mirzəcanzadə onu bağrına basaraq uğurlu müdafiə münasibətilə təbrik etdi.

İsmayıl müəllim işgüzar və çalışqan pedaqoq-alimdir. Prorektor işlədiyi müddətdə tədrisin səviyyəsi xeyli yüksəldi, idarəçilik işi yaxşılaşdırıldı. Universitetdə tədrisə rəhbərliklə yanaşı, elmi yaradıcılığı da uğurla davam etdirirdi. Sonrakı illərdə isə NDU-da pedaqoji fəaliyyətini davam etdirdi.

1995-ci ildə İsmayıl Hacıyevlə Ankaraya, oradan da Şimali Kipr Türk Cümhuriyyətinə elmi konfransa getmişdik. Qayıdanda o, Ankara Universitetinin rektorunun qəbulunda oldu, iki universitet arasında əməkdaşlıq haqqında protokol imzalanması qərara alındı. Naxçıvan Dövlət Universiteti Ankara Universiteti ilə qardaş universitet oldu. Filologiya və tarix əlaqəli elm sahələri olduğuna görə İsmayıl müəllimlə birlikdə ikimiz bir kitab yazıb hazırlamışdıq. Elmi-kütləvi səciyyə daşıyan "Tarixdə və günümüzdə Naxçıvan" adlı həmin kitabı da Ankara Universitetinin nəşriyyatında türk dilində çap etdirdik. Bu, Naxçıvan diyarı haqqında Türkiyədə nəşr olunan ilk kitab idi.

2002-ci ilin avqust ayında Ulu öndər Naxçıvana səfərə gələndə ziyalılarla, elm adamları ilə də görüş keçirdi. Ümummilli lider bu diyarda elmi müəssisənin yaranma zərurətini əsaslandırdı və az sonra AMEA-nın Naxçıvan Bölməsinin yaradılması haqqında sərəncam imzaladı. Bu bölmənin sədri vəzifəsinə də ən layiqli namizəd kimi o zaman tarix elmləri doktoru olan İsmayıl Hacıyev təsdiq edildi. O, 2003-cü ildə AMEA-nın akademiki də seçildi.

Bölmənin uğurla fəaliyyətə başlamasında, institutların binalarının yüksək səviyyədə təmir edilib istifadəyə verilməsində bölmə sədrinin böyük təşəbbüskarlığı, qurucuIuq bacarığı mühüm rol oynayıb. Maddi-texniki bazasının genişləndirilməsi də nəzərdən qaçmayıb, qısa müddətdə elmi işçilərin hər biri kompüter, printer, internetə çıxışla təmin olunub. Nəşriyyyat, mətbəə, elektron kitabxana təşkil olunub, "Elmi əsərlər" və "Axtarışlar" adlı elmi jurnallar nəşrə başlayıb. Elmin istehsalata tətbiqi istiqamətində də xeyli iş görülüb.

Bölmədə rəqəmsal texnologiya və süni intellektlə əlaqədar işlərə start verilib.



Elmi qurumlar tam komplektləşib. Dissertasiya şuraları yaradılıb. İsmayıl Hacıyevin tələbkarlığı nəticəsində bölmənin elmi əməkdaşlarının böyük bir hissəsi vaxtında müdafiə edib. Gənc kadrlar yetişdirilib. İsmayıl müəllimin özünün rəhbərliyi altında 30 fəlsəfə və elmlər doktoru dissertasiya müdafiə edib. Məhz bu təşkilatçılığın nəticəsində elə 2025-ci ildə bölmədə adambaşına düşən əsər sayı 10-a çatıb. Bölmə rəhbəri beynəlxalq əməkdaşlığa da ciddi önəm verir, səmərəli əməkdaşlıq əlaqələri qurur.

Akademik İsmayıl Hacıyev elmi müəssisə rəhbəri olmaqla yanaşı, həm də tanınmış elm xadimidir. Onun tarixşünaslığa və naxçıvanşünaslığa böyük töhfələri elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilib. Tarixçi alimin 50-dən çox monoqrafiya və kitabı, 450-dən artıq elmi məqaləsi nəşr olunub. İsmayıl müəllimin erməni millətçilərinin Naxçıvan iddialarının yalan və uydurma olduğunu sübut edən, onlara tutarlı elmi sübutlarla, faktlarla cavab verən elmi araşdırmaları Azərbaycan tarixşünaslığına önəmli töhfədir.

Alimin yaradıcılığında ulu öndər Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti, Azərbaycan milli dövlətçiliyi tarixində Naxçıvanın yeri və rolu, Azərbaycan Xalq Cümhuriyyətinin Naxçıvanla əlaqəsi, Araz-Türk Respublikasının tarixi, Azərbaycanın itirilmiş tarixi torpaqları, ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri, törətdikləri soyqırımlar, Moskva və Qars müqavilələrinin imzalanması və bu prosesdə o dövrün tanınmış dövlət xadimi Behbud ağa Şahtaxtinskinin rolu və iştirakı, Naxçıvan bölgəsinin ərazi taleyi, sosial-iqtisadi tarixi, mədəni inkişafı, görkəmli yetirmələri kimi məsələlərin tədqiqi əhatəli yer tutur.

Akademik İsmayıl Hacıyevin elmi irsində "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı" (1995-2019) və "Naxçıvan Azərbaycanın milli dövlətçilik tarixində" monoqrafiyaları da xüsusi yer tutur. Birinci əsər 1995–2019-cu illərdə muxtar respublikanın sosial-iqtisadi və mədəni inkişafının ilk hərtərəfli elmi tədqiqinə həsr edilib.

2018-ci ildə Azərbaycanda, 2020-ci ildə Sankt-Peterburq şəhərində rusca nəşr olunan "Naxçıvan Azərbaycanın dövlətçiliyi tarixində" monoqrafiyası isə ermənilərin saxta Naxçıvan iddialarına ən tutarlı cavab verən fundamental əsər kimi böyük elmi və siyasi əhəmiyyət kəsb edir. Bu monoqrafiya 2019-cu ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mükafatına layiq görülüb. 2024-cü ildə isə alimin daha bir fundamental tədqiqatı – "Naxçıvan MR-in yaranması və inkişaf tarixi" monoqrafiyası işıq üzü görüb.

Bölmə kollektivi arasında böyük nüfuzu olan İsmayıl müəllim inzibatçı deyil, hər bir elmi işçiyə qayğı və diqqət göstərir, elmi fəaliyyəti ilə fərqlənən gənc kadrları yüksək qiymətləndirir. Ən əsası, o, nəcib, sadə və səmimi insandır.

İsmayıl Hacıyev 2000-ci ildə Naxçıvan Ali Məclisinin, 2005, 2010-cu illərdə Azərbaycan Milli Məclisinin deputatı seçilib, bir sıra qanun və qərarların hazırlanmasında fəal iştirak edib. O, Azərbaycan Milli Ensiklopediyasının və Dövlət Mükafatı Komissiyasının üzvüdür. Görkəmli elm xadimi elmi-pedaqoji sahədə xidmətlərinə görə bir sıra dövlət mükafatlarına, "Şöhrət" ordeninə, Naxçıvan Ali Məclisinin Xatirə medalına, Fəxri fərmanına, AMEA-nın və Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəxri fərmanlarına layiq görülüb.

AMEA Naxçıvan bölməsinin kolektivi anadan olmasının 75 illiyi münasibətilə öz rəhbərini səmimi təbrik edir, ona cansağlığı, milli tarix elminin inkişafı, Naxçıvanda elmi fəaliyyətin tərəqqisi yolunda yeni uğurlar arzulayır.

***Əbülfəz QULİYEV,***
***AMEA-nın müxbir üzvü***
**Naxçıvan**

# Azərbaycan dili, milli kimlik və dövlətçilik məfkurəsi

## *Prezident İlham Əliyevin dil siyasətinin elmi-fəlsəfi əsasları*

**Müasir qloballaşma şəraitində dil məsələsi yalnız kommunikativ funksiya ilə məhdudlaşmır, milli kimliyin, tarixi yaddaşın, mədəni suverenliyin və dövlətçilik ideologiyasının əsas sütunlarından biri kimi çıxış edir. Prezident İlham Əliyevin Azərbaycan dilinin qorunması ilə bağlı ardıcıl və təkidli mövqeyi bu məsələni sırf filoloji problem səviyyəsindən çıxararaq strateji dövlət siyasəti müstəvisinə gətirir. Dövlət başçısının müsahibədə vurğuladığı kimi, "dil insanları birləşdirir, əhalini birləşdirir və dövlətçiliyin əsas atributlarından biridir". Bu yanaşma dilin yalnız ünsiyyət vasitəsi deyil, milli varlığın ontoloji əsaslarından biri kimi dəyərləndirildiyini göstərir.**

Prezident İlham Əliyevin yanaşmasında dil dövlətçiliyin fundamental atributu kimi təqdim olunur. Bayraq, gerb və himn kimi rəmzlərlə eyni sırada dəyərləndirilən dil milli birlik və siyasi suverenliyin təminatçısı kimi şərh edilir. Dövlət başçısının "dil dövlətçiliyin əsas atributlarından biridir, bəlkə də birincisidir" fikri klassik sosiolinqvistika və dil ideologiyası nəzəriyyələri ilə səsləşir. E.Haugen və J.Fişman kimi alimlərin dilin milli identikliyin strukturlaşdırıcı əsas elementi olması barədə qənaətləri Prezidentin "dil milləti millət edir" tezisində siyasi-diskursiv ifadəsini tapır.

Müsahibədə xüsusi diqqətçəkən məqamlardan biri dilin müstəmləkəçilik şəraitində qorunub saxlanılması faktıdır. Prezident İlham Əliyev Azərbaycan xalqının "əsrlər boyu müstəmləkəçilik şəraitində yaşamasına baxmayaraq, dilini qoruyub saxlamasını böyük nailiyyət" kimi qiymətləndirir və vurğulayır ki, "bu gün danışdığımız Azərbaycan dili bizim ulu babalarımızın danışdığı dildən fərqlənmir". Bu fikir linqvokulturoloji baxımdan dilin yalnız kommunikasiya vasitəsi deyil, eyni zamanda, mədəni müqavimət mexanizmi olduğunu təsdiqləyir. Dil burada kollektiv yaddaşın daşıyıcısı və assimilyasiya təzyiqlərinə qarşı dayanıqlılıq amili kimi çıxış edir.

Prezident İlham Əliyevin xarici leksik vahidlərin nəzarətsiz istifadəsinə qarşı mövqeyi normativ dilçilik çərçivəsini aşaraq milli psixologiya və identiklik məsələsinə bağlanır. Dövlət başçısı qeyd edir ki, "bəzən bilərəkdən, bəzən bilməyərəkdən dilimizə daxil olan xarici kəlmələr dilimizi zənginləşdirmir və milli kimliyimizi damcı-damcı sarsıdır". Bu yanaşma müasir dilçilikdə "dil eroziyası" və "identiklik aşınması" anlayışları ilə səsləşir. Prezidentin fikrincə, "dil pozulandan sonra milli kimlik gedəcək, milli kimlik gedəndən sonra isə dövlətçilik təhlükə altına düşəcək". Bu fikir dil–kimlik–dövlət əlaqəsinin strateji mahiyyətini açıq şəkildə ortaya qoyur.

Müsahibədə Azərbaycan dilinin zənginliyi və funksional universallığı da xüsusi vurğulanır. Prezident İlham Əliyev bildirir ki, "bizim dilimiz çox zəngindir, istənilən fikri ifadə etmək, istənilən şeiri yazmaq mümkündür". Bu yanaşma dilin elmi, bədii və ictimai diskurs üçün tam yetərli resurslara malik olduğunu təsdiqləyir və Azərbaycan dilinin "kölgə dil" deyil, müstəqil və tamhüquqlu milli dil statusunu ideoloji baxımdan möhkəmləndirir.

Prezidentin diqqət çəkdiyi mühüm məsələlərdən biri də diaspor mühitində dilin qorunması problemidir. O vurğulayır ki, "üçüncü-dördüncü nəsil azərbaycanlıların bəziləri artıq ana dilini bilmir" və bu hal milli identiklik baxımından ciddi təhlükədir. Bu kontekstdə onlayn Azərbaycan dili məktəblərinin yaradılması təşəbbüsü Prezident tərəfindən "zəruri və qaçılmaz addım" kimi dəyərləndirilir. Bu yanaşma dil siyasətinin müasir texnoloji alətlərlə reallaşdırılmasının bariz nümunəsidir.

Prezident İlham Əliyevin jurnalistlərə, yazıçılara, şairlərə və ziyalılara ünvanladığı çağırış dil siyasətində ictimai məsuliyyət prinsipini ön plana çıxarır. Dövlət başçısı xüsusilə vurğulayır ki, "efir məkanında ən çox danışan jurnalistlərdir və onların dil məsuliyyəti daha böyükdür". Media dili dil normalarının formalaşmasında əsas mexanizm olduğu üçün Prezidentin "xarici kəlmələrdən istifadə etməyin" çağırışı normativ və ideoloji xarakter daşıyır.

Nəticə etibarilə, Prezident İlham Əliyevin müsahibəsində Azərbaycan dili məsələsi təkcə filoloji və ya mədəni problem kimi deyil, strateji təhlükəsizlik, milli kimlik və dövlətçilik məsələsi kimi təqdim olunur. Dövlət başçısının "Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir" fikri bu məsələnin ümummilli məsuliyyət daşıdığını göstərir. Dilin qorunması tarixi yaddaşın, milli psixologiyanın, diaspor siyasətinin və gələcək nəsillərin intellektual-mədəni formalaşmasının əsas şərti kimi dəyərləndirilir. Bu yanaşma müasir sosiolinqvistika, linqvokulturologiya və dil ideologiyası nəzəriyyələri ilə tam səsləşir və Azərbaycan dil siyasətinin elmi-fəlsəfi əsaslarını sistemli şəkildə ortaya qoyur.

Alimlərin üzərinə düşən prioritet vəzifələrdən biri normativ dilçiliklə real dil istifadəsi arasında tarazlığın qorunmasıdır. Normativlik yalnız qadağalar və məhdudiyyətlər sistemi deyil, dilin daxili qanunauyğunluqlarına, tarixi inkişaf trayektoriyasına və funksional ehtiyaclarına əsaslanan elmi legitimlik mexanizmidir. Prezident İlham Əliyevin müsahibədə vurğuladığı kimi, "Azərbaycan dilini qorumaq sadəcə qadağalar tətbiq etmək deyil, dərin məntiqə əsaslanan bir zərurətdir". Bu fikir normativliyin inzibati deyil, elmi əsaslı mexanizm kimi dərk olunmasını tələb edir.

Bu mənada, alimlər dilin "saflığı" anlayışını emosional və ideoloji kateqoriya




səviyyəsindən çıxararaq elmi ölçülərlə əsaslandırmalıdırlar. Prezident İlham Əliyev açıq şəkildə qeyd edir ki, "bəzən bilərəkdən, bəzən bilməyərəkdən dilimizə daxil olan xarici kəlmələr dilimizi zənginləşdirmir" və əlavə edir ki, "o kəlmələri işlədənləri də daha ağıllı etmir". Bu mövqe normativ dilçilikdə "leksik zərurət" prinsipinin əsas meyar kimi götürülməsinin vacibliyini göstərir.

Əgər Azərbaycan dilində mövcud olan leksik vahidlər funksional baxımdan kommunikativ ehtiyacı tam ödəyirsə, onların kənar sözlərlə əvəzlənməsi elmi baxımdan əsaslandırılmamış dil müdaxiləsi kimi qiymətləndirilməlidir. Prezidentin "bizim dilimiz çox zəngindir, istənilən fikri ifadə etmək mümkündür" fikri məhz bu elmi yanaşmanın siyasi-diskursiv ifadəsidir. Bu kontekstdə alimlərin mövqeyi dövlət başçısının "xarici kəlmələrdən istifadə etməyin" çağırışı ilə tam səsləşməlidir.

Burada alimlərin əsas vəzifəsi dil normalarını yalnız təsbit etmək deyil, onların yaranma səbəblərini, tarixi köklərini və kulturoloji funksiyalarını izah etməkdən ibarətdir. Prezident İlham Əliyev dilin tarixi davamlılığını xüsusi vurğulayaraq bildirir ki, "bu gün danışdığımız Azərbaycan dili bizim ulu babalarımızın danışdığı dildən fərqlənmir və bu, böyük nailiyyətdir". Bu fikir normanın tarixi yaddaşla əlaqəsini göstərir və alimlərin normativ qaydaları izah edərkən diaxron aspektə xüsusi diqqət yetirməli olduqlarını ortaya qoyur.

Normativ qaydanın elmi əsaslandırılması onun cəmiyyətdə qəbulunu asanlaşdırır və dili inzibati təzyiq alətinə çevrilməkdən qoruyur. Prezidentin "biz dili inzibati üsullarla deyil, şüurlu şəkildə qorumalıyıq" məzmunlu fikirləri bu yanaşmanı açıq şəkildə dəstəkləyir. O vurğulayır ki, "bu məsələ sadəcə belə dedim, elə dedim deyil, bunun çox dərin layları var". Məhz həmin "dərin layların" elmi şəkildə açılması alimlərin üzərinə düşən əsas missiyadır.

Prezident İlham Əliyevin "damcı-damcı sarsılma" metaforası normativ dilçilik üçün mühüm metodoloji açardır. "Bəlkə də özümüz hiss etmirik, amma yad elementlər milli kimliyi damcı-damcı sarsıdır" fikri dil normalarının yalnız struktur deyil, psixoloji və kulturoloji təsir gücünə malik olduğunu göstərir. Bu baxımdan alimlər normativliyi yalnız dil faktı kimi deyil, milli şüurun formalaşmasında iştirak edən mexanizm kimi şərh etməlidirlər.

Nəhayət, Prezidentin "dil əldən gedəndən sonra milli kimlik gedəcək, milli kimlik gedəndən sonra isə dövlətçilik təhlükə altına düşəcək" fikri alimlərin fəaliyyətinə strateji məsuliyyət yükləyir. Bu məsuliyyət normativ dilçiliyi yalnız qrammatik və leksik normalar sistemi kimi deyil, milli təhlükəsizliklə bağlı elmi sahə kimi dərk etməyi tələb edir. Deməli, alimlərin əsas vəzifəsi dilə inzibati qoruma mexanizmi tətbiq etmək deyil, dilin elmi əsaslarla qorunmasını təmin etmək, cəmiyyətə normanın məntiqini anlatmaq və dili milli kimliyin şüurlu daşıyıcısına çevirməkdir.

Müasir Azərbaycan dilinin qarşısında duran əsas problemlərdən biri terminoloji sistemin qeyri-sabitliyidir. Elmi terminlərin nəzarətsiz şəkildə alınması, paralel termin variantlarının mövcudluğu və milli termin yaradıcılığının zəifləməsi dilin elmi funksionallığını təhlükə altına salır. Bu baxımdan alimlərin prioritet vəzifəsi milli terminoloji bazanın sistemli şəkildə işlənməsi və vahid elmi standartların müəyyənləşdirilməsidir.

Terminologiya məsələsində alimlərin fəaliyyəti yalnız dilçiliklə məhdudlaşmamalı, sahə mütəxəssisləri ilə koordinasiyalı şəkildə aparılmalıdır. Terminoloji xaosun qarşısını almaq dilin elmi nüfuzunu qorumaqla yanaşı, onun tədris və kütləvi kommunikasiya mühitində də sabitliyini təmin edir. Bu sahədə passiv mövqe dilin elmi diskursdan tədricən sıxışdırılmasına gətirib çıxara bilər.

Alimlərin fəaliyyət sahələrindən biri də ictimai diskursun sistemli şəkildə müşahidə və təhlilidir. Televiziya, mətbuat, sosial media və siyasi çıxışlarda istifadə olunan dil formaları Azərbaycan dilinin aktual inkişaf istiqamətlərini müəyyənləşdirən əsas mənbələrdir. Burada alimlərin vəzifəsi tənqidçi mövqedən çıxış etmək deyil, dilin funksional deformasiyalarını elmi əsaslarla üzə çıxarmaq və alternativ modellər təklif etməkdir.

Xarici leksik vahidlərin əsassız şəkildə yayılması, sintaktik modellərin digər dillərin təsiri ilə transformasiyası və semantik sürüşmələr dilin daxili sisteminə təsir göstərən amillər kimi təhlil olunmalıdır. Bu kontekstdə diskurs analizi alimlər üçün yalnız nəzəri metod deyil, dil siyasətinin praktik alətinə çevrilməlidir.

Azərbaycan dilinin zəngin leksik-semantik potensialının elmi dövriyyəyə cəlb olunması alimlərin üzərinə düşən əsas prioritetlərdən biridir. Arxaik, dialekt və tarixi leksikanın müasir kommunikativ ehtiyaclara uyğun şəkildə yenidən funksionallaşdırılması dilin daxili resurslarına söykənən inkişaf modelini təmin edə bilər. Bu, dilin "kənar kəlmələrə ehtiyacı yoxdur" tezisinin elmi əsaslandırılmış mexanizmini formalaşdırır.

Bu proses mexaniki dirçəltmə deyil, semantik adaptasiya və funksional yenilənmə yolu ilə aparılmalıdır. Alimlərin burada əsas rolu dilin tarixi qatlarını müasir diskursla əlaqələndirən elmi körpülər qurmaqdır.

Alimlərin fəaliyyətinin mühüm istiqamətlərindən biri dilçilik elminin cəmiyyətə açıq şəkildə təqdim edilməsidir. Dil normaları yalnız akademik nəşrlərdə mövcud olduqda, onların ictimai təsir gücü məhdud qalır. Bu baxımdan alimlər tədris materiallarının, dərsliklərin, elmi-populyar mətnlərin və media çıxışlarının hazırlanmasında fəal iştirak etməlidirlər.

Təhsil sistemində dilin normativ modeli ilə real ünsiyyət dili arasında əlaqənin qurulması gənc nəslin dil şüurunun formalaşmasında həlledici rol oynayır. Bu prosesdə alimlərin passiv müşahidəçi deyil, aktiv formalaşdırıcı mövqedə çıxış etməsi əsas prioritet kimi çıxış edir.

Dilçilik baxımından alimlərin üzərinə düşən vəzifələr yalnız dilin qorunması ilə məhdudlaşmır, onun elmi əsaslarla inkişaf etdirilməsini, normativliyin legitimləşdirilməsini və ictimai diskursda funksional davamlılığının təmin edilməsini əhatə edir. Azərbaycan dili ilə bağlı dövlət diskursunda səsləndirilən çağırışlar alimlər üçün ideoloji deyil, metodoloji və elmi məsuliyyət manifesti kimi qəbul edilməlidir.

Bu kontekstdə alimlərin əsas prioritetləri normativ tarazlığın qorunması, terminoloji sistemin sabitləşdirilməsi, ictimai diskursun elmi nəzarəti və dilçilik elminin ictimailəşdirilməsi istiqamətində kompleks fəaliyyət proqramının həyata keçirilməsidir.

Eyni zamanda, dilin ideoloji səviyyədə qorunması onun elmi əsaslarla tənzimlənməsini zəruri edir. Burada dilçilik elmi və alimlər milli dil siyasətinin intellektual dayağı rolunu oynayır. Normativliklə real dil praktikası arasında tarazlığın qorunması, terminoloji sistemin sabitləşdirilməsi, ictimai diskursun elmi təhlili və leksik-semantik resursların aktivləşdirilməsi alimlərin üzərinə düşən əsas prioritetlər kimi çıxış edir. Bu fəaliyyət istiqamətləri olmadan dilin "saflığı" anlayışı deklarativ çağırış səviyyəsində qalmaq təhlükəsi ilə üzləşə bilər.

Beləliklə, Azərbaycan dilinin qorunması və inkişafı dövlət iradəsi ilə elmi məsuliyyətin sintezini tələb edən kompleks prosesdir. Dövlət diskursu strateji istiqaməti müəyyən edir, dilçilik elmi isə bu istiqamətin həyata keçirilməsini elmi legitimliklə təmin edir. Bu sintez nəticəsində Azərbaycan dili yalnız keçmişin mirası kimi deyil, müasir və gələcək nəsillər üçün funksional, zəngin və davamlı milli ünsiyyət sistemi kimi formalaşır. Nəticə etibarilə, Azərbaycan dilinin taleyi nə yalnız inzibati qərarlarla, nə də təkcə akademik müzakirələrlə müəyyənləşir. Onun davamlılığı dövlət, alimlər və cəmiyyət arasında qurulan şüurlu məsuliyyət modelindən asılıdır. Bu modelin uğuru isə dilin həm ideoloji dəyər, həm də elmi sistem kimi paralel şəkildə qorunub inkişaf etdirilməsindən keçir.

***Vəfa ABDULLAYEVA-NƏBİYEVA,***
***AMEA Nəsimi adına***
***Dilçilik İnstitutunun şöbə müdiri, dosent***

# Odlar yurdundan mavi yanacaq alan ölkələrin sayı 16-ya çatdı

## *Azərbaycan qazı Avstriya və Almaniyada da alovlanacaq*

**Azərbaycanın potensial qaz alıcılarının sırasına daha iki ölkə qoşulub. Bugünlərdə Azərbaycan Dövlət Neft Şirkəti "mavi yanacağ"ın Avstriya və Almaniyaya ixracına başlayıb. Beləliklə, yanvar ayından etibarən "Şahdəniz" qazı bu iki Avropa ölkəsində də alovlanacaq.**



Neft şirkətindən verilən məlumata əsasən, Cənub Qaz Dəhlizinin Avropa seqmenti olan Trans-Adriatik Qaz Boru Kəməri vasitəsilə nəql edilən Azərbaycan qazının Cənubi və Mərkəzi Avropa bazarlarına satışının həyata keçirilməsi ilə mühüm mərhələ başlanıb. İtaliya üzərindən Avstriya və Almaniyaya həyata keçirilən qaz təchizatı ölkəmizin ixrac coğrafiyasını daha da genişləndirir. Beləliklə, Azərbaycan qazını alan ölkələrin sayı 16-ya çatıb.

Göründüyü kimi, SOCAR Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə formalaşdırılmış qaz strategiyasına uyğun olaraq, Avropa və Yaxın Şərq regionlarında qaz marketinqi fəaliyyətini davamlı şəkildə genişləndirir, müxtəlif ölkələrdən olan alıcılarla əməkdaşlıq portfelini artırır və Azərbaycanın etibarlı enerji təchizatçısı kimi mövqeyini daha da möhkəmləndirir. Avstriya və Almaniya ilə enerji sahəsində əməkdaşlıq isə hasilat və infrastruktur, o cümlədən qaz kompressorları sahəsində investisiyaları dəstəkləməklə Avropaya daha çox boru xətti qazının çatdırılmasını təmin edəcək və qitənin enerji təhlükəsizliyinə töhfə verəcək.

Xatırladaq ki, Azərbaycan qazının yeni alıcısı Avstriya bir qədər əvvəl ölkəmizlə uzunmüddətli qaz tədarükü ilə bağlı müqavilə bağlamaq istəyini elan etmişdi. Ölkə rəsmiləri Azərbaycandan qaz almağı Avstriyanın enerji təhlükəsizliyini təmin etmək üçün əhəmiyyətli bir alternativ kimi dəyərləndirmişdilər. Bundan da əsas məqsəd Rusiyadan qaz asılılığını azaltmaqdan ibarət idi.

O zaman Avstriyanın enerji tənzimləyicisi E-Control şirkətinin rəhbəri Volfqanq Urbançiç ölkəsində qazdan 1 milyon ev təsərrüfatını isitmək, həm də elektrik enerjisi ilə təmin etmək üçün istifadə olunduğunu xatırladaraq demişdir: "Ukraynada hərbi əməliyyatlar başlayandan sonra enerji qiymətləri kəskin artıb və Rusiyadan qazın mərhələli şəkildə dayandırılmasının qiymətlərin daha da yüksəlməsinə səbəb olacağı ilə bağlı qorxu var. Onun sözlərinə görə, hazırda Əlcəzair, Azərbaycan və ya Norveç kimi digər qaz tədarükçüləri ilə yeni uzunmüddətli müqavilələr imzalana bilər. Əminəm ki, o zaman qiymətlərlə bağlı vəziyyət normallaşacaq".

Almaniya ilə qaz tədarükünə dair razılaşma isə 2025-ci ilin yayında əldə olunub. İyunun 10-da Azərbaycan Dövlət Neft Şirkəti ilə bu ölkənin dövlətə məxsus enerji şirkəti olan SEFE arasında 10 illik qaz təchizatı müqaviləsi imzalanıb. Razılaşmaya əsasən, SOCAR Almaniyaya hər il tədricən 1,5 milyard kubmetrə qədər təbii qaz ixrac edəcək.

İmzalanma mərasimindən sonra mətbuata açıqlama verən SEFE-nin icraçı direktoru Egbert Laege deyib: "Bu uzunmüddətli müqavilə Almaniya ilə Azərbaycan arasında mövcud olan güclü münasibətlərin bariz nümunəsidir. Bu tərəfdaşlıq sayəsində Avropaya əhəmiyyətli həcmdə təbii qaz çatdırmaq üçün yeni bir marşrut formalaşdırılır, bu isə bizim portfelimizi şaxələndirməyə və müştərilərimizin enerji təchizatının təhlükəsizliyini artırmağa xidmət edir".

SEFE Almaniyada enerji təminatı sahəsində 50 minə yaxın müştəriyə xidmət edir. Dövlətə məxsus beynəlxalq enerji şirkəti Almaniya ilə yanaşı, Böyük Britaniya, Fransa, Hollandiya, Belçika, Avstriya və Çexiyada fəaliyyət göstərir. Avropa enerji bazarında 30 illik təcrübəyə malik SEFE burada qaz, elektrik və təmiz enerji məhsullarının aparıcı təchizatçısıdır.

Qeyd edək ki, anbar tutumuna görə Avropanın lider ölkəsi olan Almaniyanın illik qaz tələbatı, təxminən, 70-80 milyard kubmetr təşkil edir. Bununla belə, sənaye aktivliyi, hava şəraiti və enerji siyasətlərindən asılı olaraq bu rəqəm dəyişir. Xüsusən də 2022-ci ilin fevralında başlanan Rusiya–Ukrayna müharibəsindən sonra bu ölkənin illik qaz tələbatında müəyyən azalma müşahidə olunur.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### *Ekspert rəyi*

**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**



Azərbaycan qazının Avstriya və Almaniya bazarlarına tədarükünə başlanması, ilk növbədə, Avropada istehlakçıların yeni qaz mənbələrinə olan ehtiyacının açıq göstəricisidir. Çünki ötən ilin dekabr ayında Avropa Komissiyası yaxın iki il ərzində Rusiya qazından tamamilə imtina olunması ilə bağlı qərar qəbul edib. Bu isə Avropa ölkələri qarşısında alternativ mənbələr hesabına enerji təminatını gücləndirmək zərurəti yaradır.

Məhz bu kontekstdə Avstriya və Almaniyanın diqqətinin Azərbaycana yönəlməsi təsadüfi xarakter daşımır. Ölkəmiz son illər ərzində Avropa bazarında qaz tədarükünü mərhələli şəkildə artırmaqla yanaşı, etibarlı tərəfdaş imicini möhkəmləndirib və istehlakçıların etimadını qazanıb. Bu baxımdan Azərbaycanla əməkdaşlıq, xüsusilə də uzunmüddətli əməkdaşlıq ölkəmizə verilən yüksək qiymətin bariz nümunəsidir.

Xatırladaq ki, 2025-ci il iyul ayının əvvəlində Azərbaycan Dövlət Neft Şirkəti ilə Almaniyanın SEFE şirkəti arasında 2035-ci ilə qədər qaz tədarükünü nəzərdə tutan saziş imzalanıb. Həmin sazişə əsasən, ildə 1,5 milyard kubmetr qazın tədarükü planlaşdırılır. Bundan əvvəl isə "Şahdəniz" yatağından hasil olunan qazın illik 1,5 milyard kubmetrlik həcmi Almaniyanın "Uniper" şirkəti tərəfindən alıcı qismində təmin edilirdi və bu qaz İtaliya üzərindən əldə olunurdu.

Avstriya və Almaniyaya qaz ixracı da məhz İtaliya üzərindən həyata keçiriləcək. Diqqət yetirsək görərik ki, Azərbaycan indiyədək əsasən Cənubi Avropa, Balkan və Şərqi Avropa ölkələrinin qaz bazarlarında fəal iştirakçı kimi çıxış edirdisə, artıq ixrac coğrafiyasını şaxələndirərək Mərkəzi Avropa bazarında da mühüm oyunçuya çevrilmək istiqamətində ardıcıl addımlar atır.

Bu proses bir daha Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan rolunu təsdiqləyir. Cənab Prezidentin də dəfələrlə vurğuladığı kimi, yaxın 5 il ərzində, yəni 2030-cu ilə qədər ölkəmizdə qaz hasilatının, təxminən, 8 milyard kubmetr artırılması planlaşdırılır ki, bunun da mühüm hissəsi ixrac məqsədlərinə yönəldiləcək. İxracın əsas hədəf bazarları isə Avropa ölkələri olacaq.

**Müasir dünyada enerji təhlükəsizliyinin təmin olunması ölkələrin əsas prioritetlərindən birinə çevrilib. Azərbaycan isə hazırda yalnız öz daxili tələbatını tam ödəməklə yanaşı, eyni zamanda, 16 ölkəyə təbii qaz ixrac edərək həmin dövlətlərin enerji təhlükəsizliyinin möhkəmləndirilməsində mühüm rol oynayır.**

# Azərbaycan və Türkiyə Suriyaya dəstək verir




Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar ölkənin şimal-şərqində yerləşən Rizə vilayətində keçirilən "Ayder" Beynəlxalq Enerji Forumunda çıxışı zamanı bildirib ki, bu gün Türkiyə Azərbaycanla birgə Suriyanın yenidən inkişafı məqsədilə bu ölkəyə qaz nəql edir: "Eyni zamanda, suriyalılara elektrik enerjisi veririk, müxtəlif sahələrdə çoxsaylı layihələr həyata keçiririk. Bununla da enerji resurslarından sülh və inkişaf naminə istifadə edirik".

Qeyd edək ki, Azərbaycanla Türkiyə iqtisadiyyat və energetika sahələrində əməkdaşlıq imkanlarını ardıcıl və daha fəal şəkildə genişləndirərək Yaxın Şərqdə və ona bitişik regionlarda mövqelərini möhkəmləndirirlər. İki qardaş ölkə arasında formalaşmış strateji tərəfdaşlıq birgə enerji layihələrinin reallaşdırılması, nəqliyyat dəhlizlərinin inkişafı və regional əməkdaşlığın dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan ötən ilin avqust ayından etibarən Suriyanın enerji təhlükəsizliyinə dəstək verir. Bu prosesin əsası həmin il aprelin 11-də Antalya Diplomatiya Forumu çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə Suriyanın Prezidenti Əhməd Əl Şaraa arasında keçirilən görüş zamanı qoyulub. Ardınca iyulun 12-də Əhməd Əl Şaraanın Azərbaycana səfəri çərçivəsində tərəflər arasında praktiki razılaşmalar əldə olunub. Səfər zamanı SOCAR ilə Suriya hökuməti arasında imzalanan Anlaşma Memorandumu Azərbaycan qazının Türkiyə üzərindən Suriyaya çatdırılması üçün hüquqi və texniki baza yaradıb.

Yeri gəlmişkən, ötən il Azərbaycan Suriyaya 500 milyon kubmetr həcmində təbii qaz ixrac edib. SOCAR ilə Suriya hökuməti arasında imzalanan razılaşmaya əsasən, ilkin mərhələdə Suriyaya illik 1,2 milyard kubmetr təbii qazın tədarükü nəzərdə tutulur. Bu qaz Türkiyənin Kilis şəhəri üzərindən Hələb və Homs şəhərlərində yerləşən elektrik stansiyalarına nəql edilərək enerji istehsalında istifadə olunacaq. Nəticədə, 1200–1300 meqavat gücündə elektrik enerjisi istehsalına nail olunması planlaşdırılır.

Bundan əlavə, Azərbaycan qazının gündəlik 6 milyon kubmetr ötürmə gücünə malik Kilis–Hələb boru kəməri ilə nəqli həmin xəttin illik ötürmə imkanlarını 2 milyard kubmetrədək artıracaq. Ümumilikdə isə, Azərbaycan qazından istifadə Suriyanın daxili elektrik enerjisi təminatının təxminən iki dəfə yaxşılaşdırılmasına imkan verəcək.

Suriyaya təbii qazın ixrac edilməsi Azərbaycanın geosiyası mövqeyinə də müsbət təsir göstərir. Təbii ki, bu amilin arxasında Cənub Qaz Dəhlizi (CQD) kimi böyük bir layihə dayanır. CQD bu gün Azərbaycanın enerji strategiyasının əsas sütunlarından biridir. CQD regionun və Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Xəzər qazını etibarlı marşrutlarla beynəlxalq bazarlara çıxaran bu nəhəng infrastruktur layihəsi Avropanın enerji mənbələrinin şaxələndirilməsinə ciddi töhfə verir. Azərbaycan qazının Suriyaya ixracı CQD-nin əhəmiyyətini daha da artıraraq onun yalnız Avropa deyil, Yaxın Şərq üçün də strateji imkanlar yaratdığını göstərir.

Hazırda Azərbaycanın təbii qaz ixrac etdiyi ölkələrin böyük əksəriyyəti Qərb dövlətlərdir. Lakin Türkiyə üzərindən Suriyaya qaz tədarükünün başlanması bu coğrafiyanın daha da genişlənməsi üçün yeni perspektivlər açır. Ekspertlərin fikrincə, gələcək mərhələdə bu marşrutun İordaniya, Misir, hətta Livan istiqamətində uzadılması da real imkanlar sırasında qiymətləndirilir.

Mütəxəssislər qeyd edirlər ki, Suriyada müharibə nəticəsində ciddi zərər görmüş enerji və nəqliyyat infrastrukturunun mərhələli şəkildə bərpası fonunda mövcud və yeni kəmərlərin istismara verilməsi Azərbaycan qazının Yaxın Şərq bazarına çıxışını əhəmiyyətli dərəcədə genişləndirə bilər. Bu isə Azərbaycanın enerji ixracında regional rolunu gücləndirməklə yanaşı, ölkəni Avropa ilə Yaxın Şərq arasında mühüm enerji körpüsünə çevirir.

Azərbaycan Suriyanın enerji təhlükəsizliyinə verdiyi töhfə ilə yanaşı, müharibədən sonrakı bərpa və yenidənqurma prosesində də öz təcrübəsini bölüşmək imkanına malikdir. Ölkəmizin Qarabağda həyata keçirdiyi genişmiqyaslı bərpa və quruculuq işləri bu sahədə formalaşmış uğurlu model kimi çıxış edir. İnfrastrukturun sıfırdan qurulması, enerji, yol-nəqliyyat, su və sosial obyektlərin bərpası sahəsində əldə olunan təcrübə Suriyanın müharibədən zərər çəkmiş bölgələri üçün dəyərli ola bilər.

Məlum olduğu kimi, Suriya uzun illər davam edən müharibə nəticəsində ciddi iqtisadi və sosial itkilərlə üzləşib, yaşayış məntəqələri və mühüm infrastruktur obyektləri dağıdılıb. Azərbaycan isə bu gün Qarabağ və Şərqi Zəngəzurda "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında bərpa və yenidənqurma işlərini sürətlə həyata keçirir. Müasir texnologiyalara əsaslanan bu yanaşma dayanıqlı inkişaf və enerji səmərəliliyi baxımından mühüm əhəmiyyət daşıyır.

Bu baxımdan, Azərbaycanın bərpa, planlaşdırma və infrastrukturun inteqrasiyalı şəkildə qurulması sahəsində qazandığı təcrübə Suriyanın gələcək inkişaf strategiyasına töhfə verə bilər. Belə əməkdaşlıq təkcə iqtisadi deyil, eyni zamanda, humanitar və sosial baxımdan da Suriya xalqının rifahının yüksəlməsinə xidmət edər.

***Musa BAĞIRLI***
***XQ***

# Ölkəmizin şəhərləri dünyaya açıqdır



**Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13-ün milli koordinatoru Anar Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Cenevrədə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Parçalanmalar və transformasiya dövründə multilateralizmin yenidən formalaşdırılması" mövzusuna həsr olunmuş 35-ci Yüksək Səviyyəli Toplantısında iştirak edib.**

Yanvarın 15-də öz işinə başlayan toplantıda çıxışı zamanı Anar Quliyev multilateralizmin heç bir ölkənin təkbaşına həll edə bilmədiyi – iqlim dəyişikliyi, sürətli urbanizasiya, bərabərsizlik və dayanıqlı inkişaf kimi qlobal çağırışların öhdəsindən gəlmək üçün ən effektiv yanaşma olduğunu bildirib. O bu kontekstdə şəhər və yaşayış məskənlərində qlobal həllərin praktik fəaliyyətə çevrildiyi əsas məkanlar kimi həlledici rolunu xüsusi vurğulayıb.

Qeyd edib ki, Şərqlə Qərbin, Şimalla Cənubun kəsişməsində yerləşən Azərbaycan şəhərləri və infrastrukturu regionları və cəmiyyətləri birləşdirən körpülər kimi dəyərləndirir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa və inteqrasiya olunmuş şəhərsalma layihələrindən danışan Anar Quliyev bu layihələrin təkcə ərazilərin yenidən qurulması deyil, həm də uzunmüddətli sülhə, sabitliyə və regional əməkdaşlığa töhfə vermək məqsədi daşıdığını bildirib.

Sonda komitə sədri həmkarlarını 17-22 may 2026-cı il tarixlərində Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında iştiraka dəvət edib.

***XQ***

# BMT TŞ-də İranla bağlı fövqəladə iclas keçirilib



**BMT Təhlükəsizlik Şurasında İranda davam edən etiraz aksiyaları ilə bağlı fövqəladə iclas keçirilib.**

Məlumata görə, toplantı ABŞ tərəfinin tələbi ilə reallaşıb.

İclasda çıxış edən ABŞ-ın BMT-dəki səfiri Mayk Uolts bildirib ki, ABŞ İran xalqının yanındadır və Prezident Donald Tramp qırğını dayandırmaq üçün bütün variantların masada olduğunu açıq şəkildə bildirib.

BMT rəsmiləri iclasda İrana mümkün hərbi hücumların onsuz da alovlanan vəziyyətə qeyri-sabitlik gətirəcəyi barədə xəbərdarlıq ediblər.

BMT Baş katibinin köməkçisi Marta Pobi görüşdə bildirib ki, Baş katib bütün tərəfləri bu həssas anda maksimum təmkinli olmağa və daha çox insan itkisinə səbəb ola biləcək və ya daha geniş regional eskalasiyanı alovlandıracaq hər hansı bir hərəkətdən çəkinməyə çağırır.

# Paytaxtın Nəsimi rayonunda ötən ilə yekun vurulub

**Nəsimi Rayon İcra Hakimiyyətində 2025-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş hesabat yığıncağı keçirilib. Toplantını giriş nitqi ilə açan rayon icra hakimiyyəti başçısının səlahiyyətlərini müvəqqəti icra edən, RİH başçısının müavini Zahid Xəlilov bildirib ki, ümummilli lideri Heydər Əliyevin yaratdığı tarixi əsaslar üzərində Prezident İlham Əliyevin həyata keçirdiyi davamlı tərəqqi və hərtərəfli yeniləşmə siyasəti 2025-ci ildə də ölkəmizə və rayona yeni uğurlar qazandırıb.**





Sonra 2025-ci ildə ölkəmizin və rayonun sosial-iqtisadi inkişafında əldə edilmiş önəmli nailiyyətləri əks etdirən videoçarx nümayiş olunub.

Ümumrayon toplantısında Zahid Xəlilov 2025-ci ildə rayonun sosial-iqtisadi inkişafına dair hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı və rəşadətli ordumuz 5 il əvvəl Qarabağda tarixi Zəfər zirvəsini fəth edərək onilliklər boyu ölkəmizə qarşı yürüdülən ədalətsiz siyasətə son qoydu, birlik, qəhrəmanlıq və sarsılmaz dövlət iradəsinin nümunəsini dünyaya nümayiş etdirdi. Keçən il xalqımız bu zəfərin qürur və təntənəsinin əlamətdarlığı ilə daha əzmlə çalışdı, ölkəmizin iqtisadi qüdrətinə və sosial imkanlarına yeni potensial əlavə edildi.

Bu gün Azərbaycan regional çərçivələri aşaraq qlobal miqyasda söz sahibi olan, prinsipial mövqeyi, ədalətə söykənən siyasəti və ardıcıl inkişaf modeli ilə seçilən dövlətə çevrilib. Məhz bu möhkəm təməl üzərində qurulan müasir Azərbaycan gələcək nəsillər üçün güclü, müstəqil, sabit və ədalətli dövlət mirası formalaşdırır və bu yol ölkə başçısının qətiyyətli liderliyi ilə inamla davam etdirilir.

Yığıncaqda qeyd olundu ki, ölkəmizin tarixinə "Konstitusiya və Suverenlik İli" kimi yazılan 2025-ci ildə respublikamızda olduğu kimi, paytaxtımızın mərkəzi hissəsində yerləşən Nəsimi rayonunda da mühüm nailiyyətlər, sosial-iqtisadi inkişaf sahəsində irəliləyişlər əldə olunmuş və vətəndaşların rifahı təmin edilmişdir. Ayrı-ayrı sahələrdə quruculuq işləri davam etdirilmiş, yeni yaşayış binaları, sosial-mədəni obyektlər inşa edilmişdir. Sakinlərin asudə vaxtlarının səmərəli təşkili üçün bir sıra məhəllələr əsaslı təmir edilərək istifadəyə verilmiş, əlavə yaşıllıq zolaqları salınmış, ekoloji tarazlığın qorunması istiqamətində müvafiq addımlar atılmışdır.

Rayon üzrə iqtisadiyyatın bütün sahələrində mövcud olan artım dinamikası saxlanılmış, əvvəlki illə müqayisədə 3,4 faiz çox sənaye məhsulu istehsal edilmişdir. Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələrin göstərdiyi xidmətlər 2,3 faiz, ödənişli xidmətlər 4,7 faiz, pərakəndə ticarət şəbəkəsindən satış 7,1 faiz artmışdır.

Hesabat məruzəsində həlli vacib problemlər, cari il üçün qarşıda duran vəzifələr iştirakçıların diqqətinə çatdırılmışdır.

Milli Məclisin deputatları Məlahət İbrahimqızı, Ziyad Səmədzadə, Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov və digər çıxış edənlər Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində bu gün Azərbaycanın qlobal miqyasda söz sahibi olmasını xüsusi qeyd ediblər. Natiqlər Nəsimi rayonunda görülmüş işləri yüksək qiymətləndirərək həlli vacib məsələləri də nəzərə çatdırıblar.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 1-ci ərazi sektorunun müdiri Tağı Tağıyev ölkə rəhbəri İlham Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət nəticəsində 2025-ci ildə də bütün sahələrdə yüksək nailiyyətlər əldə olunduğunu, o cümlədən beynəlxalq münasibətlər sistemində ölkəmizin mövqelərinin daha da möhkəmləndiyini vurğulayıb. O, qarşıda duran vəzifələri də diqqətə çatdırıb və 2026-cı ildə Nəsimi rayon ictimaiyyətinə uğurlar arzulayıb.

Müzakirələrdən sonra cari ilin konkret hədəflərini əks etdirən qərar qəbul olunub. Toplantı iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanlanan müraciətdə rayonun sürətli inkişafına göstədiyi diqqət və qayğıya görə ölkə rəhbərinə minnətdarlıq, Nəsimi rayon ictimaiyyətinin quruculuq əzmi ifadə edilib.

*T.RÜSTƏMLİ*
*XQ*

# "Plastik epidemiya"nın sonu çatacaqmı?

## *Kimyəvi tərkibli süni qablar ekoloji çirklənmə mənbəyidir*

**Müasir dövrdə vətəndaşın sağlamlığına və rifahına yönələn dövlət siyasəti səhiyyə sisteminin gücləndirilməsi ilə bərabər, həm də ətraf mühitin vəziyyəti, istehlak mədəniyyəti və ekoloji təhlükəsizlik kimi məsələləri diqqətdə saxlayır. Bu baxımdan plastik məhsulların, xüsusilə qida və içkilərlə təmasda olan plastik qab və butulkaların geniş istifadəsi artıq bir çox ölkələrdə ciddi narahatlıq doğurur.**



Elmi araşdırmalar sübut edir ki, plastik məmulatların tərkibindəki bir sıra toksiki kimyəvi maddələr zaman keçdikcə qida və mayelərə hoparaq endokrin sistemin pozulmasına, onkoloji xəstəliklərə tutulma ehtimalının artmasına, reproduktiv sağlamlığın zəifləməsinə səbəb olur. Digər tərəfdən, plastik tullantılar torpağın, su hövzələrinin və ümumilikdə ekosistemin uzunmüddətli çirklənməsinə gətirib çıxarır. Bir plastik butulkanın təbiətdə parçalanma müddətinin yüz illərlə ölçülməsi isə bu təhlükənin miqyasını qabarıq şəkildə nümayiş etdirir.

### Xəbərdarlıq və qadağalar

Son illər dünyanın bir sıra ölkələrində plastik istehlakının azaldılması istiqamətində prinsipial addımlar atılmağa başlanıb. Avropa İttifaqında (Aİ) birdəfəlik plastik məmulatlara dair məcburi göstəriş çərçivəsində plastik stəkanların, çəngəl-bıçaqların və nazik plastik paketlərin istifadəsi mərhələli şəkildə qadağan edilib. Almaniya, Fransa, İtaliya kimi ölkələrdə depozit-refund (qaytarma zəmanətli) sistemləri tətbiq olunaraq plastik butulkaların təkrar dövriyyəyə qaytarılması stimullaşdırılıb.

Skandinaviya ölkələrində dövlət satınalmalarında plastik məhsulların istifadəsi minimuma endirilib, alternativ olaraq şüşə, metal və bioparçalanan materiallardan istifadənin təşviqi diqqətdə saxlanılıb. Yaponiya və Cənubi Koreyada plastik tullantıların çeşidlənməsi və emalı üzrə yüksək texnoloji modellərin tətbiqi ilə həm ətraf mühitin qorunmasına, həm də "yaşıl" iqtisadiyyat sahəsində yeni iş yerləri yaradılmasına xüsusi önəm verilib.

Gürcüstan hökumətinin dövlət satınalmalarında plastik su butulkaları və stəkanların qadağan edilməsi ilə bağlı qərarı da region üçün diqqət çəkir. Bu ölkədə xüsusilə qida ilə təmasda olan plastik məmulatların dövriyyədən çıxarılması həm ictimai sağlamlıq, həm də ekoloji məsuliyyət baxımından strateji əhəmiyyət daşıyır. Gürcüstan Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyinin plastik istehlakının azaldılması məqsədilə 2026-cı il aprelin 1-dən yeni tənzimləməni reallaşdıracağı da bunun bariz ifadəsidir. Belə ki, həmin tarixdən başlayaraq dövlət satınalmalarını həyata keçirən təşkilatlara plastik stəkanların, konteynerlərin və 3 litrədək plastik butulkalarda olan içkilərin alınmasının qadağan ediləcəyi bildirilir.

Yeri gəlmişkən, bu çərçivədə adıçəkilən nazirliyin təşəbbüsü ilə Gürcüstan hökumətinin müvafiq sərəncam layihəsi hazırlanıb. Eyni zamanda, yanvarın 1-dən etibarən qida ilə təmas üçün nəzərdə tutulan bəzi plastik məmulatların satışına da artıq qadağa qoyulub.

### "Qırmızı işıq" hara yönəldir?

Gürcüstandan fərqli olaraq, Azərbaycanda plastik məhsulların, xüsusilə plastik su butulkalarının istehlakının məhdudlaşdırılması ilə bağlı elə bir ciddi layihənin icrası nəzərə çarpmır. Respublikanın dövlət qurumlarında, təhsil və səhiyyə müəssisələrində, ictimai tədbirlərdə plastik stəkan və butulkalardan geniş istifadə olunur. Bu isə bir tərəfdən əhalinin sağlamlığı üçün potensial risklər yaradır, digər tərəfdən isə tullantıların idarə olunması sahəsində əlavə yük formalaşdırır.

Hazırda ölkədə plastik tullantıların əsas hissəsi ya poliqonlara daşınır, ya da qeyri-rəsmi şəkildə ətraf mühitə atılır. Təkrar emal infrastrukturu məhdud olduğundan plastikdən iqtisadi resurs kimi istifadə imkanları da yetərincə reallaşdırılmır. Nəticədə, həm ekoloji ziyan dərinləşir, həm də "yaşıl" iqtisadiyyat potensialı tam şəkildə səfərbər edilmir.

Mütəxəssislərin fikrincə, mövcud çağırışlar fonunda ölkədə plastik istehlakının azaldılması məqsədilə, ilk növbədə, dövlət satınalmalarında məhdudiyyətlər qoyulmalıdır. Gürcüstan nümunəsində olduğu kimi, dövlət orqanlarının, büdcə təşkilatlarının və dövlət şirkətlərinin satınalmalarında plastik stəkan, birdəfəlik qab və plastik su butulkalarının istifadəsi mərhələli şəkildə qadağan edilməlidir. Onların əvəzinə şüşə, metal və ya ekoloji cəhətdən təhlükəsiz alternativlər tətbiq olunmalıdır. Eyni zamanda, qida ilə təmasda olan plastik məhsullara dair normativlər sərtləşdirilməlidir. Bu məqsədlə mövcud texniki reqlamentlər yenidən nəzərdən keçirilməli, toksiki maddələr ehtiva edən plastiklərin idxalı və satışı məhdudlaşdırılmalıdır. Qida Təhlükəsizliyi Agentliyinin bu sahədə nəzarət mexanizmləri isə gücləndirilməlidir.

### "Yaşıl" gələcəyə aparan yol

Ekspertlər bildirirlər ki, respublikada plastik məhsulların, xüsusilə plastik su butulkaları istehlakının məhdudlaşdırılması üçün, ilk növbədə, plastik butulkaların geri qaytarılmasını təşviq edən depozit sistemi tətbiq olunmalıdır. Bununla da həm ətraf mühitin qorunması, həm də tullantıların təkrar emalına əhalinin fəal cəlb olunması istiqamətində müsbət nəticə əldə edilə bilər. Belə bir məsələdə alternativ sənayenin inkişafına xüsusi diqqət yetirilməlidir. Bioparçalanan qablaşdırma materiallarının istehsalı üçün yerli sahibkarlara vergi güzəştləri, subsidiyalar və investisiya təşviqləri verilməlidir. Bu, eyni zamanda, yeni istehsal sahələrinin və iş yerlərinin yaradılmasına təkan verər.

Ölkədə plastik məhsulların istehlakının məhdudlaşdırılması məqsədilə maarifləndirmə və davranış dəyişiklikləri də diqqətdə saxlanılmalıdır. Plastikdən imtinanın inzibati qadağalarla yanaşı, həm də ictimai şüurun formalaşdırılması ilə mümkün olduğu nəzərə alınmalıdır. Bunun üçün məktəblərdə, ali təhsil müəssisələrində, mediada ekoloji maarifləndirmə proqramları genişləndirilməlidir.

Bütün qeyd edilənlərin həyata keçirilməsi nəticəsində isə "sağlam cəmiyyət üçün sağlam mühit" prinsipi öz həllini tapır. Bu gün dünyada müşahidə edilən tendensiyalar da plastik istehlakının azaldılmasının ekoloji məsələ olması ilə bərabər, həm də milli təhlükəsizlik, ictimai sağlamlıq və davamlı inkişaf strategiyalarının ayrılmaz tərkib hissəsi kimi diqqət çəkdiyini göstərir. Gürcüstan hökumətinin atdığı addımlar isə region ölkələri, o cümlədən Azərbaycan üçün ciddi siqnal və nümunə xarakteri daşıyır.

Azərbaycanda bu istiqamətdə ardıcıl, hüquqi və institusional əsaslara söykənən siyasətin formalaşdırılması isə həm vətəndaşların sağlamlığının qorunmasına, ətraf mühitin mühafizəsinə, həm də ölkənin "yaşıl" inkişaf hədəflərinə mühüm töhfə verə bilər. Bu isə uzunmüddətli perspektivdə daha sağlam, daha dayanıqlı və daha rəqabətqabiliyyətli Azərbaycan deməkdir.

### Qanunverici təkliflər paketi

Ekspertlərin fikrincə, respublikada plastik istehlakının azaldılması, ekoloji təsirin minimuma endirilməsi və dövriyyədəki tullantıların idarə edilməsi səmərəliyinə nail olunması məqsədilə hazırlanacaq qanunverici təkliflər paketində aşağıdakı məsələlərə xüsusi diqqət yetirilməlidir:

- **2027-ci ildən etibarən birdəfəlik plastik məhsulların istehsalı, idxalı, satışı və istifadəsi qadağan edilməli və ya tədricən məhdudlaşdırılmalıdır;**
- **qadağa konkret siyahı əsasında mərhələli şəkildə (2026–2030) tətbiq olunmalıdır;**
- **ilk mərhələdə ən çox alternativi olan məhsulların istehsalı dayandırılmalıdır;**
- **ekoloji ziyanlı plastik növlərə tam qadağa tətbiq edilməlidir.**

Ekspertlər tərəfindən bütün bu sadalananlarla yanaşı, dövlət satınalmalarında plastik məhdudiyyətlərin gerçəkləşdirilməsi istiqamətində birdəfəlik plastik butulkalar, stəkanlar və qida konteynerləri üçün qadağanın reallaşdırılması, eləcə də bu tədbirlərin mərhələli şəkildə 2026-cı ildən başlayaraq bütün dövlət orqanları üçün məcburiliyi təklif olunur.

Eyni zamanda, respublikada alternativ məhsullara (metal, şüşə, bioparçalanan materiallar) keçid üçün dövlət subsidiyaları və vergi güzəştlərinin tətbiqinin də vacibliyi bildirilir. Bundan başqa, istehsalçılar və idxalçılar tərəfindən plastik tullantıların yığılması, təmizlənməsi və təkrar emalı kimi məsələlərin də diqqət mərkəzində saxlanılmasının önəmi vurğulanır.

*Vaqif BAYRAMOV*
*XQ*

***Ekspert rəyi***



**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**

Plastik qablardan istifadə dünyada böyük problemə çevrilib. Azərbaycanda bununla bağlı müəyyən layihələrin icrasına çalışılıb, lakin ciddi nəticələrə təəssüf ki, nail olunmayıb. Belə ki, hələ 5 il öncə plastik qablardan istifadə barədə müəyyən qərarlar qəbul edilsə də, problem aradan qaldırılmayıb. Çünki alternativlər təklif edilməyib. Plastik qablarda, xüsusilə Günəş şüaları altında qalan məhsulların qablaşdırılması insan orqanizminə zərər verdiyi üçün hər zaman narahatlıqla qarşılanıb. Belə qabların tərkibində olan kimvəyi maddələrin sulara qarışdığı və müxtəlif xəstəliklərin yaranmasına səbəb olduğu dəfələrlə vurğulanıb.

İqtisadi İnkişaf, Kənd Təsərrüfatı və Səhiyyə nazirliklərinə dəfələrlə məktublar yazaraq plastik qablaşdırılma məsələlərinə dair fikirlərimi bildirmişəm. Plastik qablaşdırmaların və nazik polimerdən hazırlanan torbaların çox təhlükəli olması barədə məlumatlar versəm də, bəzi dövlət orqanlarının bu məsələ ilə bağlı laqeydliyi ilə üzləşmişəm. Düzdür, İqtisadi İnkişaf Nazirliyi yanında qablaşdırma materialları ilə əlaqədar problemlərin həlli məqsədilə yaradılan xüsusi işçi qrupa Azad İstehlakçılar Birliyinin sədri olaraq daxil edilmişəm və qrupun müəyyən layihələrin icrası ilə bağlı fəaliyyətinin də şahidi olmuşam.

Yeri gəlmişkən, qeyd etmək istərdim ki, PVC tərkibli, yəni xlorit tərkibli nazik polimerdən hazırlanan torbalardan bu gün də qida sənayesində geniş istifadə olunur. Ancaq Avropanın bir çox ölkələrində plastik qablaşdırma qadağan edildiyindən artıq belə hallar nəzərə çarpmır. Təəssüf ki, respublikada bu sahədə ciddi təhlillər aparılmır. Ölkə bazarı zəif olduğundan bura hər şey plastik qablarda gətirilir. Hətta bəzi kənd yerlərində plastik su qablarına uşaq yeməyi töküb saxlanılır. Hətta Azərbaycan dünyanın az ölkələrindən biridir ki, plastik qabın içərisində üzüm yarpağı qoyulur.

Azərbaycanda plastik qabların bir qismi ərzaq malları üçün xüsusi hazırlandığı üçün müəyyən gigiyenik tələblərə cavab verir, lakin onlardan düzgün istifadə edilmir. Plastik qab o zaman çox təhlükəli sayılır ki, onun üzərində gözə görünməyən çatlar, əzilmələr olur. Ümumiyyətlə, polimerlərdən hazırlanan plastik qablar qızdırılanda onun tərkibindəki kimyəvi maddələr qidaya keçir və zəhərlənməyə yol açır.

Plastik qablar xüsusilə qaynar yeməklər üçün istifadə edildikdə daha təhlükəli olur. Çünki yüksək temperatur plastikdə olan bisfenol, ftalat və digər zərərli maddələrin qidaya miqrasiyasını sürətləndirir. Bu isə hormonal pozuntulara, immun sisteminin zəifləməsinə, reproduktiv problemlərə və uzunmüddətli istifadədə xərçəng riskinin artmasına səbəb ola bilər. Uşaqlar üçün bu risk daha yüksəkdir, çünki onların orqanizmi bu cür maddələrə qarşı həssasdır.

Bu qablardan istifadə, onlarda yeməklərin qızdırılması, isti yeməklərin saxlanılması zamanı insanlarda tədrici zəhərlənmə də baş verir. Bu, bir çox hallarda hiss edilmir. Bu vaxt ətrafa zəhərli "oflatoksin" adlanan zəhərli qaz yayılır. Plastik qabların sonluğuna əmzik keçirib körpələrə süni qida verilməsi də təklükəlidir. Bir sözlə, məhsulun tərkibində zəhərli qaz varsa, ondan istifadədən imtina edilməlidir. Əhali bundan məlumatsız olduğu üçün ömürlərini qısaldan amili görmürlər.

Bir məqama da toxunmaq istərdim. Marketlərdə alınan ərzaqların qablaşdırılması üçün işlədilən plastik torbaların üzərindəki reklam materialları müəyyən rənglərdən istifadə edilərək yazılıb. Rənglərin tərkibində isə ağır metallar, qurğuşunlar var. Bunlar da insanların əlləri ilə digər orqanlarına keçir və zəhərlənmə əmələ gətirir. Lakin buna baxmayaraq, bazarda ucuz plastik qabların satışı davam edir. Bunun əsas səbəblərindən biri nəzarətin zəifliyi və alternativ sağlam qabların bazarda kifayət qədər geniş yayılmamasıdır. Bir tərəfdən qadağalar tətbiq olunur, digər tərəfdən isə həmin məhsullar sərbəst şəkildə satılır və istehlakçı real təhlükə ilə üz-üzə qalır.

# Heydər Əliyev Mərkəzində Kerol Förmenin sərgisi açılıb







**Heydər Əliyev Mərkəzində amerikalı heykəltaraş-rəssam Kerol Förmenin (Carole Feuerman) "Suda yenidən doğulanlar" ("Reborn into the Water") adlı sərgisinin açılış mərasimi keçirilib.**

Sərginin açılışında Alena Əliyeva, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, rəsmi qonaqlar, diplomatlar, tanınmış incəsənət xadimləri və digər şəxslər iştirak ediblər.

Mərasimdə çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov bildirib ki, Mərkəz bu ili möhtəşəm bir sərgi ilə açır və təqdim olunan layihə ilin ən əlamətdar sərgilərindən olacaq: "Kerol Förmenin yaradıcılığı ilə beynəlxalq sərgilərdə tez-tez rastlaşırdıq və nəhayət, bu əsərləri Azərbaycana gətirə bildik. Eksponatların əksəriyyəti ABŞ-dan, eləcə də Avropanın bir sıra ölkələrindən gətirilib və əsərlərdən biri məhz Bakıda ilk dəfə təqdim olunur", - deyə Anar Ələkbərov bildirib.

Anar Ələkbərov Kerol Förmenin Azərbaycana ilk dəfə səfər etdiyini, artıq ölkəmizin əsl dostuna çevrildiyini və Azərbaycanın dünyada tanıdılmasına mühüm töhfə verdiyini deyərək ona təşəkkürünü bildirib.

Daha sonra çıxış edən heykəltaraş-rəssam Kerol Förmen söyləyib ki, bütün həyatı boyu incəsənət onun əsas ifadə vasitəsi olub, hekayə anlatmaq üçün alətə, ideyaları araşdırmaq üçün yola, duyğuları paylaşmaq üçün isə ən doğma dilə çevrilib.

O vurğulayıb ki, bu möhtəşəm bina və onun memarlığı sərgi üçün ideal məkandır. Heydər Əliyev Mərkəzində hər bir detal sanki suyun ritmini xatırladır, məkanın ümumi forması isə dalğaları andırır. Heykəltaraşın sözlərinə görə, belə bir gözəlliyin qadın memarın ideyası əsasında ərsəyə gəlməsi xüsusilə təsirlidir.

Kerol Förmen qeyd edib ki, sərgidə nümayiş olunan əsərlər su mövzusuna həsr olunub.

"Su insana həyat verir, qidalandırır, təmizləyir və dəyişdirir. Silsilədə suyun çoxşaxəli təbiəti, eləcə də insanın bu vacib ünsürlə qurduğu mürəkkəb münasibətlər müxtəlif bədii yozumlarla təqdim olunub. Xüsusi məna daşıyan əsərlərimdən biri üzgüçü qadın obrazıdır. Bu əsəri həyatımın ən çətin dönəmlərindən birində yaratmışam. Bu obraz mənim üçün yenidən ayağa qalxmağın və dözümlülüyün simvoludur", - deyə o əlavə edib.





Kerol Förmen güclü realist təsirə malik heykəllər yaratmaqla məşhurdur, üzgüçüləri və rəqqasları təsvir edən fiqurativ heykəlləri ilə tanınır.

Bakıda təqdim olunan "Suda yenidən doğulanlar" ("Reborn into the Water") sərgisi rəssamın 1970-ci illərdəki işlərindən son onilliklərdəki üzgüçü fiqurlarına qədər böyük dövrü əhatə edir.

Kerol Förmenin əsərləri indiyədək dünyanın nüfuzlu məkanlarında sərgilənib. Açıq hava instalyasiyaları Nyu-Yorkda "Park Avenue" və "Central Park", Nyu-Orleanda "Poydras Corridor", Parisdə isə "Avenue George V" kimi məkanlarda nümayiş olunub. Bu gün Kerol Förmenin heykəlləri 30-dan çox muzey kolleksiyasını və dünyanın müxtəlif ictimai məkanlarını bəzəyir, özəl kolleksiyalarda saxlanılır.

*XQ*

*Babalar yaradıb, biz yaşadaq!*

# Mədəni irsimiz mənəvi sərvətimizdir

*Milli musiqimizin hər notunda, sözündə xalqımızın ölməz ruhu cilvələnir*

**Torpağımızı işğal edənlər, sərvətlərimizə tamah salanlar mənəvi dəyərlərimizə də əl uzadırlar. Onlar unudurlar ki, xalqımızın mədəni irsini saxtalaşdırmaq, ona sahib çıxmaq mümkün deyil. Zaman bu sərvətlərə xalqımızın möhürünü vurub.**

Ötənlərimizin könül nəğməsi olan "Sarı gəlin" kimi mahnılar barədə yanlış izahlar, təhrif olunmuş açıqlamalar onların xalqımıza məxsusluğuna kölgə sala bilməz. Yadlar, yağılar unudurlar ki, bu melodiyalar məhz xalqımızın mədəni irsidir. Onların hər notunda, hər sözündə milli ruh cilvələnir.

Bu gerçəkləri elmin işığı ilə aydınlatmaq məqsədilə **AMEA Folklor İnstitutu Dədə Qorqud şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Ramazan Qafarlı** ilə həmsöhbət olduq.

**– Ramazan müəllim, çağdaş dünyada savaşlar, işğallar, qarətlər təkcə ölkələrin maddi nemətlərini deyil, mənəvi aləmini də hədəfə alıb.**

– Təəssüf ki, informasiya, rəmz, yaddaş və mədəni kodlar da zəmanəmizin savaş meydanında yer alıb. Xüsusilə çoxmillətli və tarixi cəhətdən mürəkkəb regionlarda mədəni irs – mahnılar, rəqslər, dastanlar, hətta sözlər geosiyasi rəqabətin və ideoloji qarşıdurmanın təsirli alətlərindən biri kimi çıxış edir. Bu kontekstdə bir xalq mahnısı bəzən diplomatik bəyanatdan, bəzən isə hərbi ritorikadan daha güclü təsir yarada bilir.



Uzağa getməyək, Azərbaycan xalq musiqisi nümunələrindən olan "Sarı gəlin" də mənəvi təcavüzə məruz qalıb. Xalqımıza məxsus sevgi, ayrılıq və nisgil kimi emosiyaları ifadə edən mahnının son illər, xüsusilə regional media məkanında müxtəlif etnik və milli kontekstlərdə təqdim edilməsi, bəzən isə açıq şəkildə təhrif olunması bu folklor nümunəsini mübahisə obyektinə çevirib.

Əsas problem mədəni irsin necə təqdim edildiyi, hansı diskursla danışıldığı və kimlik narrativlərinə necə daxil edilməsidir. "Sarı gəlin"in melodiyası, ifa ənənəsi və quruluşu Azərbaycan muğam və aşıq musiqisinin estetik məntiqinə söykənsə də, onun regional yayılması və müxtəlif dillərdə oxunması bəzi hallarda folklorun təbii dolaşımı ilə məqsədli mədəni appropriasiya arasında sərhədi pozur.

**– Bəs, mədəni irsin təqdimatında məsuliyyətli və etik yanaşma nə deməkdir?**

– Bu anlayış aşağıdakı əsas prinsipləri ehtiva edir: mənşəyə hörmət; hər bir mədəni irs nümunəsinin tarixi, coğrafi və etnik mənşəyi saxtalaşdırılmadan təqdim olunması; tarixi faktların təhrif olunmaması; mədəni irsin siyasi, ideoloji və ya assimilyasiya məqsədləri üçün dəyişdirilməməsi, kontekstdən çıxarılmaması; mənimsəmə və appropriasiyadan çəkinmək.

Başqa xalqa məxsus mədəni nümunənin özününküləşdirilməsi etik baxımdan qəbuledilməzdir. Xüsusilə regionumuzda ortaq və ya paralel mədəni elementlər mövcuddur. Bu hallarda elmi əsaslı, balanslı və dialoqa açıq yanaşma vacibdir.

"Sarı gəlin" xalq musiqisinin məşhur və sənədləşmiş nümunələrindəndir. Onun melodiyası, söz variantları, ifa ənənəsi və musiqişünaslıq mənbələri Azərbaycan mədəni mühitinə bağlıdır.

Son günlərdə İran mediasında, xüsusilə bəzi televiziya və rəqəmsal platformalarda mahnının mənşəyinin dəyişdirilməsi, Azərbaycanla əlaqəsinin ya gizlədilməsi, ya da inkar edilməsi halları müşahidə olunur. Bu isə bir neçə problemi ortaya çıxarır. Bunlardan birincisi mədəni irsin təhrifidir. Bu cür təqdimat tarixi-mədəni həqiqətlərə kölgə salır və ictimai rəydə yanlış informasiya ötürür. İkincisi, mədəni hüquqların pozulmasıdır. Xalqların mədəni irsi kollektiv kimliyin bir hissəsidir. Onu başqa ad altında təqdim etmək mədəni hüquqlara ziddir. Üçüncüsü, mədəni nümunələrin siyasi və ideoloji alətə çevrilməsi çox zaman assimilyasiya və ya ideoloji təsir məqsədi daşıyır ki, bu da etik prinsiplərə uyğun deyil.

"Sarı gəlin" kimi nümunələr elmi mənbələrə əsaslanaraq, məhz Azərbaycan xalq mahnısı kimi təqdim olunmalıdır. Əgər regional yayılma və ya fərqli interpretasiyalar mövcuddursa, bu şərh kimi, əsas mənşə gizlədilmədən qeyd edilməlidir. Media qurumları mədəni mövzulara yanaşarkən etik kodeks, akademik məsuliyyət və qarşılıqlı hörmət prinsiplərini əsas götürməlidirlər.

Mədəni irs "yumşaq güc"dür. "Sarı gəlin" kimi mahnılar da çox yayılmış, emosional, asan paylaşılır və bir neçə dildə oxunur. Bu da onu manipulyasiya üçün "ideal obyektə" çevirir.

Bu günlərdə Azərbaycan mediasında İran TV məkanında "Sarı gəlin"in erməni mahnısı kimi təqdim edilməsi barədə məlumatlar yayıldı. Azərbaycan tərəfdən (o cümlədən İP Agentliyi xətti ilə) buna etiraz bildirildi. Bu tip hadisələr informasiya müharibəsində tipikdir. Yəni səhnə performans, etiket (mənşə adı) — üçü birləşib "reallıq" kimi təqdim olunur.

Beynəlxalq mənbələrdə "Sari Gelin / Sari Aghjik" adı ilə mahnının Cənubi Qafqaz–Şərqi Anadolu–İran arealında müxtəlif dillərdə variantlarının olduğu qeyd edilir və mənşə ilə bağlı fikir ayrılıqlarının mövcudluğu göstərilir. Bu, iki şeyi eyni anda mümkün edir: mahnının müxtəlif dillərdə variantlarının olması, eyni zamanda, konkret bir xalqın musiqi ənənəsində köklü, sistemli, "ev sahibi" statusunun mövcudluğu.

Azərbaycan dilində mənbələr "Sarı gəlin"i Azərbaycan xalq mahnısı kimi təqdim edir və onun türkdilli arealda yayılmasını vurğulayır, eləcə də 1930-cu illərdə Asəf Zeynallının mahnını nota köçürməsi faktı qeyd olunur. "Sarı gəlin"in "Şur" ladında mövcudluğu, "Şur"un Azərbaycan muğam sisteminin əsas ladlarından biri olduğu vurğulanır. Muğam ladları Azərbaycanın ənənəvi musiqi düşüncəsinin "qrammatikası", melodiyanın "dili"dir. Yəni yalnız "kim oxudu?" yox, "melodiya hansı lad məntiqi ilə nəfəs alır?" sualına cavab verir.

1930-cu illərdə mahnının Asəf Zeynallı tərəfindən nota köçürülməsi, işlənməsi Azərbaycan musiqi məktəbində sənədləşdiyini göstərir.

**– "Sarı" sözünün etimoloji yozumu da gündəmdədir. "Sarı" rəng, dağ, yoxsa addır?**

– Azərbaycan və türk dilində birbaşa oxunuş budur: "sarı" rəng bildirir; "gəlin" isə "ailəyə gələn" deməkdir. Bu halda "Sarı gəlin" "sarı (rəngdə) gəlin", daha poetik oxunuşda "günəş kimi parlaq" gəlin kimi anlaşılır. "Sarı" rəng olarsa, mətndəki sevgi obrazı "işıq/günəş/təravət" kodları ilə güclənir (gül, aman, nazlı yar və s. ilə yaxşı "oturur").

Erməni dilində "sarı" "dağı / dağlıq yeri" ifadə edir. Bu halda "Sarı gəlin" (və ya "Sari Aghjik") "dağ qızı/dağ gəlini" kimi təqdim olunur. "Sarı" dağ olarsa, mətndəki "dərə", "çoban", "quzu" kimi pastoral işarələr daha "coğrafi-mifoloji" çərçivəyə oturur. Yəni sözün özü mahnını təbiət arxetipinə çəkir. Erməni folklorunun əsas xətti isə tarixən kəndli-xristian həyat tərzi, kilsə mərkəzli mətnlər və yazılı ənənə üzərində formalaşıb. "Sarı gəlin"də isə nə kilsə, nə dini motiv, nə də erməni mifologiyasına xas simvolika var. Əvəzində köç, yaylaq, çobanlıq və açıq təbiət məkanı var ki, bu da türk-müsəlman dünyagörüşünün əsas dayaqlarıdır.

"Sarı" - "Sara" adının təhrif olunmuş formasıdır deyənlər də var. Bu oxunuşda "sarı" rəng və ya coğrafiya yox, antropomorf (şəxsi ad) kodudur: "gəlin" konkret bir qızın adla çağırılması kimi şərh olunur.





Bəs niyə bu qədər "oxunuş" var? Çünki "sarı" fonetik olaraq qısa, çox işlək və müxtəlif dillərdə mənaya açıq vahiddir. "Sarı"nın bu çoxmənalılığı mahnını poetik (rəng simvolikası), coğrafi (dağ/dərə), şəxsi (ad) səviyyələrində eyni anda işləyə bilən "kod düyünü"nə çevirir.

"Sarı" sözünün etimoloji çoxmənalılığı, mətnin qadağan olunmuş sevgi arxetipinə söykənməsi və melodiyanın transregional dolaşımı mahnının müxtəlif narrativlərə uyğunlaşdırılmasını asanlaşdırır. Lakin bu, avtomatik olaraq mənşənin dəyişdirilməsi və ya təhrif olunması üçün əsas yarada bilməz. Əksinə, belə hallar mədəni irsə yanaşmada etik məsuliyyətin nə qədər vacib olduğunu göstərir. Mədəni irs fakt deyil, canlı praktikadır; onu qoruyan isə səs-küylü iddialar yox, davamlı ifa ənənəsi, sənədləşmə və icma yaddaşıdır.

Bu çərçivə mübahisəni "sahiblik" ritorikasından çıxarıb qoruma, ötürmə və etik təqdimat müstəvisinə keçirir. Mədəni irsin qorunması onun başqalarına qarşı alətə çevrilməsi deyil, gələcək nəsillərə düzgün, şəffaf və məsuliyyətli şəkildə ötürülməsidir.

İnformasiya müharibəsində mədəni irsi qorumağın ən təsirli yolu emosional qarşıdurma deyil, elmi əsaslı kommunikasiya strategiyasıdır. Bu strategiya faktlara söykənir, beynəlxalq terminologiyanı istifadə edir və mədəni müxtəlifliyi inkar etmədən mərkəzi ənənəni aydın şəkildə ortaya qoyur. Belə yanaşma, bütövlükdə, mədəni kimliyi qorumağın müasir və davamlı yoludur.

***Hazırladı:***
***Fidan ƏLİYEVA***
***XQ***

*20 Yanvar qırğını – 36*

# Azadlıq məşəlini alovlandıran gecə...



**Dünən Azərbaycan Universitetində 20 Yanvar faciəsinin 36-cı ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Ali məktəbin rəhbərliyi və professor-müəllim heyəti əvvəlcə Şəhidlər xiyabanını ziyarət ediblər.**

Universitetin tədris binasında davam edən məclisdə Siyasi və ictimai elmlər kafedrasının professoru Qabil Əliyev 1990-cı ilin yanvarında sovet qoşunlarının Bakıya yeridilməsinin dinc əhaliyə qarşı misilsiz hərbi cinayət olduğunu qeyd edib. O, dövlət səviyyəsində törədilmiş bu vəhşiliyin Azərbaycan xalqının milli qürurunu və azadlıq eşqini sarsıda bilmədiyini söyləyib.

Maliyyə və mühasibat kafedrasının müdiri, dosent Nəriman Böyükkişi faciənin canlı şahidi kimi 20 yanvar gecəsi gənclərin göstərdiyi rəşadətdən danışıb. O, 1990-cı illərdən qaynaqlanan vətənpərvərlik ruhunun 44 günlük Vətən müharibəsində qazanılan Qələbədə önəmli rolundan söz açıb, bu mübarizənin sonunda ərazi bütövlüyümüzün bərpa olunduğunu bildirib. İqtisadiyyat və idarəetmə kafedrasının baş müəllimi Çingiz Məmmədov həmin gecə yaralıların xəstəxanada güllə yağışı altında daşınmasını və əhaliyə necə divan tutulduğunu yada salıb. O, bu amansızlığın Sovet İmperiyasının iç üzünü açaraq süquta yaxınlaşdırdığını bildirib.

20 Yanvar şəhidlərindən Larisa Məmmədovanın sinif yoldaşı, "Xalq qəzeti"nin əməkdaşı Arzu Əliyeva şəhid haqqında xatirələrini bölüşüb. O, həmin gecənin günahsız qurbanları olan uşaqların qətlə yetirilməsinin unudulmaz bir ağrıya çevrildiyini və şəhidlərin yarımçıq qalan arzularının müstəqil Azərbaycan gəncliyinin əməllərində yaşadığını deyib.

Anım mərasimi 20 Yanvar şəhidlərindən bəhs edən videoçarxın nümayişi ilə yekunlaşıb.

*XQ*

*I Türkoloji Qurultay*

# Türk xalqları hansı əlifbanı seçməlidir?

## *Ana dilimizin yazı tarixindən*

**Qurultayın ən mühüm və eyni zamanda ən çox mübahisə doğuran məsələsi əlifba problemi olmuşdur. Müvafiq bölmədə SSRİ ərazisində yaşayan türk xalqlarının istifadə etdikləri ərəb əlifbasının dəyişdirilməsinin məqsədəuyğunluğu müzakirə edilmiş, onun əvəzinə Kiril və ya latın əlifbasının tətbiqi, yaxud bu ərazilərdə yaşayan türk xalqları üçün ortaq və ya ayrı-ayrı əlifbaların qəbul olunmasının daha uyğun olub-olmaması məsələsi ətrafında geniş fikir mübadiləsi aparılmışdır.**

Müzakirələr beş iclasdan sonra yekunlaşdırılaraq səsverməyə çıxarılmış və həlledici səs çoxluğu ilə latın əlifbasının qəbulu barədə qərar verilmişdir. Beləliklə, Egey sahillərindən Çin sərhədlərinə qədər geniş coğrafiyada yaşayan türk xalqları üçün latın qrafikalı əlifbanın tətbiqi nəzərdə tutulmuşdur.

Bu silsilə yazılarda qurultay çərçivəsində aparılan ən diqqətəlayiq müzakirələrin icmalı və elmi təhlilinin təqdim edilməsi qarşıya məqsəd qoyulur.

**Rusiyalı linqvist, qafqazşünas, iranşünas alim professor Lev İvanoviç Jirkov** əlifba məsələsinin müzakirəsində üç əsas aspekti fərqləndirir. Birincisi, əlifba islahatının həyata keçiriləcəyi türk xalqları arasında mövcud olan mədəni və sosial şəraitlə bağlıdır. İkincisi bu və ya digər əlifbanın tətbiqinin texniki baxımdan işlənməsini əhatə edir, yazı sistemi və orfoqrafiya ilə birbaşa əlaqədar olub, konkret bir dil üçün neçə qrafik işarənin zəruri olduğu məsələsini müəyyən edir. Məruzəçi işarələrin sayının müəyyənləşdirilməsi üçün müxtəlif üsulların mövcud olduğunu, həmçinin işarələrdən istifadə zamanı qənaət etmənin yollarından bəhs edir. O, üçüncü aspekt olaraq konkret bir dil üçün əlifba qrafikasının zəruriliyinin müəyyənləşdirilməsini qeyd edir.

Bu mənada, Yakovlev Qafqaz bölgəsində latın qrafikalı əlifbanın tədqiqi məsələsinin son dərəcə mürəkkəb mədəni və sosial şəraitdə həyata keçirildiyini xüsusi vurğulayır. Bu kontekstdə o, dini amilin ayrıca nəzərə alınmasının vacibliyini vurğulayır. Latın və ərəb qrafikalı əlifbalar arasındakı qarşıdurma fonunda gələcək müzakirələrdə diqqətin əsasən müsəlman mədəniyyətinə mənsub xalqlar üzərində cəmləşdirilməsinin zəruriliyini və konkret olaraq, müsəlman ənənələrinin tarixi kökü və təsir dairəsinin nəzərə alınmalı olduğunu qeyd edir.

Qafqazda mövcud vəziyyət bu baxımdan olduqca xarakterikdir və milli yazı məsələsində özünü müxtəlif formalarda göstərir. Bir tərəfdən, inqilabdan əvvəl, ümumiyyətlə, yazı sistemi olmayan, hazırda isə onu böyük çətinliklə formalaşdırmağa çalışan yazısız, digər tərəfdən isə müəyyən yazı ənənələrinə malik olan xalqlara rast gəlinir. Məsələn, osetinlərdə yazı tarixinin təxminən yüz ilə yaxın keçmişi olduğu halda, inquşlarda yazı sistemi yalnız son dövrlərdə meydana çıxmışdır.

Yakovlevin məruzəsində diqqət verdiyi mühüm məqamlardan biri Şimali Qafqaz xalqları arasında latın əlifbasının tətbiqi məsələsidir. Onun qənaətinə görə, latın qrafikasını ilk qəbul edən xalqlardan biri məhz inquşlar olmuşdur. Sosial tərkibinə və müsəlman ənənələrinin zəifliyinə görə onlar mədəni baxımdan ən geri qalmış xalqlardan biridirlər, faktiki olaraq, formalaşmış yazı sisteminə malik olmamışlar. Bununla yanaşı, osetinlərin də latın qrafikasını ilk qəbul edən xalqlar sırasında yer alması diqqətəlayiqdir. Beləliklə, latın əlifbasına keçid prosesində paradoksal mənzərə yaranır: bu prosesdə həm mədəni baxımdan ən geri qalmış, həm də nisbətən ən qabaqcıl xalqlar ön sıralarda yer alırlar.

Dağıstan ərazisində isə vəziyyət tamamilə fərqlidir. Burada əsrlərə söykənən yazı ənənəsi, ərəb dilinin və maarifçiliyin yayılması mövcuddur və məhz bu səbəbdən indiyədək latın qrafikasının tətbiqi istiqamətində ciddi təşəbbüslər müşahidə olunmamışdır.

Bəzən iddia olunur ki, Azərbaycan latın qrafikalı əlifbanı tətbiq etsə də, bunun üçün kifayət qədər ciddi sosial baza mövcud deyil. Oxşar iradlar Kazan üçün də səsləndirilir və latın əlifbası islahatının həyata keçirilməməsi bu arqumentlə əsaslandırılır. Lakin Yakovlev tarixi faktlara istinad edərək bildirir ki, azərbaycanlılar latın qrafikalı əlifbanı tətbiq edən ilk türk xalqlarından biri, bəlkə də birincisi olmuşdur. Onun fikrincə, bu hal bir neçə əlverişli amilin üst-üstə düşməsi ilə izah edilə bilər. Belə ki, latın əlifbasına keçidin asanlığı milli yazının əvvəlki inkişaf səviyyəsi ilə tərs mütənasibdir: savadlılıq səviyyəsi nə qədər yüksək olmuşdursa, keçid bir o qədər mürəkkəbləşmişdir. Azərbaycanda şəhər əhalisinin nisbətən yüksək paya sahib olmasını məruzəçi bu prosesin müsbət həllinə təsir edən mühüm fakt kimi dəyərləndirir.

* * *

Yakovlev məruzəsində əlifba islahatını üç əsas istiqamət üzrə şərh edir:

1. Mədəni və sosial şərait – hər bir türk xalqının əlifba islahatına olan münasibəti mədəni və sosial xüsusiyyətlərinə bağlıdır.

2. Texniki işləmə və qrafik dizayn – hər bir dil üçün neçə qrafik işarənin lazım olması və bu işarələrdən necə qənaətlə istifadə ediləcəyi əlifbanın texniki səmərəliliyini müəyyən edir.

3. Konkret dil üçün zəruri qrafikanın müəyyən edilməsi – dilin fonetik tələblərinə cavab verən qrafika uzunmüddətli tətbiq üçün məqsədəuyğundur.

O, Qafqaz bölgəsində əlifbanın spesifikliyini təhlil edir. Müsəlman ənənələrinin müxtəlifliyi – latın və ərəb qrafikası arasındakı müzakirələrdə, kök salmış dini ənənələr mühüm rol oynayır. Məsələn: osetinlərin 100 illik yazı tarixi, inquşların son dövrlərdə yaranmış yazı sistemi. Məsələ burasındadır ki, latın əlifbasına keçən ilk xalqlar arasında həm mədəni baxımdan geri qalmış, həm də nisbətən qabaqcıl xalqlar olmuşdur. Məruzəçi bildirir ki, Qafqazda əlifba islahatı hər bir xalqın mədəni və dini şəraiti nəzərə alınmaqla həll edilə bilər; əks halda tətbiq uğursuz ola bilər.



Yakovlev bildirir ki, Azərbaycan latın qrafikasını erkən tətbiq edən türk xalqlarından biridir. Yerli şəhər əhalisinin payının nisbətən yüksək olması sosial islahat üçün əlverişlidir. Latın əlifbasına keçidin uğuru təkcə əlifbanın texniki üstünlüyündən deyil, həm də cəmiyyətin sosial və mədəni hazırlığından asılıdır. Dağıstanda isə əsrlərə söykənən yazı ənənəsi və ərəb dilinin yayılması latın qrafikasının tətbiqini çətinləşdirdiyini qeyd edir. Şübhəsiz ki, mövcud sosial-mədəni mühit əlifba islahatının sürətini və dərəcəsini müəyyən edir. Əlifba islahatı lokal kontekstə uyğunlaşdırılmalıdır, lakin vahid standart tətbiq etmək hər zaman mümkün deyil.

Yakovlevin yanaşması çoxsahəlidir: əlifba islahatı texniki, fonetik, sosial və mədəni aspektlərin inteqrasiyasını tələb edir. Latın əlifbasının tətbiqi yalnız texniki üstünlükdən deyil, həm də cəmiyyətin savadlılıq səviyyəsi, mədəni hazırlıq və sosial bazası ilə bağlıdır. Qafqaz xalqlarının timsalında hər bir xalqın tarixi, dini və sosial xüsusiyyətlərinin əlifba seçiminin uğuruna birbaşa təsir etdiyini xüsusi vurğulayır.

Yakovlev əlifba məsələsini zahirən texniki görünsə də, islahatı tarixi və mədəni zərurət kimi deyil, idarəolunan sosial proses kimi təqdim edir. Əslində onun bölgüsü elmi sistemləşdirmədən çox, siyasi qərarın legitimləşdirilməsidir. Bu yanaşma ona imkan verir ki, əlifba seçimini ideoloji müdaxilə yox, obyektiv şəraitin nəticəsi kimi göstərsin və məsuliyyəti qərarverən subyektdən alaraq tarixi-sosial mühit istiqamətinə yönəltsin. Əsas diqqət mərkəzində olan konkret əlifbaların texniki üstünlüyü deyil, həmin əlifbaların hansı sosial-mədəni mühitdə qəbul edilə biləcəyidir. Yakovlev üçün əlifba mədəniyyətin daxili ifadə vasitəsi yox, cəmiyyətin yenidən təşkili üçün istifadə olunan alətdir. Bu səbəbdən o, yazı ənənəsi zəif olan, dini təsirləri nisbətən az hiss olunan xalqların latın qrafikasını daha asan qəbul etdiyini vurğulayır və bunu inkişaf üçün uyğun zəmin kimi təqdim edir. Burada dini faktor açıq şəkildə hədəfə alınmır, lakin ənənələrin möhkəmliyi anlayışı vasitəsilə din modernləşməyə mane olan amil kimi dolayı yolla uğursuz status qazanır. Onun təqdim etdiyi paradoks, yəni latın əlifbasının həm ən geri qalmış, həm də ən inkişaf etmiş xalqlar tərəfindən tez qəbul edilməsi, əslində, latın qrafikasının ideoloji neytrallaşdırılma cəhdidir. Bu arqumentlə latın əlifbası nə geriliyin, nə də elit mədəniyyətin simvolu kimi görünür – bütün xalqlar üçün universal və təhlükəsiz seçim statusu qazanır. Bunun fonunda ərəb qrafikası açıq şəkildə rədd edilməsə də, mədəni missiyasını başa vurmuş, tarixi mərhələsini keçmiş yazı sistemi kimi təqdim olunur. Bu isə elmi nəticədən çox, mədəni gələcəyin inzibati qaydada müəyyənləşdirilməsidir.

Azərbaycanda bu prosesin gedişatının xüsusi vurğulanması da təsadüfi deyil. Yakovlev burada təkcə tarixi faktı qeyd etmir, eyni zamanda, latın əlifbasına keçidin "sosial bazası yoxdur" iradını qabaqlayıcı şəkildə neytrallaşdırır. Şəhər əhalisinin nisbəti, milli mühitin formalaşması kimi arqumentlər vasitəsilə Azərbaycan sovet modernləşməsinin uğurlu modeli kimi təqdim olunur. Bu model, əslində, digər türk xalqları üçün də dolayısı ilə normativ çərçivə yaradır: doğru sosial quruluş varsa, doğru əlifba seçimi də mümkündür. Ən çox problemli vəziyyətdə təqdim olunan xalqlar Kazan tatarları və özbəklər, məhz aralıq mərhələdə olan cəmiyyətlərdir. Onların yazı ənənələrinin mövcudluğu, savadlılıq səviyyəsi ilk baxışdan üstünlük kimi görünsə də, Yakovlev üçün bu, keçidi çətinləşdirən faktordur. Burada açıq şəkildə görünür ki, əlifba məsələsində həlledici amil dil və ya mədəniyyət yox, sosial struktur, xüsusilə də sovet proletariatının mövcudluğudur. Beləliklə, əlifba islahatı mədəni seçimdən çox, sinfi və siyasi layihəyə çevrilir.

Rus əlifbasının tarixi olaraq ruslaşdırma ilə əlaqələndirilməsi isə taktiki xarakter daşıyır. Bu arqumentlə Yakovlev rus qrafikasını da problemli göstərir və latın əlifbasını "üçüncü yol", ideoloji cəhətdən daha az yüklü alternativ kimi irəli sürür. Nəticədə, latın qrafikası nə islamlaşmanın, nə də ruslaşdırmanın simvolu kimi təqdim olunur, sovet beynəlmiləlçiliyinin texniki ifadəsi rolunu alır.

Ümumilikdə, Yakovlevin məruzəsi elmi müzakirə təsiri bağışlasa da, əslində, milli yazı sistemlərinin gələcəyini sovet modernləşmə layihəsinə tabe etdirməyə yönəlmiş ideoloji əsaslandırmadır. Burada əlifba mədəni yaddaşın davamı kimi deyil, keçmişlə əlaqəni zəiflədən və yeni sosial nizamı möhkəmləndirən vasitədir. Məhz bu səbəbdən ərəb qrafikasının "tarixi missiyasının bitməsi" fikri səsləndirilir və latın əlifbası gələcəyin yeganə rasional seçimi kimi təqdim olunur. O, açıq şəkildə göstərir ki, əlifba məsələsi təkcə mədəni seçim deyil, tarixi istiqaməti müəyyən edən prosesdir. Burada ərəb əlifbasının "tarixi missiyasının tədricən geri çəkilməsi" ideyası ilk dəfə statik yox, dinamik proses kimi təqdim olunur. Yəni Yakovlev demir ki, ərəb qrafikası artıq bitib; o deyir ki, bu əlifba hələ də mövcuddur, lakin mövqelərini itirə-itirə geri çəkilir. İdeoloji baxımdan düşünülmüş fikirdir, çünki burada zorakı ləğv yox, "tarixin öz axarı ilə sıradan çıxma" təsviri yaradılır.

Yakovlev Şimali Qafqaz, Azərbaycan və Orta Asiya ardıcıllığını coğrafi xəritə üzərində geri çəkilən dalğanın hərəkəti kimi göstərir. Bu dalğa guya obyektiv tarixi prosesdir və heç bir mərkəzi iradə ilə idarə olunmur. Halbuki mətndə bu "axın"ın istiqaməti artıq müəyyən edilib və oxucuya açıq ismarış ötürür: Orta Asiya üçün də bu mərhələdən keçmək qaçılmazdır. O, gələcəyi proqnozlaşdırmır, əslində normativ şəkildə müəyyənləşdirir. Ərəb əlifbası tərəfdarlarının öz düşərgəsində parçalanma ideyası xüsusilə strateji xarakter daşıyır. Klassik ərəbçilərlə "neo-ərəbçilər" arasındakı fərqi vurğulamaqla, ərəb qrafikasının artıq vahid ideoloji dayaq olmadığını göstərməyə çalışır. Neo-ərəbçilər, yəni qrafikanı texniki cəhətdən islah etmək istəyənlər əslində Yakovlevin nəzərincə məğlubiyyətin etirafıdır. Çünki bu yanaşma ərəb əlifbasını müasirliyə uyğunlaşdırmaq deyil, onun latın islahatına alternativ ola bilmədiyini dolayı yolla qəbul etmək kimi göstərilir. Beləliklə, ərəb qrafikası həm xaricdən təzyiq altında, həm də daxildən qeyri-sabit vəziyyətdə təqdim edilir.

Məruzənin əsas ideoloji xətti yazı, elm və din münasibətlərinə dair irəli sürülən qanunauyğunluqdur. O, iddia edir ki, mədəniyyət yalnız müəyyən inkişaf mərhələsinədək dinlə sıx bağlı olur və milli özünütəyinetmə mərhələsində yazının dindən ayrılması qaçılmazdır. Bu, konkret tarixi faktların ümumiləşdirilməsi deyil, universal inkişaf sxemi kimi təqdim olunan ideoloji tezisdir. Bu sxemə əsasən, ərəb əlifbasında israr etmək milli inkişafın geridə qalmış mərhələsində qalmaq deməkdir. Beləliklə, əlifba seçimi birbaşa milli yetkinlik ölçüsünə çevrilir. Bu ölçü ilə latın əlifbası özünütəyinetmə meyarı kimi təqdim olunur. Xüsusilə yazı ənənəsi zəif, milli kimliyi hələ tam dəqiqləşdirilməmiş xalqlar üçün latın qrafikası keçmişlə ağır bağlar yaratmayan, dini simvolizm daşımayan və yeni milli identiklik qurmaq üçün daha asan vasitə kimi göstərilir. Burada latın əlifbasının üstünlüyü mədəni neytrallıqla əsaslandırılır. Bu, sovet modernləşmə məntiqinə tam uyğundur.

Professor Jirkov "Əlifbanın qurulmasının texniki əsasları"nı izah edərkən yazı ilə dil arasında prinsipial fərqi ön plana çəkir. Onun fikrincə, yazı heç vaxt və heç bir cəmiyyətdə mükəmməl olmamışdır. Dil, müəyyən mənada, insanın şüurlu müdaxiləsindən kənarda inkişaf edən canlı sistem olduğu halda, yazı ondan fərqli olaraq məqsədli və şüurlu şəkildə formalaşdırılan bir vasitədir. Bu səbəbdən xalqın hər hansı bir yazı sistemini mənimsəməsi təsadüfi yox, dərk olunmuş tarixi prosesdir və bu prosesin hansı sosial, mədəni və texniki amillərin təsiri altında baş verdiyini izləmək mümkündür. Jirkov vurğulayır ki, yazı sistemlərinin formalaşmasında ümumi mədəni təsirlərlə yanaşı, fərdi yaradıcılıq və ixtiraçılıq amili də mühüm rol oynamışdır. Slavyan əlifbasının ilkin texniki işlənməsində Kiril və Mifodinin fəaliyyəti buna klassik nümunədir. Demək olar ki, sami əlifbası istisna olmaqla, əksər yazı sistemlərinin yaranma mərhələsində və ya sonrakı islahatlar dövründə konkret fərdi ixtiraçılarla qarşılaşırıq.

Jirkov qeyd edir ki, şifahi nitqlə yazı arasında həmişə müəyyən uyğunsuzluq mövcud olmuşdur. Əlifbanın ixtiraçıları və ya islahatçıları ya kifayət qədər estetik zövq və texniki istedada malik olmamış, ya da dilin daxili təbiəti barədə təsəvvürləri kifayət qədər aydın olmadığı üçün yazı sisteminə rasional şəkildə yanaşa bilməmişlər. Yeni milli mədəniyyətlərin və ədəbiyyatların yaradılmasına yönəlmiş cəhdlər, bir qayda olaraq, inqilabi sarsıntılar nəticəsində meydana çıxır və bu proses ya yeni əlifbaların yaradılmasını, ya da mövcud əlifbaların köklü şəkildə islah edilməsini zəruri edir. Onun fikrincə, cari tarixi mərhələnin əsas xüsusiyyəti də məhz bundan ibarətdir və bu vəziyyət həm türk, həm də qeyri-türk xalqları üçün eyni dərəcədə xarakterikdir.

Əlifba yazı alətlərindən biridir və bu alətin qeyri-kamil olması yalnız estetik deyil, həm də ciddi sosial nəticələr doğurur. Natamam və qeyri-aydın yazı oxu və ünsiyyət prosesində çətinliklər yaradır, bu isə cəmiyyətdə narazılıq və gərginlik mənbəyinə çevrilə bilər. Jirkov əlifbaya sırf texniki baxımdan yanaşaraq bu yanaşmanın üç əsas meyar üzərində qurulmalı olduğunu bildirir: birincisi, əlifbanın oxunaqlılığı, yəni rahat oxunuşu; ikincisi, həmin əlifbanın mövcud yazı materialları və dövrün texniki vasitələri ilə asan və səmərəli şəkildə təkrar istehsal edilə bilməsi; üçüncüsü, pedaqoji baxımdan asan mənimsənilməsi, yəni geniş əhali kütləsinə bu yazı alətini öyrətməyin mümkünlüyü.

Bu meyarlar əsasında Jirkov mühüm bir nəticəyə gəlir: əlifbanın estetik cəhətdən həddindən artıq gözəlliyi çox vaxt oxunaqlılığa zərər vurur. Onun fikrincə, bu xüsusiyyət ərəb əlifbasına xasdır. Ərəb yazısı yüksək estetik dəyərə malik olsa da, məhz bu xüsusi keyfiyyət onun əsas texniki çatışmazlığına çevrilir. Müasir texniki vasitələr ərəb əlifbasını əlyazmasındakı incəlik və ahənglə təkrar istehsal etməyə imkan vermir, mətbəə yığımında ərəb şrifti heç vaxt əlyazmasındakı qədər aydın və estetik görünmür. Bu baxımdan, latın əlifbası öz aydınlığı və texniki uyğunluğu ilə mübahisəsiz üstün mövqedə dayanır və belə olduğu təqdirdə ərəb əlifbası ona yol verməyə məcbur qalır.

Jirkov əlifba islahatının zorakı üsullarla həyata keçirilməsinin yolverilməz olduğunu xüsusi vurğulayır. Onun fikrincə, köhnə və texniki cəhətdən natamam yazı vasitələri, o cümlədən ərəb şrifti tədricən latın əlifbası ilə əvəz olunmalıdır. Bu proses tamamilə təbii xarakter daşıyır: iki yazı aləti eyni vaxtda mövcud olduqda, daha mükəmməl olan zamanla üstünlük qazanır. Cəmiyyətin müxtəlif təbəqələri köhnə alətdən yeni və daha funksional yazı sisteminə mərhələli şəkildə keçirlər. Bu səbəbdən islahatlar taktiki baxımdan ölçülü və ehtiyatlı aparılmalıdır. Yeni əlifbanın gətirdiyi texniki və praktik üstünlüklər keçid dövründə yaranan müəyyən uyğunlaşma çətinliklərini və kiçik narahatlıqları kompensasiya edir. Belə çətinliklər ümumi islahatın tənqidi üçün əsas sayıla bilməz; əsas məqsəd əlifbanın texniki səmərəliliyini və sosial faydasını qorumaqdan ibarət olmalıdır.

* * *

Professor Jirkov əlifba müzakirələrində nə latın əlifbasını ideoloji simvola çevirir, nə də ərəb əlifbasını tarixi-sinfi kateqoriyalarla tənqid edir. Əksinə, əlifba məsələsini yazı texnologiyası problemi kimi formullaşdırır. Bu yanaşma onu Qorxmasov, Ağamalıoğlu kimi idealistlərdən, İvanov və Sabaşkin kimi praqmatiklərdən fərqləndirir. Jirkovun təhlilinin nəzəri nüvəsi dil və yazının prinsipial ayrılığıdır: dil – canlı, yazı – məqsədli, şüurlu, texniki vasitə. Bu fərq ilə o, əlifba məsələsini milli ruh, mədəni irs, dini mənsubiyyət kateqoriyalarından tamamilə ayırır. Yazı təbii deyil, müəyyən quruluşlu obyekt kimi təqdim olunur və onun dəyişdirilməsi texniki optimallaşdırma sayılır. Jirkov mühüm metodoloji balans yaradır: yazı sistemləri sosial-mədəni mühitdən doğur, eyni zamanda, fərdi ixtiraçıların rolu burada həlledicidir. Kiril və Mifodinin misal gətirilməsi də təsadüfi deyil: əlifba özü-özünə yaranmır, onu konkret insanlar texnika vasitəsilə formalaşdırırlar.

Jirkovun ən güclü elmi müşahidələrindən biri də şifahi nitqlə yazı arasında heç vaxt tam uyğunluğun olmamasıdır. Bu uyğunsuzluğun səbəbi estetik, texniki səriştəsizlik, dilin daxili mexanizmlərinin düzgün anlaşılmamasıdır – yazının natamamlığı struktur xüsusiyyət kimi təqdim olunur. O, dilçilikdə inqilab anlayışını ideoloji yox, struktur-mədəni katalizator kimi istifadə edir. Yeni milli mədəniyyətlərin ya yeni əlifba, ya da köklü islahat ilə başladığını bildirir. Bu inqilabı əlifba dəyişiminin siyasi səbəbi yox, tarixi şəraiti kimi təqdim edir. Burada ideoloji təzyiq yox, funksional zərurət ön plandadır. O, əlifbanın qeyri-kamil olmasının yalnız estetik deyil, birbaşa sosial təsirlərin yaratdığını göstərir, yəni oxu çətinləşir, ünsiyyət ləngiyir, narazılıq və gərginlik yaranır, bu zaman əlifba dil aləti yox, sosial element kimi dəyərləndirilir.

Jirkovun təklif etdiyi üç meyar əlifba müzakirələrinin ən sistemli texniki ölçüsüdür: oxunaqlılıq, texniki təkrar istehsal (mətbəə, material, texnologiya), pedaqoji mənimsəmə (kütləvi təhsil üçün uyğunluq). Bu üçlük əlifbanı nə estetik zövqə, nə də ideoloji simvolizmə tabe edir. Onun ən kəskin, lakin elmi baxımdan əsaslandırılmış nəticəsi budur: estetik gözəllik çox vaxt oxunaqlılığa zərər vurur, ərəb əlifbası bu baxımdan əlyazmada mükəmməl, texniki reproduksiyada zəif sistem kimi təqdim olunur. Mətbəə texnologiyası ilə uyğunlaşmaması onun tarixi üstünlüyünü texniki çatışmazlığa çevirir. Bu arqument ideoloji yox, texnoloji determinizm üzərində qurulub.

Jirkov əlifba islahatının inzibati zorakılıqla, qəfil qadağalarla aparılmasını qəti şəkildə qəbul etmir. Onun modeli texnoloji təkamüldür: iki yazı paralel mövcud olur, daha funksional olan tədricən üstünlük qazanır. Bu sovet müzakirələri içində ən liberal və elmi əsaslandırılmış keçid modelidir: əlifba məsələsinin ən yüksək nəzəri-texniki (təcrübi – N.M.) səviyyədə qoyuluşudur, ideoloji mübahisələrə elmi zəmin yaradır, latın əlifbasını tarixi labüdlük yox, texniki baxımdan optimal seçim kimi əsaslandırır. Bu mövqe əlifba məsələsini ideoloji mübahisədən çıxarıb elmi-texniki rasional seçim səviyyəsinə qaldıran ən yetkin yanaşmadır.

Professor Jirkov yazı ilə dil arasındakı prinsipial fərqi vurğulayır və bildirir ki, dil canlı, inkişaf edən sistem olduğu halda, yazı məqsədli və şüurlu şəkildə formalaşdırılan vasitədir. Ona görə də xalqın hər hansı bir yazı sistemini mənimsəməsi təsadüfi deyil, dərk olunmuş tarixi prosesin nəticəsidir və sosial, mədəni və texniki amillərin təsiri altında baş verdiyini izləmək mümkündür. Yeni milli mədəniyyətlərin və ədəbiyyatların yaradılmasına yönəlmiş cəhdlər adətən inqilabi sarsıntıların nəticəsində meydana çıxır və bu, yeni əlifbaların yaradılmasını və ya mövcud əlifbaların köklü islahını zəruri edir; cari tarixi mərhələ də məhz bu xüsusiyyətlə səciyyələnir və həm türk, həm də qeyri-türk xalqları üçün xarakterikdir. Jirkovun fikrincə, əlifba yalnız yazının alətidir və onun qeyri-kamil olması estetik yox, həm də ciddi sosial nəticələr doğurur; natamam və qeyri-aydın yazı, oxu və ünsiyyət prosesində çətinliklər yaradır, bu isə cəmiyyətdə narazılıq və gərginlik mənbəyinə çevrilir.

Jirkov vurğulayır ki, əlifbanın estetik gözəlliyi oxunaqlığa təsir edə bilər və bu xüsusiyyət xüsusilə ərəb əlifbasında özünü göstərir. Ərəb yazısı yüksək estetik dəyərə malik olsa da, bu onun əsas texniki çatışmazlığına çevrilir: müasir texniki vasitələr əlyazmanın incəlik və ahəngini tam təkrarlaya bilmir, mətbəədə isə ərəb şrifti heç vaxt əlyazmadakı qədər aydın və estetik görünmür. Bu baxımdan latın əlifbası öz aydınlığı və texniki uyğunluğu ilə üstün mövqedə dayanır. Jirkov, eyni zamanda, islahatın zorakı üsullarla aparılmasının yolverilməz olduğunu bildirir. Köhnə və texniki baxımdan natamam yazı vasitələri, o cümlədən ərəb şrifti, tədricən və mərhələli şəkildə latın əlifbası ilə əvəz olunmalıdır. İki yazı aləti eyni vaxtda mövcud olduqda, daha funksional və mükəmməl olan zamanla üstünlük qazanır; cəmiyyətin müxtəlif təbəqələri köhnədən yeni əlifbaya mərhələli şəkildə keçir. Bu səbəbdən islahatlar taktiki və ehtiyatlı aparılmalı, keçid dövründə yaranan çətinliklər və kiçik narahatlıqlar isə yeni əlifbanın texniki və praktik üstünlükləri ilə kompensasiya olunmalıdır. Ümumilikdə, Jirkovun yanaşması göstərir ki, əlifba islahatı həm texniki, həm sosial, həm də pedaqoji meyarlarla dəyərləndirilməli və əsas məqsəd əlifbanın səmərəliliyini və cəmiyyət üçün faydasını artırmaq olmalıdır.

***(ardı var)***

***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor***

*Unutsaq, unudularıq*

# Yalçın müəllimin jurnalistika dərsləri

**Azərbaycan jurnalistlərinin unudulmaz müəllimi Yalçın Əlizadə 3 il əvvəl dünyasını dəyişsə də, çoxsaylı yetirmələrinin qəlbində yaşayır, daim xoş xatirələrlə və verdiyi ustad dərsləri ilə yad edilir.**



Yalçın Əlizadə uzun müddət Bakı Dövlət Universitetinin Həmkarlar İttifaqı Komitəsinin sədri olmuşdu, jurnalistika fakültəsində müəllim, dosent, professor, kafedra müdiri və nəhayət, dekan vəzifələrində çalışmışdı.

Yalçın müəllim çox maraqlı, geniş erudisiya, böyük dünyagörüşünə malik, ideallarına sadiq bir şəxsiyyət idi. O, həyatının çox hissəsini jurnalistikaya həsr edərək ali ixtisaslı jurnalist kimi 10 il Azərbaycan radiosunda işləmişdi. Sonrakı illərdə o, BDU-da pedaqoji fəaliyyət göstərərək gənc jurnalistlərin yetişdirilməsinə mühüm töhfələr vermişdi. Azərbaycanda radio jurnalistika tarixini araşdıran ilk alimlərdən olan Yalçın Əlizadə bu sahənin aktual problemlərinə dair yüzə yaxın elmi məqalənin, 2 dərsliyin, 3 sənədli publisist kitabın müəllifi idi. Onun elmi fəaliyyətində xüsusi yer tutan radio jurnalistikasının nəzəri aspektləri uzun illər apardığı tədqiqatların, şəxsi müşahidələrinin və praktik təcrübəsinin nəticəsi idi.

Bu araşdırmalar əvvəlcə “Azərbaycanda radio jurnalistikanın təşəkkülü və inkişafı” adlı namizədlik dissertasiyasında, daha sonra isə jurnalistika təhsilində dəyərli mənbə kimi qiymətləndirilən “Radio jurnalistikanın əsasları” adlı dərsliyində geniş nəzəri şərhini tapıb. Bu dərslik təkcə tədris vəsaiti deyil, milli radio jurnalistikasına elmi baxışın, peşə etikasının və yaradıcı düşüncənin birləşməsi idi. Kitabın ən böyük üstünlüklərindən biri nəzəri biliklə praktik təcrübəni uzlaşdırması olmuşdu.

Azərbaycan radiosunun 80 illiyinə töhfə olaraq Yalçın Əlizadənin yetirməsi professor Qulu Məhərrəmli ilə birgə hazırladığı “Azərbaycan efiri: tarix və müasirlik” adlı kitabı bu sahədə fundamental nəşr kimi qarşılandı. Kitabda radio və televiziya tarixinin öyrənilməsinə dair yeni sənədlərə, verilişlərdən nümunələrə, jurnalist məsuliyyətinə, canlı yayımda etik normalara geniş yer ayrılıb.

Yalçın müəllim üçün jurnalistika həyatının mənası olub. O, həmişə bu peşəyə layiq olmağa çalışıb. Bütün bu keyfiyyətlərinə görə Yalçın Əlizadə “Əməkdar jurnalist” fəxri adına, “Qızıl qələm” mükafatına, “Tərəqqi” medalına, “Əmək ordeni”nə və BDU-nun 100 illiyi medalına layiq görülüb.

Yalçın müəllim radio jurnalistikasını “səsli düşünmə sənəti” adlandırar, onun sadəcə, informasiya ötürən vasitə deyil, dinləyici ilə görünməz, lakin güclü emosional bağ yaradan media vasitəsi olduğunu vurğulayardı. Ustad jurnalist bu mövzuda saatlarla danışardı. O, tez-tez xatırladardı ki, radio jurnalisti efirdə təkcə özünü deyil, cəmiyyəti təmsil edir.

“Azərbaycan Radiosu ilk elmi araşdırmalarda” adlı metodik vəsait üzərində işlədiyim dövrdə Yalçın müəllimin elmi məsləhətçi kimi dəyərli tövsiyələri çox köməyimə gəldi. O, radioya gəldiyi ilk illəri, Tofiq Rüstəmov və Mailə Muradxanlı ilə birgə hazırladıqları verilişləri, efirdə yaşanan, şahidi olduğu gərgin anları yada salırdı. Bu xatirələr tədqiqatımın canlı tarix kimi formalaşmasına kömək etmişdi.

O, məni düşündürən bir detalın üzərində uzun-uzadı dayanırdı. “Bunu sən fakt kimi yox, proses kimi izah et”, – deyirdi.

Radio jurnalistikasının arxasında böyük zəhmət, məsuliyyət və zamanın nəfəsi dayandığını xatırlayan alim elmi işin oxunaqlı olmasına çalışır, mövzunun ruhunu duymağı, araşdırılan dövrü hiss etməyi öyrədirdi: “Elmi mətn də dinləyici, yaxud da oxucu üçün aydın və anlaşılan olmalıdır”. O, efirdə baş verən gözlənilməz vəziyyətlərdən peşəkarlıqla çıxdıqlarını xatırlayırdı: “Radionun gücü tək texnikada deyil, jurnalistin düşünmə sürətində və məsuliyyət hissindədir”. Yalçın müəllimin redaktə etdiyi istənilən yazıda heç bir işarə diqqətindən yayınmırdı. O, mətni tələsmədən, sətir-sətir oxuyardı, məntiqi uyğunsuzluq, yanlış söz və ya durğu işarəsi gözündən qaçmazdı. Hesab edirdi ki, mətn müəllifin peşəkar simasını əks etdirir. “Oxucu səni tanımaya bilər, amma sənə yazına görə qiymət verəcək”. İlk baxışda Yalçın müəllim çox ciddi təsir bağışlayırdı. Lakin onu yaxından tanıyan hər kəs bilirdi ki, bu ciddiyyət böyük məsuliyyətdən irəli gəlirdi. Semestrin sonu idi. Xəstələnib evdə müalicə aldığı günlərdə tələbələrlə Yalçın müəllimgilə getmişdik. Bu, tələbələr üçün sadəcə, ziyarət deyil, canlı ünsiyyət, açıq müzakirə imkanı idi. İlk dəqiqələrdən söhbət səmimi, isti bir ab-havada başladı. Jurnalistikadan, həyatdan, efirin görünməyən tərəflərindən danışdıqca zamanın necə keçdiyini hiss etmədik. Tələbələr diqqətlə ona qulaq asır, suallar verirdilər. Bu görüş onlarda çox böyük təəssürat yaratdı. Auditoriyada gördükləri ciddi müəllimin qayğıkeş və səmimi bir insan olduğunu məhz həmin axşam daha aydın hiss etdilər. Professional keyfiyyətləri ilə yanaşı, Yalçın müəllim gözəl ailə başçısı, sevimli müəllim, yüksək təşkilatçılığı ilə seçilən rəhbər idi. Fakültə dekanı işlədiyi vaxtlarda da professor-müəllim heyətinin inamını, sevgisini qazanmışdı. Müəllimi, professor Şirməmməd Hüseynov onun haqqında demişdi: "Yalçın, ləyaqət sahibidir, mənim ümidlərimi doğrultmuş alim və müəllimdir”.

Jurnalistika fakültəsində həmişə nüfuzlu müəllim və professorların, peşəkarların qurub-yaratdığı müəllim-tələbə münasibətləri səmimilik, qarşılıqlı hörmət və peşəkar etika prinsiplərinə əsaslanıb. Yalçın müəllimin ömrünün ən məhsuldar illəri Jurnalistika fakültəsində belə bir mühitdə keçmişdi. Müəllimlərinin illərlə yaratdığı mühiti, ənənələri qoruyub saxlamışdı və bu ənənələr günümüzdə də uğurla davam etdirilir.

Bu gün professor Yalçın Əlizadənin anadan olmasının 86-cı ildönümünü onsuz qeyd edirik. Belə bir müdrik deyim var: “Əgər insan layiqli həyat yaşayıbsa, onu sevən ailəsi, dostları və ömrünü həsr etdiyi peşəsi varsa, o xoşbəxtdir”. Yalçın müəllim də belə xoşbəxt taleli insan idi.

***Sevinc MƏMMƏDOVA,***
***BDU-nun jurnalistika fakültəsinin dosenti***

# Azərbaycanın modern səhiyyə ocağı

## “APPRO hospital”da ən ağır xəstələr də həyata qaytarılır




**Ağır vəziyyətdə Qəbələdən gətirilmiş qardaşım İntizam Məmmədcan oğlu Qaçayev də həmin “ağır xəstələrdən” biri oldu. Rayondakı həkimlər onun ürəyində çox ciddi problem olduğunu öyrənəndə dərhal Bakıya aparılmasını, imkan daxilində “APPRO hospital”a çatdırılmasını tövsiyə etmişdilər.**

Dekabrın 13-də həmin tibb ocağına çatdırılan qardaşımı müayinə edən həkimlər xəstənin vəziyyətini və yaşını nəzərə alaraq cərrahi əməliyyatı bir neçə gün ləngitdilər ki, lazımi hazırlıq aparılmaqla nəticə uğurlu olsun. Allahın köməyi ilə buna nail oldular da.

Bu məqamda, mən beynəlxalq keyfiyyət standartlarına uyğun qurulmuş, 2021-ci ildən fəaliyyət göstərən “APPRO hospital”ın adının mənasını xatırlatmaq istəyirəm. Çünki mənə elə gəldi ki, bu kollektivin üzvləri, sadəcə, kimisə müayinə və ya müalicə etmək üçün deyil, həm də adlarının mənasını doğrultmaqdan ötrü çalışırlar. Belə ki, APPRO sözü Almaniyada həkimlərə verilən “approbation” adlı sənədin adından yaranmışdır. Onu da sonradan öyrəndim ki, bu tibb ocağı qısa müddətdə sürətli inkişaf yolu keçərək Azərbaycan səhiyyə sistemində özünəməxsus yer tuta bilib.

Əlavə edək ki, “approbation” Almaniyada həkimlik təhsili alan hər bir şəxsin diplomunun ölkənin dövlət standartına uyğunluğunu təsdiq edən sənəddir. Həm də bu sertifikat ömürlük verilir. Yəni həkimin alman standartlarına uyğun mütəxəssis olduğu bu şəkildə rəsmiləşdirilir. Qətiyyətlə deyə bilərəm ki, “APPRO hospital”da qeydiyyat mərkəzindən başlayaraq, bütün proseslərin aparıldığı şöbələrdə bəzi xarici sənədli filmlərdə gördüyümüz ən müasir dünya standartlarına uyğun şərait yaradılıb.

Mən həmin günlərdə əmin oldum ki, paytaxtımızda belə bir səhiyyə müəssisəsi də var. Hospitalın baş həkimi, ali təhsilini Rusiyada alsa da, Avropanın bir çox ölkələrində keçirilən kardioloq-cərrahların beynəlxalq konfranslarında ölkəmizi uğurla təmsil etmiş, Azərbaycan (AKC) və Avropa (ESC) Kardioloqlar Cəmiyyətinin üzvü Turxan Yusifov, ürək-damar cərrahı, tibb üzrə fəlsəfə doktoru İmadəddin Bağırov, onun assistenti İlkanə Quluzadə, tibb bacıları Lalə, Aytən, Təranə, Fərzanə, Arzu, eləcə də Bilal, Elcan, Nərmin, Səbinə, ümumiyyətlə, xəstəxananın bütün personalı kənd rayonundan gətirilmiş ağır xəstənin ayağa qaldırılması və ailəsinə sevinc bəxş edilməsi üçün lazım olan bütün addımları atdılar və bizi sevindirdilər.

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

*Mədinə Gülgün – 100*

# “Bir qolum Bakıdır, bir qolum Təbriz”

**Yurd həsrətli, mübariz qələm sahibi, “21 Azər” hərəkatının fəal iştirakçısı, Azərbaycan Demokrat Firqəsinin üzvü olmuş Əməkdar incəsənət xadimi Mədinə Gülgünün anadan olmasının 100 illiyini otay-butaylı xalqımız sevgi-sayğı ilə qeyd edir. Azərbaycan qadın şairlərinin sırasında özünəməxsus yeri, poetik nəfəsi olan Mədinə xanım 35 il əvvəl dünyasını dəyişsə də, xatirəsi ürəklərdə yaşayır, mövzu aktuallığını və təravətini itirməyən şeirləri dillərdə gəzir.**

***Yuxuma gəlsəydin əgər bir axşam,***
***Mən çəpər edərdim kirpiklərimi.***
***Qoymazdım gözümdən kənara səni,***
***Qoymazdım yuxuma daha heç kimi.***

Bu misralar yarım əsrdir ki, yaddaşımda silinməz iz qoyub. Doğrudan da, sevginin, intizarın “rəsmini” sözlə, özü də bir bənddə bundan da gözəl necə çəkmək olar?!

Mədinə Gülgün əslən Ərdəbildən idi. Ötən əsrin əvvəllərində Arazın o tayından Bakıya gələn ailənin burada doğulan gülgün bir övladı olub. İbtidai təhsilini Bakıda alıb. Amma 1938-ci ildə onlar SSRİ vətəndaşı olmadıqları üçün Vətənin bu tayından çıxarılıblar və Ərdəbilə qayıtmalı olublar. Sonra Təbrizə köçüblər. Atası Nurulla kişi həbs olunduqdan sonra yeniyetmə Mədinə toxuculuq fabrikində çalışıb. “Ziddi-faşist” təşkilatına üzv olub və eyni zamanda, ədəbi fəaliyyətə başlayıb. “Biz kimik?” adlı şeiri “Ələkbərzadə” imzası ilə 1944-cü ildə çap olunub. Növbəti 2 ildə Təbriz Dram Teatrında işləyib.

Daha sonra onun şeirləri əsasən “Vətən yolunda” və “Azərbaycan” qəzetlərində dərc edilib. Cəfər Xəndanın məsləhəti ilə özünə Cəfər Cabbarlının “Od gəlini” pyesindəki Gülgün personajının adını təxəllüs götürüb. 1945-ci ilin yanvar ayında Təbrizdə yaradılmış “Şairlər məclisi”ndə bu imza ilə tanınmağa başlayıb.

Cənubda Azərbaycan milli hökumətinin süqutu səbəbi ilə oradan dərbədər düşənlərin arasında Mədinə Gülgün də vardı. Arazın bu tayına gələn gənc şair bir müddət Culfada yaşayıb, orada demokratların bərpa etdiyi Təbriz radiosunda işləyib, sonra Bakıya üz tutub. Pedaqoji institutda ali təhsil alıb. Tələbə ikən “Təbrizin baharı” adlı ilk şeir kitabı 1950-ci ildə Bakıda işıq üzü görüb.

Mədinə Gülgün həmin ildə sonradan Xalq şairi fəxri adını alacaq əminəvəsi Balaş Azəroğlu ilə ailə həyatı qurub. Ondan müsahibə aldığı vaxt bir-birinə könül veriblər. Xeyir-duanı isə Ağayi Pişəvəridən alıblar. Bu evlilikdən şairlər ailəsinin Araz və Etibar adlı oğulları dünyaya gəlib. Çətin zamanlar olduğu üçün bəzən bir dəftərə hər ikisinin şeirləri yazılıb. Şərikli makinada çap edilib poetik duyğuları. Bir-birinin ilk oxucuları olublar. Mədinə xanımın yaradıcılıq uğurlarına ömür-gün dostu güclü təsiri göstərib.

Sonrakı dövrdə Mədinə Gülgünün “Savalanın ətəklərində”, “Sülhün səsi”, “Yadigarüzük”, “Təbriz qızı”, “Firudin” (poema), “Çinar olaydı”, “Dünyamızın sabahı”, “Arzu da bir ömürdür”, “Yora bilməz yollar məni”, “Durnalar qayıdanda”, “Könlümü ümidlər yaşadır”, “Dünya şirin dünyadır” və digər maraqlı kitabları nəşr olunub. Nəşriyyat ünvanları isə Bakı ilə bərabər, Moskva, Ottava, Təbriz və başqa şəhərləri əhatə edib. 1958-ci ildə Yazıçılar İttifaqına üzv qəbul edilən istedadlı şair orden və medallarla təltif edilib, sanballı mükafatlar alıb.

Mədinə Gülgünün poetik amalı xalqımızın birliyi, parçalanmış Vətənimizin bütövlüyü olub. O, xəyalən xoşbəxtliyini bu birlikdə tapıb:

***Mənim hünərim də, mənim gücüm də***
***Birlikdir, birliyin öz səsiyəm mən.***
***Bu birlik eşqiylə hey zaman-zaman***
***Bəxtəvər-bəxtəvər ötəsiyəm mən.***

“Bir qolum Bakıdır, bir qolum Təbriz”, deyən, özünü bütöv Vətənin nəğməkarı sayan Mədinə Gülgün vüsal, birlik arzularını həmişə inamla, nikbinliklə dilə gətirib.



Bəzən də ağrı-acıdan kövrəldiyini gizləyə bilməyib. Məsələn, bir neçə gündən sonra növbəti ildönümünü qeyd edəcəyimiz qanlı 20 Yanvar faciəsi onu ürəkdən ağladıb. “Bu şəhid balaların ölən vaxtı deyildi!..” - deyərək onların dərdini də öz dərdinə qatıb, poetik fəğan qoparıb.

“Qayıdaydıq o Təbrizli günlərə, arzularım qönçəsindən çıxaydı, saçlarıma yaz yağışı yağaydı...” - deyən Mədinə Gülgünün istəkləri gülgün olsa da, təəssüf ki, qönçəsindən çıxmadı. Şair 1991-ci ildə Bakıda işıqlı dünyaya əlvida dedi.

***İnanma susdura zaman qəlbimi,***
***İnanma, desələr öləcəyəm mən.***
***Bu elə, bu yurda körpə quş kimi,***
***Həmişə baharla gələcəyəm mən***

– demişdi Mədinə Gülgün. Amma o, yurd həsrəti ilə dünyadan köçdü. Vədinə əməl etmədiyinə “irad” olaraq elə özünün sözlərinə yazılmış məşhur “Sən gəlməz oldun” mahnısından misraları xatırlayırıq:

***Deyirdin baharda görüşərik biz,***
***Bahar gəldi, getdi, sən gəlməz oldun.***
***Daşlaramı dəydi, sındı əhdimiz,***
***Aylar gəldi-getdi, sən gəlməz oldun.***

Onu da xatırladaq ki, Mədinə Gülgünün “Məhəbbət olmayanda”, “Apar məni” və sair lirik şeirlərinə də populyarlıq qazanmış gözəl mahnılar bəstələnib. Hələ 1949-cu ildə Cahangir Cahangirovun bəstələdiyi “Arazın o tayında” vokal-simfonik poeması isə Mədinə Gülgünlə Əli Tudənin sözlərinə yazılıb.

Sonda 100 yaşı bu gün tamam olan unudulmaz xanım-şairin haqqında yazılan, deyilən mötəbər fikirləri oxucularımıza xatırladırıq.

**Xalq şairi Mirvarid Dilbazi:** “Gülgün həmişə coşqun, həmişə kövrək, həmişə ilhamlıdır. Onun qəlbində vətən həsrəti, analıq duyğuları, mübarizə eşqi bir vəhdət təşkil edir. Ürəyində belə gözəl duyğular yaşadan şairin yolu daim yüksəlişədir!".

**Akademik Bəkir Nəbiyev:** “Sevgidə sədaqət, əhdə vəfa, həyat eşqi, insanın ucalığı, ana-qadın qəlbinin minbir əsrarlı kəhkəşanı övlad məhəbbəti, sülh, əmin-amanlıq arzuları, vətəni qorumaq, doğma təbiətə heyran olmaq, gözəllik duyğusu və s. Mədinə Gülgünün şeirlərində həmişə öz əksini tapmışdır”.

**Xalq şairi Nəriman Həsənzadə:** “Mədinə xanım kövrək bir xanımdır. Bəlkə də şeirlərindəki səmimilik belə bir ürəyə sahib olduğundandır”.

Bax beləcə, yaradıcılığı yüksək qiymətləndirilən, şeirlərini mənəvi övladı bilən Mədinə Gülgünün ədəbi irsi həmişə zəkalara düşüncə, duyğulara həssaslıq gətirəcək.

***Əli NƏCƏFXANLI***
***XQ***

## “Cənubtikintiservis" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

“Cənubtikintiservis” Açıq Səhmdar Cəmiyyətinin 2026-cı il yanvarın 9-da çağırılmış növbədənkənar ümumi yığıncağının yetərsay olmadığı üçün təkrar növbədənkənar ümumi yığıncağının çağırılması zərurəti yaranmışdır.

20 fevral 2026-cı il saat 10.00-da Bakı şəhəri, Səbail rayonu, Gülbala Əliyev küçəsi 25 nömrəli ünvanda “Cənubtikintiservis” Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının təkrar növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

1. “Cənubtikintiservis” Açıq Səhmdar Cəmiyyətinin müşahidə şurasının tərkibinin və maliyyə-təftiş komissiyasının yenidən formalaşdırılması.

Təkrar növbədənkənar ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Əlaqə telefonu**: 012 491-00-30.

**“Cənubtikintiservis” ASC-nin baş direktoru**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 10 (30979) 17 yanvar 2026-cı il, şənbə

*20 Yanvar qırğını – 36*

# Azadlıq mübarizəsinin ilk şəhidləri

## Paytaxtda Ümumxalq Hüzn Gününə hazırlıq

**Yanvarın soyuq küləyi Şəhidlər xiyabanında əsərkən sükutun içində bir ehtiram nəfəsi duyulur. Bu müqəddəs məkanda hər daş, hər ağac, hər addım xalqımızın yaddaşına həkk olunmuş ağrılı, lakin şərəfli tarixdən danışır. 20 Yanvar faciəsinin 36-cı ildönümü ərəfəsində Şəhidlər xiyabanında aparılan hazırlıq işləri də məhz bu müqəddəs yaddaşa göstərilən yüksək hörmətin bariz nümunəsidir.**



Bakı Şəhər İcra Hakimiyyətinin müvafiq qurumları tərəfindən həyata keçirilən abadlıq və səliqə-sahman işləri çərçivəsində xiyabanda təmizlik işləri aparılır, ərazi ziyarətçilər üçün daha da səliqəli hala gətirilir. Şəhidlər xiyabanında olduğumuz zaman qurumun rəsmisi suallarımızı cavablandırarkən bildirdi ki, həmin ərazi daim Bakı Şəhər İcra Hakimiyyətinin nəzarətindədir. Ənənəvi olaraq Şəhidlər xiyabanında geniş təmizlik və abadlıq işləri görülüb, zədələnmiş plitələr dəyişdirilib, ağacların budaqları, bəzi kollar budanıb, qazon örtüyü yenilənib, yeni güllər və kollar əkilib, işıq dirəkləri rənglənib, səkilər və bütün ərazi yuyulub, xiyabandakı hər iki məşəldə profilaktika aparılıb. Xiyaban ərazisində müxtəlif rəngli qərənfillərdən xüsusi kompozisiyalar hazırlanır. Bu işlərə təcrübəli mütəxəssislər, landşaft-dizaynerləri cəlb olunub. Hazırlıq işlərinin yanvarın 19-dək başa çatdırılması planlaşdırılır.



Qeyd edək ki, anım gününə hələ bir neçə gün qalmasına baxmayaraq, artıq ziyarətə gələnlərin sayı xeyli artıb. Xüsusilə gənc nəslin nümayəndələrinin, məktəblilərin üstünlük təşkil etməsi diqqət çəkir. Bu isə faciənin tarixi mahiyyətinin gələcək nəsillərə aşılanmasının əyani göstəricisidir.

Ziyarətçilərdən Bakı şəhəri, 75 saylı məktəbin ibtidai sinif müəllimi Əsmayə İsmayılova bildirdi ki, bu gün uşaqları Şəhidlər xiyabanına gətirmək bizim vəzifə borcumuzdur: “20 Yanvar hadisələri bizim qan yaddaşımızdır. Uşaqlarımız 2-ci sinif şagirdləri olsalar da, indidən biz onları vətənpərvərlik ruhunda böyütmək üçün əlimizdən gələni etməliyik. Onlar bilsinlər ki, gələcəkdə bu Vətən torpağı gələcək nəsillərə əmanətdir və onlar bu əmanəti qorumalıdırlar”.

Xırdalanda yerləşən Sabah Akademiyası Tədris Mərkəzinin erkən inkişaf məktəbəqədər hazırlıq kursunun müəllimi Jalə Şahmirli dedi: “İxtisasca tarix müəllimiyəm. İxtisasıma da uyğun olduğu üçün uşaqları bura gətirmişəm. Məqsəd yalnız tarix dərsi keçmək deyil, həm də vətənpərvərlik hissini erkən yaşlardan formalaşdırmaqdır. Burada balacalara sadə dillə izah edilir: bu torpaq azadlıq uğrunda canından keçən qəhrəmanların məkanıdır. Əgər bir azərbaycanlı övladı böyüdürüksə, yetişdiririksə, o təbii ki, ölkəmizin tarixi haqqında, şəhidlərimiz haqqında məlumatlı olmalıdırlar”. Müəllim danışdıqca uşaqların gözlərindəki suallar və sükutla dinləmələri isə bu ziyarətin təsirsiz ötüşmədiyini göstərirdi.

Şəhidlər xiyabanında dolaşdıqca, bir həqiqət daha aydın hiss olunurdu: 20 Yanvar təkcə matəm günü deyil, həm də xalqın iradəsinin, mübarizə əzminin və müstəqillik yolunda atdığı qətiyyətli addımın simvoludur. Bu gün burada aparılan hər bir hazırlıq işi, ziyarətə gətirilən hər bir uşaq, qoyulan hər bir qərənfil milli yaddaşın yaşadılmasına xidmət edir. Bu hazırlıqlar göstərir ki, dövlət və cəmiyyət birlikdə tarixini unutmur, qəhrəmanlarının xatirəsini yaşadır və gələcək nəsillərə milli qürur və vətənpərvərlik dərsi verir.

Bəli, 36 il keçsə də, 20 Yanvarın ağrısı unudulmur, çünki bu ağrı azadlığın bədəli, müstəqilliyin möhürüdür. Şəhidlər xiyabanında ucalan Əbədi Məşəlin alovu isə 20 Yanvar şəhidlərinin sönməyən ruhunu, azadlıq eşqini nəsildən-nəslə ötürür. Məşəlin fonunda dalğalanan üçrəngli Dövlət Bayrağı isə bu qurbanların hədər getmədiyini, müstəqil Azərbaycanın onların qanı bahasına yüksəldiyini səssiz, lakin qürurla bəyan edir: xalq öz şəhidlərini unutmadı, unutmayacaq!

***Nurəngiz ADİLQIZI***
***XQ***

# Əsarətin son gecəsi

**Yanvarın 16-da Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Azərbaycan xalqının qan yaddaşı – 20 Yanvar faciəsinə həsr olunmuş elmi sessiya keçirilib.**

Muzeyin direktoru, akademik Rafael Hüseynov “Rəşadətin şəhidlik zirvəsi” adlı məruzə ilə sessiyanı açaraq bildirib ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə dinc insanlara atılan güllələr xalqın azadlıq eşqini söndürmək, vüqarını sındırmaq cəhdləri idi. Akademik vurğulayıb ki, bütün o zamankı sovet respublikalarında olduğu kimi, Azərbaycanda da xalq hərəkatı başlanmışdı. 1980-ci illərin sonu, 1990-cı illərin başlanğıcında Azərbaycan xalqı “Azadlıq” meydanına axın edirdi. Natiq qeyd edib ki, “Azadlıq” meydanında yaranmış insan selinin şəkli bütün dünyaya yayılmış və Azərbaycan xalqı “ilin xalqı” adını almışdı.

Bildirilib ki, tariximizdə 1918-ci ilin Mart soyqırımı, 20 Yanvar faciəsi, Xocalı soyqırımı kimi bir neçə hüzn günləri yer alsa da, bu gün artıq bütün şəhidlərin ruhu şaddır. Ona görə ki, müstəqil Azərbaycan artıq zəfər qazanmış dövlətdir. Elə zəfər ki, onun mühafizəsi də təmin olunub. Bu isə dövlətin güclü və ağıllı siyasətinin nəticəsidir.

Rafael Hüseynov 20 Yanvar faciəsi günlərində meydanlarda olub xalqın haqq səsinin tərcümanına çevrilmiş ziyalılarımızın da yaradıcılığına toxunaraq Xəlil Rza Ulutürk, Bəxtiyar Vahabzadə, Zəlimxan Yaqub və digər ədiblərin mübarizəsini də diqqətə çatdırıb.



Daha sonra muzeyin “Komparativistika və bədii tərcümə” şöbəsinin müdiri, professor Şəfəq Əlibəyli çıxış edərək qanlı Yanvar hadisəsinin Moskvadakı o zamankı Azərbaycan Daimi Nümayəndəliyində necə əks-səda doğurmasından bəhs edib.

Sessiyada muzeyin elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Nuranə Əsədullayeva çıxış edərək bildirib ki, 20 Yanvar hadisələri baş verdiyi ilk günlərdən etibarən Azərbaycan ədəbiyyatında güclü rezonans doğurmuş, poeziyada, publisistik nəsrlərdə, memuar və esse janrlarında geniş şəkildə əksini tapmışdır.

Muzeyin beynəlxalq əlaqələr və dünya muzeyləri şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Gülnar Əqiq bildirib ki, məhz Ümummilli lider Heydər Əliyevin xalqa xüsusi müraciətindən sonra dünya azərbaycanlıları Bakıda 20 yanvarda törədilən faciədən xəbər tutmuş, Azərbaycan xalqına mənəvi dəstək göstərmək üçün kütləvi informasiya vasitələrində aramsız etiraz məktubları, məqalə və digər yazılarla çıxışlar etmişlər.

***Ə.QABİL***
***XQ***

## İDMAN

### Kamandan oxatma yarışı



**Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi, Azərbaycan Kamandan Oxatma Federasiyasının təşkilatçılığı ilə örtülü salonda keçirilən ölkə birinciliyi və çempionatı çərçivəsində iki kateqoriya üzrə mübarizəyə yekun vurulub. Gərgin idman rəqabəti şəraitində keçən yarışların ilk mərhələsində idmançılar U21 və böyüklər kateqoriyaları üzrə öz məharətlərini nümayiş etdiriblər.**

U21 kateqoriyası üzrə qadınların yarışında Fatimə Hüseynli 1-ci, Aliyə Əliyeva 2-ci, Lalə Almas 3-cü nəticə göstərib. Kişilərdə isə Sərdar Vəliyev qızıl, Nurlan Rəhimli gümüş, Anar Cavadzadə isə bürünc mükafata sahib çıxıblar.

Azərbaycan çempionatında qadınlardan Yaylagül Ramazanova qızıl medal, Fatimə Hüseynli gümüş medal, Dilguşə Sadıqova isə bürünc medal qazanıb.

Kişilərdən Məhəmmədəli Əliyev 1-ci, Nurlan Rəhimli 2-ci, Hüseyn Məhərrəmov isə 3-cü yerə layiq görülüb.

Qaliblərə mükafatları Azərbaycan Kamandan Oxatma Federasiyasının baş katibi Fərid Xəlilov, Gənclər və İdman Nazirliyinin strateji təhlil sektorunun müdiri Ülviyyə Hacıyeva və Azərbaycan Tibb Universitetinin tədris idman mərkəzinin müdiri Qələndər Aslanov təqdim ediblər.

### Azərbaycan basketbolçusu populyarlıq qazandı



**Basketbol üzrə FIBA Çempionlar Liqasının qrup mərhələsində keçirilən oyunlardan birində fərqlənən epizod beynəlxalq basketbol ictimaiyyətinin diqqətini cəlb edib. Azərbaycanı turnirdə təmsil edən “Sabah” klubunun basketbolçusu Hassani Qravett Çexiyanın “Nimburk” komandası ilə matç zamanı nümayiş etdirdiyi texniki ustalıqla yadda qalıb.**

Qarşılaşmanın gedişində Qravettin etdiyi yüksək səviyyəli spin-move epizodu oyunun ən yaddaqalan anlarından birinə çevrilib. Sözügedən hərəkət Avropanın ali basketbol qurumu olan FIBA tərəfindən Çempionlar Liqasının rəsmi “Instagram” hesabında paylaşılaraq qısa müddət ərzində milyonlarla baxış sayı toplayıb və azarkeşlər tərəfindən böyük marağa və müzakirəyə səbəb olub. Video qısa müddət ərzində 3 milyona yaxın baxış, 60 minə yaxın bəyənmə toplayaraq basketbol ictimaiyyətinin diqqətini üzərinə çəkib.

Bu paylaşım həm Hassani Qravettin fərdi ustalığının, həm də klubun beynəlxalq arenada artan nüfuzunun göstəricisi kimi qiymətləndirilir. FIBA-nın rəsmi platformasında yer alan bu epizod Azərbaycan basketbolunun Avropada diqqət mərkəzində olduğunu bir daha sübut edir.

Hassani Qravett artıq 2 ildir ki, 3 qat Azərbaycan çempionu “Sabah”ın heyətində çıxış edir.

### Stolüstü tennisçimiz Çində təlim-məşq toplanışında

**Stolüstü tennisçi Onur Quluzadə növbəti beynəlxalq təlim-məşq toplanışında iştirak edəcək.**

Seçmə komandamızın üzvü, baş məşqçi Mixail Timofeyevin rəhbərliyi ilə, yanvarın 17-dən 27-dək Çin Xalq Respublikasının Hebey əyalətinin Şiszyaçjuan şəhərində yerləşən “Zhenq Dinq” təlim-məşq bazasında hazırlıq keçəcək. Bu mərkəz Çinin stolüstü tennis üzrə milli komandalarının əsas bazası hesab olunur.

Qeyd edək ki, təlim-məşq toplanışı qarşıdakı beynəlxalq yarışlara hazırlıq məqsədi daşıyır.

***Qabil YUSİFOĞLU***
***XQ***

## HAVA

### Səhər yağmursuz, gündüz yağış və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi yerlərdə çiskinli, axşam isə arabir yağıntılı olacağı gözlənilir. Gecəyə doğru yarımadanın ayrı-ayrı yerlərində yağıntının intensivləşəcəyi, bəzi şəhərətrafı ərazilərdə yağışın sulu qarla qarışıq yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək.**



Havanın temperaturu gecə 0-3, gündüz 4-7 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 768 millimetr civə sütunu, nisbi rütubət isə 75-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüzdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə yağıntının intensivləşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 4 dərəcə şaxtadan 1 dərəcəyədək isti, gündüz 5-10 dərəcə isti, dağlarda gecə 5-10, yüksək dağlıq ərazilərdə 15-20, gündüz 0-5 dərəcə şaxta olacaq.

***Q.ƏLİYEV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Apellyasiya Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sabiq hakimi, Əməkdar hüquqşünas

**RAFAEL QVALADZENİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu, kollektivi və Həmkarlar İttifaqı Komitəsi maşınqayırma texnologiyaları kafedrasının tədris ustası

**MÜBARİZ KƏLƏŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

**ÜNVANIMIZ:**
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2869
SİFARİŞ 68
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00